**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 22 (6164) 19 iyun 2026-cı il | Qiyməti 40 qəpik

# İlham Əliyev: "Ölkədə işsizlik aşağı həddə saxlanılır"




**Azərbaycan son bir neçə il ərzində bir sıra sosial dəstək paketlərini həyata keçirib.**

**Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev Bakıda keçirilən İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində deyib.**

**O bildirib ki, bu sosial dəstək paketləri ölkə əhalisinin 30 %-dən çox hissəsini əhatə edib:**

**"Azərbaycanda yoxsulluq və işsizlik səviyyəsi təxminən 5 % civarındadır. Bu məsələlər daim dövlətin diqqət mərkəzindədir. Əhalimizin sayı artdıqca yeni çağırışlar da meydana çıxır. Təəssüf ki, bir sıra ölkələrdə, o cümlədən bəzi müsəlman ölkələrində əks tendensiyalar müşahidə olunur ki, bu da əlavə sosial-iqtisadi çətinliklər yaradır. Belə şəraitdə yeni iş yerlərinin açılması, sosial infrastrukturun qurulması və əhalinin rifahının yüksəldilməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda həyata keçirilən məqsədyönlü siyasət nəticəsində işsizlik səviyyəsi çox aşağı həddə saxlanılır".**

## "Yeni Dövlət Proqramının əsas nəticələri məhz yerlərdə formalaşacaq"



**Aqrar sahədə yeni Dövlət Proqramının əsas nəticələri məhz yerlərdə formalaşacaq. Məhsuldarlığın artırılması, yeni bağların salınması, müasir suvarma sistemlərinin tətbiqi, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması, emal müəssisələrinin yaradılması, saxlama və logistika imkanlarının genişləndirilməsi kimi hədəflər yalnız dövlət qurumlarının deyil, fermerlərin, sahibkarların və investorların birgə səyləri nəticəsində reallaşa bilər.**

Adalet.az xəbər verir ki, bu fikirləri Aqrar sahədə yeni Dövlət Proqramının tanıtımı ilə bağlı Göygöldə keçirilən regional müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib. O deyib ki, regional müşavirənin əsas məqsədi Dövlət Proqramında nəzərdə tutulan hədəf və vəzifələri birgə müzakirə etmək, fermerlərin və sahibkarların rəy və təkliflərini dinləmək, yerlərdə mövcud vəziyyəti qiymətləndirmək və proqramın icrası ilə bağlı qarşıda duran vəzifələri dəqiqləşdirməkdir.

## İƏT sədri Məmməd Arazın şeirini dedi




**Toplantımızın Azərbaycanın Milli Qurtuluş Günü ilə üst-üstə düşməsi xüsusilə əlamətdardır. Bu gün - ölkənin sabitlik, dayanıqlılıq və yenilənmə yolunda yeni mərhələyə qədəm qoymasını təmin edən tarixi dönüş nöqtəsidir.**

Adalet.az xəbər verir ki, bu sözləri İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində çıxışında deyib.

"Bu diyar əsrlər boyu Qədim İpək Yolundan bu günün Orta Dəhlizinə qədər Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirərək coğrafi mövqeyini ortaq imkanlara çevirmişdir. Lakin Azərbaycanın hekayəsi yalnız bağlantılar hekayəsi deyil. Bu, eyni zamanda, dözümlülük və yenilənmə hekayəsidir. Bu baxımdan Şuşaya son səfərimdən qısa bir təəssürat paylaşmaq istərdim. Qarabağın incisi olan Şuşanın zəngin irsi şairə və xeyriyyəçi Xurşidbanu Natəvan kimi şəxsiyyətlərin timsalında yaşayır. O, mədəni dayanıqlılığın və mərhəmətin əbədi rəmzidir. Məni Xalq şairi Məmməd Arazın aşağıdakı misraları çox təsirləndirdi:

***"Ayağa dur, Azərbaycan, səninləyəm!***
***Səndən qeyri biz hər şeyi bölə billik!"***

Çox güclü misralardır. Bu sözlər heç vaxt ümidini itirməmiş xalqın ruhunu əks etdirir. Məhz həmin ruh Azərbaycanla tərəfdaşlığımızın əsasını təşkil edir", - deyə Əl-Casir qeyd edib.

## Elşad Hacıyev: "Tik-Tok uşaqları zərərli informasiyalarla üz-üzə qoyur"



**Daxili İşlər Nazirliyinə gün ərzində daxil olan müraciətlərin böyük əksəriyyəti sosial media və rəqəmsal mühitlə əlaqədardır.**

Adalet.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi Elşad Hacıyev deyib.

O qeyd edib ki, narkotik vasitələrin satışı da daxil olmaqla, ən ağır cinayət növlərinin əhəmiyyətli hissəsi məhz rəqəmsal mühitdə təşkil və idarə olunur:

"Sosial şəbəkələrdə saxta hesablar yaradılır, yalançı şəxsiyyətlər formalaşdırılır və bu saxta kimliklər vasitəsilə uşaqlar müxtəlif cinayətlərə təhrik edilir. Xüsusilə Tik-Tok platforması uşaqlara yalançı şəxsiyyət təqdim edərək onları zərərli informasiyalarla üz-üzə qoyur".

E. Hacıyev vurğulayıb ki, ölkənin məktəb və universitetlərində keçirilən görüşlər zamanı şagird və tələbələrlə maarifləndirici söhbətlər aparılıb:

"Xüsusilə, rəqəmsal təhlükələr və onlardan qorunma yolları barədə məlumat verilib:

"Qanunvericiliyə təklif olunan dəyişikliklər isə hər hansı cəza və ya qadağaların tətbiqi deyil. Bu, rəqəmsal mühitin daha təhlükəsiz və məsuliyyətli idarəsinə xidmət edəcək".

## Zelenski: «Ukrayna yanırsa, Moskva da yanacaq»



**"Ukrayna yanırsa, sizin Moskvanız da yanacaq". Adalet.az xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski deyib.**

O, Müdafiə Qüvvələrinin cümə axşamı gecəsi Moskva neft emalı zavoduna zərbə endirməsinin rusların Kiyev-Peçoryan monastırının ərazisinə zərbəsinə cavab olduğunu qeyd edib.

Prezident müharibəyə son qoyulmasının vacibliyini vurğulayıb: "Moskvaya qarşı tamamilə ədalətli cavabımıza gəldikdə: Putin bu müharibəyə son qoymaq istəmirsə, davam etmək istəyirsə, biz boş oturmayacağıq, cavab verəcəyik. Cavab güclü və ədalətli olmalıdır. Onlar monastıra zərbə endirdilər.

Jurnalistlərlə görüşümüz zamanı monastırda idik və mən tamamilə açıq şəkildə dedim: Biz cavab hazırlayacağıq və siz bunu görəcəksiniz.

Biz bu müharibəni istəmirik və heç vaxt istəməmişik. Bunu hamı bilir, tərəfdaşlarımız da bilir və biz qətiyyən istəmirik ki, Ukrayna düşmən üzündən yansın. Amma Ukrayna yanırsa, sizin Moskvanız da yanacaq. Buna görə də bir daha vurğulayırıq ki, təcavüzə, bu müharibəyə son qoymağın vaxtıdır".

## Türkiyənin 54 vilayətində əməliyyat

**Türkiyənin 54 vilayətində polis tərəfindən əməliyyat keçirilib.**

Bu barədə Türkiyənin Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb.

Məlumata görə, sosial media platformaları üzərindən muzdlu qatil və cinayətkar qruplaşmaları tərifləyən şəxslərə qarşı keçirilən əməliyyatlarda 258 şübhəli saxlanılıb.

*Əbülfət MƏDƏTOĞLU*

## Çiynimizdə oturan mələk - ÖLÜM

Bax:səh-8

### GÜNÜN LƏTİFƏSİ

Dəlixanaya yeni gələn müdir dəlilərin koridorda növbəyə dayanıb divardakı bir deşikdən baxdıqlarını görür. Gəlib baxmaq istəyəndə dəlilər onu döyərək növbənin axırına göndərirlər. Həkim növbədə dayanır və iki dəfə növbəsi gəlir, baxır divara, amma heç nə görmür və dəlilərdən soruşur:

**- Mən iki dəfə baxdım, heç nə görmədim, siz nə görmüsüz burda?**

Dəlilərdən biri deyir:

**- 2 dəfəyə görməzsən də, biz 2 ildi baxırıq, heç nə görmürük.**

## Prezident Ombudsmanların Beynəlxalq Bakı Sammitinin iştirakçılarına müraciət ünvanlayıb



**Prezident İlham Əliyev "Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Sammitinin iştirakçılarına müraciət ünvanlayıb.**

Müraciətdə qeyd olunub:

"Hörmətli Sammit iştirakçıları,

Sizi "Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Sammitinin açılışı münasibətilə salamlayıram.

İnsan hüquqları sahəsində yeni qlobal çağırışlara həsr olunmuş bu Sammitin

18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günündə keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu tarix Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin ölkəmizdə ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etdiyi və insan hüquqlarının təmin olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi gündür.

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətlə inkişafı bəşəriyyətin sosial, iqtisadi, hüquqi və etik gündəliyini əsaslı şəkildə dəyişməkdədir. Bu proses yeni imkanlarla yanaşı, bütün sahələrdə, o cümlədən insan hüquqları sahəsində də yeni prioritetləri aktuallaşdırır.

Ölkəmiz texnoloji tərəqqinin insan amilinə xidmət etməsini dövlət siyasətinin əsas prinsiplərindən biri kimi qəbul edir. Belə ki, Azərbaycanda innovativ texnologiyaların və süni intellektin məsuliyyətli və balanslaşdırılmış tətbiqi istiqamətində mühüm addımlar atılır. Qeyd olunan sahədə qəbul etdiyimiz hüquqi aktlar, konsepsiya və fəaliyyət planları bu texnologiyaların təhlükəsiz, şəffaf və insan hüquqlarına əsaslanan prinsiplər çərçivəsində tətbiqini təşviq edir, inklüziv inkişafın dəstəklənməsinə və rəqəmsal transformasiyanın sürətləndirilməsinə xidmət edir.

Azərbaycanın yeni rəqəmsal arxitekturası üzrə həyata keçirilən təşəbbüslər, dövlət idarəçiliyində süni intellektin tətbiqinin genişləndirilməsi, informasiya təhlükəsizliyi və milli süni intellekt infrastrukturunun inkişaf etdirilməsi ölkəmizin müasir çağırışlara strateji yanaşmasını nümayiş etdirir.

Xüsusi qeyd olunmalıdır ki, bu yaxınlarda Bakı şəhərində keçirilmiş BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası dayanıqlı inkişaf, rəqəmsal idarəetmə, insanyönümlü şəhər mühitinin formalaşdırılması istiqamətində beynəlxalq əməkdaşlığa və qlobal dialoqa ölkəmizin verdiyi töhfənin mühüm göstəricisi oldu.

Bu kontekstdə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları süni intellekt texnologiyalarının, innovativ həllərin və ekoloji dayanıqlılıq prinsiplərinin insan rifahına, təhlükəsiz yaşayış mühitinin formalaşdırılmasına və sosial-iqtisadi reinteqrasiyanın təmin edilməsinə yönəlmiş uğurlu inkişaf modelidir.

Bu inkişaf tendensiyaları insan hüquqlarının müdafiəsi sahəsində institusional mexanizmlərin və beynəlxalq əməkdaşlığın əhəmiyyətini də artırır. Bu baxımdan milli insan hüquqları institutları, o cümlədən ombudsman təsisatı yeni texnoloji çağırışlar dövründə insan hüquq və azadlıqlarının müdafiəsində və hüquq mədəniyyətinin təbliğində mühüm rol oynayır.

Əminəm ki, Ombudsmanların Beynəlxalq Bakı Sammiti bu sahədə beynəlxalq əməkdaşlığın və qabaqcıl təcrübə mübadiləsinin genişləndirilməsinə, insanyönümlü və hüquqa əsaslanan innovativ idarəetmə mexanizmlərinin təşviqinə mühüm töhfə verəcəkdir.

Bir daha sizi salamlayır, Sammitin işinə uğurlar arzu edirəm".

# "Hacıyev Dilicanda tarix yazdı..."

**"Prezident köməkçisi Hikmət Hacıyev Dilicana getdi. Ermənistanın Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşdü. Xəbər beş cümlə ilə keçdi və əslində lentdə olmaqla çox böyük mesaj verdi. Amma Dilican da Dilicandır. Orada hər daş bir şeyi, mesajı bilir və verir."Mimino" filmini xatırlayırsınızmı? Frunzik Mkrtçyan qürurla deyir: "Bizim Dilicanda elə su var ki, kranı açırsan, dünyada ikinci yeri tutur. Birinci yer San-Fransiskodadır."**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

Onun sözlərinə görə, Sovet kinosunun bu replikası on illərlə Ermənistanın vizit kartı oldu:

"Dilicanın suyu, Dilicanın meşəsi, Dilicanın dağı, hamısı "erməni mənzərəsi" kimi dünyaya satıldı. Bir sual: o suyun mənbəyi haradadır? Ağstafa çayı. Gəncə, Qazax, Tovuz ellərinin əsrlər boyu yaylaq-qışlaq bildikləri, heyvan otardıqları, balıq tutduqları dağ silsilələrindədir. Sovet kinosunda "erməni suyu" kimi dünyaya satılan nemət isə əslində Azərbaycan torpağının suyudur. Bu, coğrafiyanın faktıdır, ritorikadan asılı deyil."Mimino"nun replikası bu gün daha fərqli səslənir.Çar Rusiyası dövründə Azərbaycan dramaturgiyasının banisi Nəcəf bəy Vəzirov Peterburq Kənd Təsərrüfatı Akademiyasını bitirmişdi, sonra çar hökuməti onu Dilican dərəsinə meşəbəyi təyin etdi. İmperiya nöqteyi-nəzərindən bu adi bir vəzifəydi. Amma Vəzirov o meşədə əyləşib yatmadı. O, kəndliləri dinlədi, həyatı müşahidə etdi, bəy-rəiyyət münasibətlərini əyani şəkildə gördü".

O, Azərbaycan realist dramaturgiyasının klassik obrazlarının həmin meşələrdə formalaşdığını deyib:

"Yeni Azərbaycan mədəniyyətinin bir hissəsi Dilicanda yazıldı. Eyni meşələrdə, eyni illərdə başqa bir adam da tarixi yadırdı - Qaçaq Kərəm. Jandarmlar Qazaxda, Gəncədə onu sıxışdırdıqda o, Dilican dərəsinə keçirdi. Keçilməz meşə, çar polisinin ayağının çatmadığı mağaralar, ən etibarlı sığınacaq burası idi.Amma bir sirr var idi axı, meşənin "sahibi" meşəbəyi Nəcəf bəy Vəzirov imperiya məmurlarına nifrəti ilə tanınırdı. Kərəm gəldikdə onun gizlənməsinə göz yumdu. Bəzən gizli şərait yaratdı.



Bir yazıçı ilə bir qaçaq, çar Rusiyasına qarşı öz aralarında "Dilican ittifaqı" qurmuşdular.O vaxt azərbaycanlı Dilicana sığınırdı.Bu gün Azərbaycan Prezidentinin köməkçisi Dilicanda idi, yəni dədə - baba yurdunda.Bir də soruşaq: "Mimino" filmindəki məhkəmə səhnəsini xatırlayırsınızmı? Dilicanlı erməni ilə gürcü Moskvada məhkəmə zalında üz-üzə gəlir: hakim ortada oturub, tərəflər birbirinə iddia irəli sürür, sonda barışmaq məcburiyyəti yaranır. Amma barışıq da hakimin nəzarəti altında baş verir.On illərlə Azərbaycan-Ermənistan problemi belə həll edildi: Moskvada, Vaşinqtonda, Brüsseldə, vasitəçinin masası arxasında, xarici hakimin göz qırpmasını gözləyərək. Hikmət Hacıyevin Dilican səfərindən görüntülər - VİDEO Bu gün isə Azərbaycan nümayəndəsi həmin hakimləri kənara qoyub, birbaşa Dilicanın özündə oturdu. "Mimino"nun ssenarisi başqa cür yazıldı: məhkəmə zalı yox, sülh masası quruldu, Hakim kənarlar yox, tərəflər idi. Dilicanın ətrafında başqa bir coğrafiya da var. Azərbaycanın Qazax rayonunun Ermənistan tərəfindən hələ qaytarılmamış anklav kəndləri: Barxudarlı, Sofulu, Yuxarı Əskipara, Dilicana bir neçə on kilometrlik məsafədədir.Azərbaycan həmin kəndlərin qaytarılmasını rəsmən tələb etdiyi, sərhəd delimitasiyası danışıqları apardığı günlərdə Hacıyev mübahisəli nöqtələrin lap yaxınlığına maneəsiz gəldi. Ermənistan cəmiyyətinə, revanşist dairələrə göndərilən mesajın məntiqi sadədir: sərhəd artıq sərhəd də deyil, keçid xəttidir.Dilican həm çar Rusiyasının, həm sovet elitasının Cənubi Qafqazdakı ən seçkin istirahət zonası idi. Moskvanın hərbi generalları, elmi simaları, partiya nomenklaturası bu şəhəri "öz" yeri sayırdı.Bu gün Moskvadan müstəqilləşməyə çalışan Ermənistan rəhbərliyi ilə müstəqil siyasət yürüdən Azərbaycan Rusiyanın tarixi "ev"inin içərisindəki otaqda Kreml olmadan oturub danışır.Regional sülhün formatlanması Rusiyasız aparılır. Bir növ Rusiyanın tarixi dayaq nöqtəsindən.

Görüşün sonunda bir qərar açıqlandı: növbəti görüş Azərbaycanda olacaq.Yeni bu dəfə Armen Qriqoryan Azərbaycan torpağına gələcək. Hansı şəhər, hələ bilinmir. Amma əgər Dilican bu qədər layiqli çıxış etdisə, Şuşa necə olar görüş yeri kimi?Dilicanda hər daş bir şey bilir. Nəcəf bəyin meşəsi, Kərəmin mağarası, "Mimino"nun suyu. Hə, bir də Hacıyevin üstünlüyü".

**Vasif ƏLİHÜSEYN**

## Dövlət və özəl qurumların adından fişinq mesajları göndərilir

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində Milli Kibertəhlükəsizlik Agentliyi (MKA) növbəti fişinq kampaniyası aşkarlayıb.**

Adalet.az-ın məlumatına görə, aparılan monitorinqlər nəticəsində müəyyən edilib ki, kiberdələduzlar bir sıra yerli qurumların əvvəlcədən ələ keçirilmiş rəsmi e-poçt hesablarından istifadə edərək fişinq məktubları yayırlar. Belə ki, dələduzlar tanış və etibarlı görünən ünvanlardan "Shared a File" və ya "New secure message from" başlıqlı məktublar göndərərək istifadəçiləri saxta sənəd portallarına yönləndirirlər.

Məktublardakı keçidlər legitim freshdesk.com platformasında yerləşdiyi üçün təhlükəsizlik alətlərindən yayınır. Keçidə daxil olan istifadəçi avtomatik olaraq iphro.nobeienergy[.]com ünvanında yerləşən saxta "Microsoft" giriş səhifəsinə yönləndirilir. Bu səhifə real "Microsoft" giriş səhifəsinə oxşayır və istifadəçinin daxil etdiyi istifadəçi adı, şifr və təsdiq kodunu (MFA/2FA) real vaxt rejimində ələ keçirir. Nəticədə kiberdələduzlar yaradılmış çərəzi ("cookie") oğurlayır və ikifaktorlu doğrulamadan yan keçərək hesaba birbaşa giriş əldə edirlər.



İstifadəçilərə tövsiyə olunur ki, gözlənilməyən "paylaşılmış sənəd" və ya "təhlükəsiz mesaj" məzmunlu e-poçtlardakı keçidlərə daxil olmasınlar, belə məktubların doğruluğunu göndərən şəxslə alternativ kanal vasitəsilə dəqiqləşdirsinlər, giriş zamanı ünvan sətrində yalnız rəsmi login.microsoftonline.com ünvanının olduğuna əmin olsunlar və şifr ilə təsdiq kodlarını şübhəli səhifələrə daxil etməsinlər.

Şübhəli hallarla qarşılaşdıqda aidiyyəti qurumlara və ya Milli Kibertəhlükəsizlik Agentliyinin elektron poçt ünvanı info@cert.az və ya "1654" qaynar xətti vasitəsilə məlumat verilməsi xahiş olunur.

## MEDİA və İSƏT Xəbər Agentlikləri Birliyi əməkdaşlıq perspektivlərini müzakirə etdi



**Medianın İnkişafı Agentliyində (MEDİA) İslam Əməkdaşlıq Təşkilatının (İSƏT) Xəbər Agentlikləri Birliyinin baş direktoru ilə görüş keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə MEDİA məlumat yayıb.

Görüşdə Agentliyin İcraçı direktoru Əhməd İsmayılov qlobal informasiya məkanında sürətlə dəyişən çağırışlar fonunda media qurumları arasında əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. O bildirib ki, saxta və qeyri-mötəbər məlumatların yayılmasına qarşı mübarizədə təcrübə mübadiləsinin təşkili, media və rəqəmsal savadlılığın təşviqi, eləcə də dezinformasiya, yanlış məlumatlandırma və nifrət nitqinə qarşı koordinasiyalı fəaliyyətin genişləndirilməsi xüsusi önəm daşıyır.

İSƏT-in Xəbər Agentlikləri Birliyinin baş direktoru Məhəmməd Əl-Yami rəqəmsal transformasiya dövründə innovativ texnologiyaların, xüsusilə süni intellekt alətlərinin media sahəsində məsuliyyətli və şəffaf istifadəsinin əhəmiyyətinə diqqət çəkib.

O bildirib ki, kontentin hazırlanması, yoxlanılması və idarə olunmasında yeni texnologiyaların tətbiqi peşəkar jurnalistika prinsiplərinə və etik standartlara uyğun şəkildə həyata keçirilməlidir.

Görüş zamanı media savadlılığının artırılması, informasiya təhlükəsizliyinin təşviqi, media sahəsində innovativ həllərin tətbiqi və gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Medianın İnkişafı Agentliyi və Audiovizual Şura birləşdirilir

**Medianın İnkişafı Agentliyi və Audiovizual Şuranın əsasında Media və Yayım Şurası yaradılır.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında müzakirəyə çıxarılan "Media haqqında" qanuna təklif edilən dəyişikliklərdə əksini tapıb.

Media və Yayım Şurası Azərbaycan Respublikasında media və yayım sahəsində səlahiyyətli dövlət orqanı olacaq.

Beləliklə, Medianın İnkişafı Agentliyi və Audiovizual Şuranın səlahiyyətlərini bu qurum yerinə yetirəcək. Media və Yayım Şurasına əlavə hüquq və vəzifələr də verilir. Yeni hüquqlar aşağıdakılar olacaq:

- media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlər görmək;
- dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi, dövlət orqanlarının (qurumlarının) media subyektləri ilə əlaqələrinin təkmilləşdirilməsi və qarşılıqlı etimadın artırılması ilə əlaqədar tədbirlər həyata keçirmək;
- jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, media sahəsində mütəxəssislərin hazırlanması və əlavə təhsilinin təşkili məqsədilə tədbirlər (təlimlər, seminarlar və s.) həyata keçirmək, həmçinin media nümayəndələri üçün müsabiqələr təşkil etmək;
- əhalinin və ya müəyyən təbəqənin maarifləndirilməsinə, ictimai normalara uyğun davranış qaydalarının formalaşdırılmasına, onların diqqətinin cəmiyyətdəki aktual məsələlərə cəlb edilməsinə yönəlmiş proqramları və materialları sifariş vermək və mediada yayımlanmasını təmin etmək;
- audiovizual məhsulların istehsalı və yayımı üzrə dövlət sifarişçisi kimi çıxış etmək, bu məqsədlə müsabiqələr keçirmək;
- cəmiyyətdə baş verən hadisələrin, dövlət siyasətinin mediada ədalətli, balanslı, obyektiv, qərəzsiz işıqlandırılmasına, media subyektlərində peşə etikası (etik davranış) qaydalarına riayət edilməsinə, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün tədbirlər görmək;
- media subyektlərinin inkişafına, iqtisadi müstəqilliyinin gücləndirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsini təşkil etmək, bu məqsədlə müsabiqələr keçirmək;
- nəzərdə tutulan müsabiqə qaydalarını təsdiq etmək;
- media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində tədbirlər görmək;
- dezinformasiyanın yayılmasının qarşısının alınması, o cümlədən onun aşkarlanması, qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində tədbirlər görmək;
- dezinformasiyanın yayılması risklərinin azaldılması və nəticələrinin minimuma endirilməsi məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə operativ əlaqələndirmə mexanizmlərini qurmaq və fəaliyyətini təmin etmək;
- media subyektlərinin fəaliyyəti ilə bağlı təhlillər aparmaq, habelə ictimai rəyin öyrənilməsini təşkil etmək;
- informasiya mühitinin təhlili və sosioloji sorğular əsasında ictimai rəyi, dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasını və tendensiyalarını, dövlət orqanlarının (qurumlarının) fəaliyyəti ilə bağlı ictimai fikri öyrənmək, cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələləri müəyyən etmək və təkliflər vermək;
- mediada, o cümlədən sosial şəbəkə platformalarında rəqəmsal məzmunun təhlilini həyata keçirmək və nəticəsinə uyğun tədbirlər görmək;
- media subyektlərinin fəaliyyəti qanunla nəzərdə tutulan tələblərə cavab vermədikdə, bununla bağlı tədbir görülməsi məqsədilə aidiyyəti üzrə müraciət etmək;
- Media Reyestrini formalaşdırmaq, aparmaq, ondan istifadə edilməsinə və məlumatların mühafizəsinə nəzarət etmək;
- Media Reyestrinə daxil edilmiş media subyektlərinə Media Reyestri şəhadətnaməsi, jurnalistlərə isə jurnalist vəsiqəsi vermək;

Yeni quruma əlavə olaraq aşağıdakı vəzifələr şamil olunacaq:

- xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;
- media sahəsində peşə (etik) davranış qaydalarına riayət edilməsi üzrə araşdırmalar aparmaq və bu istiqamətdə tövsiyələr hazırlamaq;
- "Reklam haqqında" qanuna uyğun olaraq sosial reklamlar sifariş vermək;
- fəaliyyət istiqamətlərinə uyğun olaraq təhlillərin aparılması, sorğuların keçirilməsi, hesabatların, rəy və təkliflərin hazırlanması məqsədilə fiziki və hüquqi şəxslərə sifarişlər vermək;
- fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;
- istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;
- səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;
- "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;
- strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək.

Şuranın sədri və üzvləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin və vəzifədən azad ediəcəklər. Şuranın üzvləri öz aralarından sadə səs çoxluğu ilə 2 (iki) sədr müavini seçəcəklər.

Qeyd edilib ki, müasir dövrdə milli informasiya təhlükəsizliyini və medianın iqtisadi müstəqilliyini təmin etmək üçün Azərbaycanda media sahəsinə münasibətdə daha çevik və kollegial mexanizmə keçid zərurəti yaranıb. Sözügedən mexanizm də öz növbəsində çap, onlayn və audiovizual media arasındakı sərhədlərin silinməsi, informasiya sisteminin əsas sütunu olan mediaya vahid yanaşmanı şərtləndirir.

Bu baxımdan, qanun layihəsində vahid qurumun - Media və Yayım Şurasının yaradılması, Şura ilə bağlı vəzifə və öhdəliklərin "Media haqqında" qanunda öz əksini tapması və qurumun kollegial idarəetmə modelini əsas götürməsi medianın müstəqilliyinə və quruma münasibətdə ictimai etimadın yüksəlməsinə zəmanət verən effektiv mexanizmdir.

"Media haqqında" qanunda təklif olunan dəyişikliklər daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, eləcə də yerli medianın inkişafına təkan verməyə şərait yaradacaq.

# Müəllimlərin geyimi ilə bağlı hüquqi əsas yaradılır

**Təhsilverənlər üçün geyimlə bağlı hüquqi əsasın yaradılması dövlət ümumi təhsil müəssisələrində peşəkar iş mühitinin və təşkilati mədəniyyətin daha da möhkəmləndirilməsinə yönəlib.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin Elm və təhsil komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Ümumi təhsil haqqında" qanuna dəyişiklikdə əksini tapıb. Müəllim yalnız bilik və bacarıqları şagirdlərə çatdıran şəxs deyil, eyni zamanda, davranışı, ünsiyyət mədəniyyəti və peşəkar görünüşü ilə onlar üçün nümunə rolunu yerinə yetirir. Bu baxımdan müəllimin işgüzar üslubda olması onun peşəkar statusunu, məsuliyyətini və təhsil müəssisəsinin nümayəndəsi kimi daşıdığı missiyanı daha dolğun şəkildə ifadə edir. Səliqəli, sadə və işgüzar geyim müəllimin pedaqoji fəaliyyətinin səmərəli təşkili baxımından mühüm amillərdən hesab olunur. Belə görünüş dərs prosesində diqqətin əsas məqsəddən yayınmamasına kömək edir, müəllimin sinfi idarəetmə bacarıqlarını və ünsiyyət effektivliyini dəstəkləyir. Eyni zamanda, şagirdlərdə müxtəlif mühitlərə uyğun geyim seçimi, peşəkar davranış mədəniyyəti və etik ünsiyyət normaları ilə bağlı düzgün yanaşmanın formalaşmasına müsbət təsir göstərir. Müəllimin geyimi onun gündəlik fəaliyyətinin xarakterinə uyğun, rahat və praktik olmaqla yanaşı, məktəbin peşəkar mühitini əks etdirən xüsusiyyətlərə malik olmalıdır. Müəllimlər üçün vahid işgüzar yanaşmanın tətbiqi məktəblərdə korporativ idarəetmə mədəniyyətinin inkişafına da mühüm töhfə verir. Peşəkar görünüş müəllim kollektivində komanda ruhunun, qarşılıqlı hörmətin və ortaq təşkilati dəyərlərin güclənməsinə xidmət edir. Şagirdlər üçün məktəbli forması məktəb kimliyinin və aidlik hissinin ifadəsi olduğu kimi, müəllimlər üçün də işgüzar geyim təhsil müəssisəsinin korporativ mədəniyyətinin, peşəkar davranış standartlarının və institusional dəyərlərinin mühüm tərkib hissəsi kimi çıxış edir. Bu yanaşma məktəbin ictimai nüfuzunun möhkəmlənməsinə, valideynlərin təhsil müəssisəsinə etimadının daha da artmasına və ümumilikdə sağlam, nizamlı və peşəkar təhsil mühitinin formalaşmasına xidmət edir.

*Rüstəm Hacıyev*



## Memorandum hələ münaqişənin sonu deyil

**ABŞ və İran arasında razılaşma əldə olunması münaqişənin tam həlli demək deyil və Yaxın Şərqdə güc bslansını dəyişməyəcək. İyunun 14- də bağlanan memorandum, sadəcə olaraq müharibəyə fasilə verəcək və Hörmüz boğazından gəmilərin rüsum ödəmədən keçidinə icazə veriləcək.**

**Vaşinqton və Tehran münaqişənin həlli istiqamətində razılaşma memorandumu imzaladılar. İran prezidenti Məsud Pezeşkian bildirdi ki, İranın Ali milli təhlükəsizlik şurası ABŞ-la danışıqları davam etdirməyi qərara alıb. Lakin, burda növbəti məsələyə də aydınlıq gətirilməsinə ehtiyac olacaq. Belə ki, ABŞ və İran arasında əldə olunan razılaşma, İsrailin maraqlarına zərbə vura bilər. Ona görə də, münaqişənin yenidən alovlanma riski qalmaqdadır.**

**Ekspertlərin fikirincə, memorandum tərəflərin gələcəkdə daha detallı razılaşma əldə etmələri üçün atılan bir addımdır. Sadəcə olaraq bu razılaşmada əldə olunan əsas maddə, Hörmüz boğazının açılmasıdır. Bu həmçinin İranında xeyrinədir.**

**Nüvə proqramı ilə bağlı tərəflər qəti bir qərara gəlməyiblər. Çox güman ki, İran maksimum çalışır ki, bu məsələdə geri çəkilməsin. ABŞ isə, İranın nüvə proqramından umumiyyətlə imtina etməsini istəyir. Aylardı davam edən danışıqlar, məhz nüvə məsələsində razılıq əldə edilmədiyinə dayandırılıb. Və hər dəfə danışıqlar dayandırılan kimi, tərəflər qarşılıqlı raket zərbələrinə məruz qalıblar. Bu dəfə də, İranın nüvə proqramı ilə qəti qərar əldə olunmasa da, tərəflər 60 gün ərzində atəşin dayandırılmasını qərara alıblar.**

**Beləliklə, yuxarıdada qeyd etdiyimiz kimi, memorandum münaqişəni həll etmir, yalnız müharibədə fasilə yaradır. Münaqişənin davam edib-etməyəcəyi isə, tərəflərin 60 günlük fasilə ərəfəsində əldə edə biləcəkləri nəticədən asılı olacaq...**

## *Məhkəmə Əli Kərimli barəsində qərar verdi*



**AXCP sədri Əli Kərimli barəsində seçilmiş həbs qətimkan tədbirinin müddətinin uzadılması ilə bağlı qərardan verilən apellyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

Adalet.az Apa-ya istinadən xəbər verir ki, bu gün Bakı Apellyasiya Məhkəməsində keçirilən prosesdə qərar qəbul edilib.

Qərara əsasən, apellyasiya şikayəti təmin edilməyib.

Qeyd edək ki, iyunun 10-da Səbail rayon Məhkəməsi Dövlət Təhlükəsizliyi Xidmətində başlanmış cinayət işi üzrə AXCP sədri Əli Kərimli barəsində qətimkan tədbirinin müddətlərinin uzadılması barədə qərar verib. Əli Kərimli barəsində seçilmiş həbs qətimkan tədbirinin 5 ay müddətinə uzadılıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin məlumatına görə, xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və qeyrilərinin hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranıb.

Cinayət əməllərində iştiraklarına görə, Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.

Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə araşdırmalar davam etdirilir.



Səxavət Məmməd

# ABŞ qalib gəlmədi, İran məğlub olmadı

***ABŞ və İran münasibətləri yeni mərhələyə qədəm qoyur. Hər iki tərəf anlaşdığını bəyan edib. Məsələ ondadır ki, İranla ABŞ-nin anlaşması bəzi ölkələri razı salsa da, İsrail və Avropa İttifaqı (Aİ) bundan narazı qalıb. Təbii ki, Tramp özünü, İran isə özünü qalib elan edəcək.***

***Müharibənin nəticələri barədə danışarkən onu qeyd etmək lazımdır ki, hücumda olan tərəflər istədikləri nəticəyə çata bilmədilər.***

***Müharibə başlayanda onun səbəbləri tamamilə başqa idi - İran hakimiyyətinin dəyişdirilməsi, SEPAH-ın sıradan çıxarılması, etnik xətlərin aktivləşdirilməsi və nüvə potensialının məhv edilməsi nəzərdə tutulurdu. Bunu İrana edilən zərbələrdə açıq şəkildə görmək olurdu. İranın ali dini liderinin və SEPAH komandanlarının hədəf alınması məhz bu niyyətdən xəbər verirdi. Etnik xətlərin aktivləşdirilməsinə gəldikdə isə, Vaşinqton və Tel-Əvivin bəyanatlarında birbaşa fars, kürd, bəluc və azərbaycanlılara çağırışlar edilirdi. Hətta Tramp kürdlərə silah verdiklərini, kürdlərin isə "atdığını" açıq şəkildə bildirdi. İranın daimi olaraq Ərbili niyə hədəfə almasının səbəbləri də artıq heç kimə sirr deyil.***

***İndi isə müharibənin rəsmi səbəbləri kimi uranın zənginləşdirilməsi, proksi şəbəkəsinin boğulması və ballistik raket layihəsinin qarşısının alınması ön plana çıxarılır. Maraqlıdır ki, bu sonuncu variantlar yerli ekspertlərin dilindən daha çox səsləndirilir.***

***Ümumiyyətlə, bu müharibə hücumda olan qüvvələr üçün nəticəsiz qaldı. Təbii ki, kimlərsə irad tuta bilər, deyə bilərlər ki, ali dini lider, generallar öldürüldü. Bəs bu nəyi dəyişdi? Hakimiyyət yerindədir, SEPAH isə bu prosesdən daha da güclü çıxdı. Yeri gəlmişkən, bir neçə gün öncə İsrailin Baş naziri Benyamin Netanyahu da açıq şəkildə qeyd etdi ki, İranda istədiklərinə tam şəkildə nail ola bilməyiblər. ABŞ və Qərb mənbələri açıqca bildirir ki, İranın raket potensialı qətiyyən zəifləməyib, dron sənayesində istehsal davam edir, bundan əlavə, ABŞ və İsrail zərbələri nəticəsində məhv edildiyi bəyan edilən mərkəzlər yenidən döyüşə hazır vəziyyətə gətirilib. Bir neçə gün öncə İran İsrailə raket zərbələri endirən zaman, dolayısı ilə vurduqları yerlərin koordinatlarını da verdilər; bununla mesaj ötürdülər ki, "məhv etdiyinizi dediyiniz məhz həmin nöqtələrdən sizə zərbə endiririk". Bu o deməkdir ki, ABŞ və İsrail fevral ayında "Bunker-buster" (bunker dağıdan) bombalarla İranın yeraltı raket şəhərlərini (raket bazalarını) tam sıradan çıxara bilməyib. İran bununla hərbi kəşfiyyatın uğursuzluğunu ifşa etdi.***

***Müharibənin sonu olaraq diqqət çəkən digər məqam isə İsrail ilə ABŞ arasındakı gərginlik və fikir ayrılıqlarının ön plana çıxmasıdır. Bunu bir neçə gün əvvəl də açıq şəkildə gördük. İran və İsrail qarşılıqlı zərbələr endirən zaman ABŞ, İordaniya və Böyük Britaniyanın hava hücumundan müdafiə sistemləri işləmədi. Oysaki biz bunu bütün hücumlarda görmüşdük. İranla İsrail baş-başa qaldı. Daha sonra isə ABŞ ilə İran arasında qarşılıqlı zərbələr baş verdi ki, bu zaman da İsrail prosesə qoşulmadı. Digər maraqlı məqam isə İranın bu dəfə Oman, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Qətəri hədəf almaması idi. İranla Oman onsuzda müttəfiq sayılır; Səudiyyə Ərəbistanı, BƏƏ və Qətər isə müəyyən mənada İranla razılığa gəliblər. BƏƏ-nin dondurulmuş İran aktivlərini geri verəcəyini bildirməsi də bu gizli razılaşmaya işarədir. İran-ABŞ anlaşmasının əldə olunmasında pərdəarxası ən böyük oyunçulardan biri Çindir. BƏƏ-nin İran aktivlərini dondurmaqdan imtina etməsi və Körfəz ölkələrinin İranla gizli anlaşması həm də Çinin regiondakı təhlükəsizlik və enerji zəmanəti (Pekin sazişinin davamı) ilə bağlıdır. Çünki ABŞ İranda rejim dəyişikliyi edib bura nəzarəti götürsəydi, bu, Çinin enerji təhlükəsizliyinə birbaşa zərbə olacaqdı.***

***İsrailə gəldikdə isə, o, faktiki olaraq İranla ABŞ arasındakı anlaşmanı xəyanət kimi qəbul edir. İsrail mediası da, müxalifəti də bu anlaşmanın strateji olaraq onların zərərinə işlədiyini dilə gətirir. Onu da nəzərə almaq lazımdır ki, müharibədə İsrail əsas tərəf olsa da, danışıqlar prosesindən tamamilə kənarda qaldı. Hətta Tramp İranla anlaşma ərəfəsində İsrailin Beyruta hücumunu kəskin şəkildə pislədi və Netanyahunun ünvanına sərt ifadələr işlətdi.***



***Maraqlı bir məqam isə ondan ibarətdir ki, İranla ABŞ-nin anlaşması ərəfəsində, "Rusiya Günü"ndə (12 İyun) Tel-Əvivin mərkəzində 60 metr uzunluğunda Rusiya bayrağı açıldı. Rusiyanın özündə belə bu cür bayraq şousu göstərilməzkən, İsraildə açılan Rusiya bayrağı ABŞ üçün müəyyən mənada mesaj ola bilər. Ola bilsin, bu düşüncə bir çoxları üçün real görünməyəcək, ancaq İsrail kimi bir ölkədə 60 metrlik bayrağın açılması dövlətin rəsmi icazəsi və marağı olmadan qətiyyən mümkün deyildi. Bu, Netanyahu hökumətinin Ağ Evə qarşı istifadə etdiyi çox açıq bir diplomatik şantaj və təzyiq rıçaqı kimi qiymətləndirilə bilər.***

***İran-ABŞ razılaşmasına İsraildən sonra, bəlkə də onunla eyni dərəcədə qarşı çıxan digər tərəf Avropa İttifaqıdır. Mətbuatda yayılan razılaşma bəndlərində ballistik raket layihəsi ilə bağlı heç bir bənd olmasa da, Fransa birdən-birə bunun təhlükəli olduğunu və İranın raket proqramını dayandırmalı olduğunu bildirdi. Bundan əlavə, Avropa İttifaqı İrana qarşı sanksiyaları ləğv etməyəcəyini bəyan etdi. Avropa İttifaqının, ümumiyyətlə, bu cür davranışı anlaşılmaz olduğu qədər, həm də yersizdir. Niyə? Çünki Avropa İttifaqı əlini qana bulamır, müharibələrə birbaşa qoşulmur, ancaq hər masadan, hər razılaşmadan pay güdür. Nə dünən, nə bu gün, nə də sabah "Allahdan buyruq, ağzıma quyruq" düşüncəsi ilə nəticə əldə edilməyib, edilməyəcək də.***

***Əslində, Avropa İttifaqı öz qorxaqlığının və cəsarətsizliyinin acısını yaşayır. Nə Rusiya-Ukrayna müharibəsində maliyyə dəstəyindən xaric heç bir real hərbi addım atılmadı, nə də Trampın təhdid, təzyiq və şantajlarına rəğmən Aİ İran müharibəsinə qoşuldu. Belə olan təqdirdə, Avropa İttifaqı hansı payı gözləyir? Görünür, Fransanın İkinci Dünya Müharibəsinin nəticəsi olaraq masada qalib tərəfdə yer alması onların dişində şirə kimi qalıb.***

***Avropa İttifaqının, xüsusilə Fransa və Almaniyanın son zamanlar aktivləşməsinin səbəbi heç bir masadan pay ala bilməmələridir. Sabah Ukrayna müharibəsinin nəticəsi olaraq Avropa İttifaqını yenə masaya dəvət etməsələr, bu, heç bir təəccüb doğurmayacaq. Avropa İttifaqını, xüsusilə onun əsas iki gücü olan Almaniya və Fransanı bir neçə regional münaqişənin əsas səbəbkarı kimi də görə bilərik. Misal üçün, Avropa İttifaqının genişlənməsi siyasəti çərçivəsində Gürcüstanı əsas tərəfdaş seçdilər, nəticədə Rusiya Gürcüstanın 20 faizini işğal etdi. Ardınca eyni ssenari Ukrayna ilə bağlı yaşandı. İndi isə Ermənistandakı seçkilər ərəfəsində Avropa İttifaqı yenə aktivlik göstərir və Genişlənmə Komissiyası Ermənistanı öz sıralarına qoşmaq istədiyini bildirir. Gürcüstan və Ukrayna variantlarına baxsaq, Ermənistan Avropa İttifaqının çətiri altına alacağı bir ölkədən daha çox, Rusiyanın yeni qurbanı kimi görünür.***

***Fransa Yunan Kipri ilə hərbi əməkdaşlığa dair saziş imzaladı. Bu, İsrail, Fransa və Yunanıstanın Türkiyəyə qarşı birgə fəaliyyəti kimi də qiymətləndirilə bilər. Yeri gəlmişkən, Yunanıstanın Baş naziri də açıq şəkildə qeyd etdi ki, çox ciddi təhdidlə üzüzədirlər. Bu təhdid Yunanıstan ilə Türkiyə arasındakı dəniz sərhədləri, adaların silahlandırılması və Kipr ətrafındakı hərbi ittifaqlar (məsələn, Kipr yunanlarının Fransa ilə hərbi sazişlər imzalaması) səbəbindən yaranan gərginliklərdən qaynaqlanır.***

***Avropa İttifaqının digər böyük dövləti olan Almaniya isə Rusiyanı təhdid etdi. Almaniya tərəfi rəsmi olaraq bildirdi ki, Rusiya Baltikyanı ölkələrə hücum edərsə, onlar Kaliningrad və Sankt-Peterburqu vuracaqlar. Əslində, burada da çəkingən davranan bir Avropa görürük. Çünki Rusiyaya qarşı Ukrayna üzərindən hansısa real hədə-qorxu gəlmək əvəzinə, baş vermə ehtimalı 50 faiz olan bir fərziyyə üzərindən bəyanat səsləndirmək, nə qədər ciddi görünsə də, yenə də şübhəlidir.***

***Fərz edək ki, Belarusla Rusiya Baltikyanı ölkələrə zərbələr endirdi, bəs Almaniyanın bu müharibəyə girmək üçün real hərbi potensialı varmı? Hazırda bütün analizlər onu göstərir ki, Avropa ölkələrinin ayrı-ayrılıqda uzunmüddətli müharibə aparmaq potensialı mövcud deyil.***

***Avropa İttifaqının Ermənistan üzərindən oynadığı oyun Cənubi Qafqaz ölkələrini birbaşa təhdid altına salır. Seçkiləri Rusiya ilə Avropa İttifaqının, xüsusilə də Fransanın mübarizə meydanına çevrən Paşinyan Moskvanı razı sala bilməsə, ya Ermənistanın suverenliyi tamamilə təhdid altına düşəcək, ya da o, Mixail Saakaşvilinin taleyini yaşayacaq.***

## *"Tramp Azərbaycan və Ermənistan liderlərini Vaşinqtonda qəbul etmək istəyir..."*

**"Türkiyənin xarici işlər naziri Hakan Fidan iyunun 15-də Rusiyaya səfər edəcək. Hakan Fidan Moskvada rusiyalı həmkarı Sergey Lavrovla iki ölkə arasında münasibətlərin hazırki durumu ilə yanaşı Yaxın Şərqdə mövcud vəziyyəti müzakirə edəcək. Rusiya Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda nazirlərin 3+3 (Azərbaycan, Gürcüstan, Ermənistan + Türkiyə, Rusiya, İran) formatının fəallaşdırılması ətrafında da fikir mübadiləsi aparılacağı bildirilib. Moskva son zamanlar bu formatı fəallaşdırmağa çalışır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, bunun sadə səbəbi var: "Ukraynaya qarşı işğalçı müharibədə ilişib qalan Rusiyanın Cənubi Qafqaza təsir imkanların getdikcə azalır, Moskvanın bölgədə uzun illər forpostu rolunda çıxış edən Ermənistan da əldən çıxmaq üzrədir. Buna görə də, Kremldə hesab edirlər ki, Rusiya heç olmaza 3+3 formatında Cənubi Qafqazda varlığını nümayiş etdirməyə çalışmalıdır. Birincisi, bu format tam deyil, Gürcüstan ərazilərinin Rusiya tərəfdən işğalına görə, bu ölkə ilə eyni birlikdə iştirak etmək istəmir. İkincisi, Türkiyə bu formata dəstək versə də, bölgədə təkbaşına fəallığını artırmaqda maraqlıdır və bu uğurla alınır. Üçüncüsü, Rusiya Ermənistan hökumətinə təzyiqi artırarkən, məhsullarına qadağalar qoyarkən, Kremlin 3+3 formatında İrəvanı öz orbitinə cəlbi çətinləşib".



O, deyib ki, bu arada, rəsmi Bakı Ermənistanın baş naziri Nikol Paşinyanın partiyasının parlament seçkisində qələbəsindən sonra ilk addımını atıb:

"Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev iyunun 14-də ilk dəfə Ermənistanın Dilican şəhərinə səfər edərək, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşünə bu aspektdən yanaşmaq lazımdır. Rəsmi Bakı İrəvanla sülh sazişinin imzalanması üçün Ermənistan Konstitusiyasında zəruri dəyişikliyin həyata keçirilməsini istəyir. Ancaq indi vəziyyət elədir ki, Nikol Paşinyan qələbəsinə rəğmən, parlamentdə Konstitusiya dəyişikliyini referenduma çıxaracaq qədər səsə malik deyil. Hətta bu mümkün olsa belə, Nikol Paşinyana səs verən ermənilərin avtomatik Konstitusiya dəyişikliyinə səs verəcəyini proqnozlaşdırmaq çətindir.

Misal üçün ermənilərin əksəriyyəti referendumda Konstitusiya dəyişikliyinin əleyhinə səs versə bu həm Nikol Paşinyanın mövqeyini zəiflədəcək, həm də Azərbaycanla sülh prosesinə zərbə olacaq. Bu gedişat Azərbaycanın da maraqlarına cavab vermir. Belə olan halda Bakı ilə İrəvan arasında məsləhətləşmələrin intensivləşdirilməsinə və sülh sazişinin imzalanması yollarının daha detallı müzakirəsinə ehtiyac var.

Çünki, sülh sazişinin imzalanması yubandıqca, bundan Kreml və onun Ermənistandakı əlaltıları vəziyyəti gərginləşdirmək üçün istifadə etməyə çalışacaqlar. Burdan da ABŞ Prezidenti Donald Tramp Azərbaycan və Ermənistan liderlərini yaxın həftələrdə Vaşinqtonda qəbul etmək istəyir. O ötən ilin avqustunda Ağ Evdə paraflanan sülh sazişinin imzalanmasında maraqlıdır".

**Vasif**

## *Əhali mağazalarda ayda orta hesabla 496,9 manat xərcləyir*

**Bu il Azərbaycanda pərakəndə ticarət dövriyyəsi artıb. Dövlət Statistika Komitəsindən Adalet.az-a verilən məlumata görə, 2026-cı ilin yanvar-may aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 25510,7 milyon manatlıq, o cümlədən 14151,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 11358,9 milyon manatlıq qeyri-ərzaq malları satılıb. 2025-ci ilin yanvar-may ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,5 faiz, qeyri-ərzaq malları üzrə 6,7 faiz artıb.**

2026-cı ilin yanvar-may aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50,9 faizi ərzaq məhsullarının, 4,6 faizi içkilər və tütün məmulatlarının, 12,8 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,4 faizi avtomobil yanacağının, 4,4 faizi elektrik malları və mebellərin, 2,9 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,5 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,5 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 496,9 manatlıq, o cümlədən 275,7 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 221,2 manatlıq qeyri-ərzaq malları alıb.

# "Tarixi köklərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri Vətən müharibəsindən..."

**"5 il əvvəl Azərbaycan və Türkiyə prezidentləri tərəfindən Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi qardaş ölkələrin strateji tərəfdaşlığını möhkəmləndirməklə bərabər regional təhlükəsizliyə də mühüm töhfələr verib".**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, bu sənəd hər iki dövlətin bütün sahələrdə yarana biləcək istənilən təhdidlərin qarşısını almaq üçün birgə fəaliyyətləri nəzərdə tutan ciddi bir bəyannamədir:

"Tarixi köklərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri Vətən müharibəsindən başlayaraq strateji tərəfdaşlıqda yeni istiqamət aldı. İkinci Qarabağ savaşında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda digər rəsmilərin ölkəmizə dəstək nümayişi, hər an yanımızda olduqlarını bildirməsi bir çox dövlətlərin işlərimizə qarışmasına imkan vermədi. Müharibədən sonrakı dövrdə münasibətlər daha da inkişaf etməyə başladı. Bu əlaqələrin rəsmi sənədi isə 2021-ci il iyunun 15-də mədəniyyət paytaxtımız Şuşada imzalandı. Rəcəb Tayyib Ərdoğan ilk Qarabağ səfərində Prezident İlham Əliyevlə birgə tarixi sənədi yenilədilər".

Onun sözlərinə görə, beləliklə, Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq və əlaqələr strateji tərəfdaşlıq müttəfiqlik səviyyəsinə yüksəldi:

"Tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoyan Şuşa Bəyannaməsi "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, həmçinin "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni özündə rəhbər tutur. Bu, ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, hərbi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının



birləşdirilməsinin mühüm əhəmiyyətini ehtiva edir.Sənəddə beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulanır. Həmçinin müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyi ifadə edilir.Bütün bunlar Türkiyənin son illərdə hərbi, iqtisadi, siyasi sahədə güclü dövlətə çevrildiyini bir daha bəyan edir. Azərbaycanın da hərbi gücünə güc qatan qardaş ölkə ilə müttəfiqliyi rəsmiləşdirən bu sənədlə güclərimizi daha da artırır. Bəyannaməyə əsasən, Azərbaycan və Türkiyə müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edəcək.Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq.Tarixi sənəddə vacib məqamlardan biri də iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərdir ki, bununla bağlı işlər daha da sürətlənib.Xüsusən Türkiyənin hərbi sahədə böyük təcrübəsi, müdafiə sənayesinin inkişafı nəzərə alınaraq, ölkəmizin də bu təcrübələri öyrənməsi və müdafiə sənayesində, həmçinin orduda istifadəsi Azərbaycan Silahlı Qüvvələrini də dünyanın güclü, peşəkar kadrlarla və müasir hərbi texnika, silah-sursatla təchiz olunmuş ordusuna çevirib".

**Vasif ƏLİHÜSEYN**

## "Əgər bu istiqamətdə real addımlar atılarsa, İran iqtisadiyyatına..."

**"ABŞ və İran arasında əldə olunan razılaşma bir çoxlarında münasibətlərin normallaşacağı təəssüratı yaratsa da, mənzərə əslində daha mürəkkəbdir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, tərəflər arasında əsas ziddiyyətlər olan nüvə proqramı, sanksiyalar, regional təsir uğrunda rəqabət və İsrail amili olduğu kimi qalır:

"Sadəcə hazırda hər iki tərəf yeni müharibənin iqtisadi və siyasi xərcinin həddindən artıq yüksək olduğunu görür.

Bu səbəbdən yaxın dövr üçün ən real ssenari barışıq senarisi yox, idarə olunan gərginlikdir. Yəni tərəflər açıq müharibədən uzaq duracaq, lakin qarşıdurma tam bitməyəcək. Vaxtaşırı böhranlar, sərt bəyanatlar və təzyiqlər davam edəcək".

İqtisadçı deyib ki, razılaşmanın ən həssas məqamlarından biri isə İsrail faktorudur: "Çünki faktiki olaraq İsrail bu razılaşmanın tərəfi deyil və onun təhlükəsizlik prioritetləri ilə Vaşinqtonun cari siyasi prioritetləri hər zaman üst-üstə düşmür. Bu isə gələcəkdə yeni fikir ayrılıqları və gözlənilməz gərginlik riskini artıran amillərdən biridir.

Noyabr ayına qədər isə Vasinqtonun əsas hədəflərindən biri Yaxın Şərqdə gərginliyin minimum səviyyəyə endirilməsi və problemlərin nəzarət altına alındığı görüntüsünün yaradılması olacaq. Aralıq seçkilər səbəbilə Trmp administrasiyası həm daxili siyasi gündəm, həm də seçicilərə verilən vədlər baxımından yeni müharibədən daha çox sabitlik və nəticə nümayiş etdirməyə çalışacaq.

Elə bu məntiqin və startegiyanın nəticəsidir ki, ABŞ tərəfindən İran iqtisadiyyatına xarici investisiyaların cəlb olunmasına və iqtisadi əlaqələrin müəyyən qədər yumşaldılmasına dair müsbət siqnallar da verilir.

Əgər bu istiqamətdə real addımlar atılarsa, İran iqtisadiyyatına kapital axını, enerji sektoruna investisiyalar və neft ixracının genişlənməsi ilə bağlı gözləntilər güclənə bilər. Lakin bu prosesin davamlılığı yenə də siyasi münasibətlərin sabitliyindən asılı olacaq.

Məhz buna görə də noyabrın ikinci yarısından etibarən gərginliyin növbəti mərhələsinin başlanması ehtimalını daha yüksək qiymətləndirirəm. Çünki həmin dövrə qədər təxirə salınan və ya dondurulan bir çox ziddiyyətlərin yenidən gündəmə qayıtması mümkündür. Əlqərəz, hazırda müşahidə etdiyimiz proses problemin həlli yox, onun idarə olunmasıdır".

**Sübhan**

## Tramp: "Mən olmasaydım, İsrail mövcud olmazdı"

**ABŞ prezidenti Donald Tramp İranla əldə edilən razılaşma ilə bağlı yeni açıqlamalar verib.**

Adalet.az xarici mətbuata istinadən xəbər verir ki, o, İranla razılaşmanın ikinci mərhələsinə qədəm qoyduğunu bildirib.

ABŞ prezidenti həmçinin müqaviləyə əsasən İranın heç vaxt nüvə silahına sahib olmayacağını iddia edib.

Tramp, həmçinin rejim dəyişikliyi ilə bağlı şərh verərək deyib ki, "Əgər rejim dəyişikliyindən danışacaqsınızsa, İran rəhbərliyi tamamilə dəyişib. Bir daha deyirəm, mən rejim dəyişikliyinə inanmıram. Bu, illər çəkəcək və işə yaramayacaq".

İsrailin Baş naziri Benyamin Netanyahu ilə danışıb-danışmadığı sualına cavab olaraq ABŞ prezidenti:

"Bizim yaxşı münasibətlərimiz var. Bəzi detallar barədə danışdıq. Beyruta hücumu heç bəyənmədim. Həmin hücumu gördüm, həqiqətən də qəddar və kütləvi bir hücum idi. İsraillə effektiv münasibətlərimiz var. ABŞ olmadan İsrail olmazdı. Mən olmasaydım, İsrail çoxdan mövcud olmazdı", - deyib.

# "Kreml təhdid ritorikası ilə Ermənistanı geri çəkilməyə sövq etmək istəyir..."

**"Ermənistanda keçirilmiş seçkilərin nəticələrinə görə hazırkı baş nazir Nikol Paşinyanın partiyası qalib gəlib. Eyni zamanda ona rəqib olan, əsasən Rusiyanın dəstək verdiyi, keçmiş prezident Robert Köçaryanın komandası isə məğlub olub. Bundan hiddətlənən Rusiya dairələri isə müxtəlif bəhanələrlə Ermənistan hakimiyyətinə qarşı təhdidlər səsləndirir və seçkilərin nəticələrini şübhə altına alan açıqlama verir".**

Bunu Adalet.az-a açıqlamasında siyasi şərhçi Tural İrfan deyib.

Onun sözlərinə görə, əsasən öz maraqlarını və imperiya məqsədlərini qoruyub saxlamaq istəyən Moskva Ermənistanı yenidən təsir dairəsində daxil etmək üçün hərəkətə keçib:

"Baş nazir Paşinyan isə əsasən Qərbə istiqamət götürüb və regionda sülhə can atır.

Təbii ki, Ermənistanın bu istiqamətə yol alması üçün Azərbaycan dövlətinin yaratdığı reallıq mühüm rol oynayır. Sülh və sabitlik müqabilində sərhədlərin açılması, əsasən Türkiyə ilə ticarət maraqları güdən İrəvan Azərbaycanla sülh müqaviləsini rəsmiləşdirməlidir. Bunun üçün hələ daxildə bir sıra işlər görülməlidir. Konstitusiyasının dəyişdirilməsi üçün parlamentdə münbit şərait yaradılmalıdır. Bunun üçün seçkilərdən doğan nəticələr ətrafında növbəti addımlar atılmalı, nəhayət sülhün rəsmiləşməsi prosesinə daxil olunmalıdır.

"Rusiyaya meylli qüvvələrin müəyyən cəhdləri və təziqləri olsa da proseslərə real müdaxilə imkanlarının məhdud olduğu görünür. Əsasən Kilsə və Robert Köçəryanın qrupu vasitəsi ilə indiki hakimiyyətə təziq edərək öz maraqlarını diqtə et-



Məhz bu prosesə mane olmaq istəyən qüvvələr əslində sülhə və sülhdən doğan iqtisadi, geosiyasi reallığa qarşı mübarizə aparmaq və öz maraqlarını diqtə etmək istəyirlər. Hələ ki, Ermənistanda seçkilərdə iştirak edən digər partiya və qruplaların üzvləri etiraz aksiyaları keçirir və seçkilərin nəticəsinin ləğv olunmasını tələb edirlər".

T.İrfan deyib ki, ABŞ prezidentinin Paşinyanı təbrik etməsi isə artıq Qərbin mövqeyinin ortada olduğunu göstərir: məyə cəhd edən Kreml yalnız təhdid ritorikası ilə Ermənistanı geri çəkilməyə sövq etmək istəyir. Hətta bəzi rəsmilər Ukraynada da proseslərin məhz bu cür başladığını dilə gətirməkdən belə çəkinmirlər. Ümumiyyətlə bu gərginliyin Qərb və Rusiya rəqabəti zəminində bir müddət davam edəcəyi gözlənilir. Sonrakı hadisələrin nəticələri isə Ermənistanın balansı qoruyacağı yaxud konkret Rusiyadan uzaqlaşacağı təqdirdə məlum olacaq".

**Sübhan**

## "Hər dəfə atəşkəs üçün razılaşırdıq və dərhal başqa ərazini ələ keçirirdik..."

**"Surət Hüseynov Gəncədən hücum edərkən Bakıya qədər heç bir rayonun icra başçısı qabağına çıxa bilmədi. Qurtuluş gününün şifrələri. 1993-cü ilin mayında Azərbaycanın eyni anda üç cəbhəsi var idi - qərbdə işğal altında gedən hərbi müharibə, şimalda polkovnik Sürət Hüseynovun Bakıya doğru yürüşü, cənubda isə yetişməkdə olan separatism, hamısı eyni həftələrdə üst-üstə yığılaraq yarandı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib. Onun sözlərinə görə, ölkənin faktiki olaraq neçə hakimiyyət mərkəzinə parçalandığını o dövrdəki hərbi sənədlərdən və nəticənin özü göstərir: "1993-cü ilin yayında Azərbaycan bir-birinin ardınca Ağdərəni, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını itirdi, və bu itkinin birbaşa səbəbi cəbhədən çox paytaxtın çöküşü idi. Ermənistanın eks-prezidenti Robert Koçaryan həmin dövrü xatırlayarkən bunu açıqca etiraf edirdi: "Tarix dönə-dönə təkrarlanırdı. Biz başqa rayonu alırdıq, dərhal o rayon aktuallığını itirdi, ardınca yeni qərar çıxırdı və dərhal vasitəçilər ortaya çıxırdı. Hər dəfə atəşkəs üçün razılaşırdıq və dərhal başqa ərazini ələ keçirirdik. Bu işdə azərbaycanlılar bizim üçün ən yaxşı köməkçilərə çevrilmişdilər." (Koçaryan, 2019).Yolboyu heç bir icra hakimiyyəti Hüseynova müqavimət göstərmədi. Bu detalı ayrıca qeyd etmək lazımdır, çünki dövlətin yıxılmasını silahın gücü müəyyən etməmişdi, ona inamın tükənməsi müəyyən edirdi və "Tufan"ın uğursuzluğu Bakı istiqamətinə hərəkət edən texnikadan daha önəmli bir şeyi sübut etdi: hökumətin öz strukturu daxilindən boşalmağa başlamışdı. Girov götürülmüş Baş prokuror İxtiyar Şirinov silah təhdidi altında rəsmi fərman imzaladı: Prezident Əbülfəz Elçibəy "vətənə xəyanətdə" ittiham edilir, onun həbsi barədə qərar çıxarılır. Öz kabinetindən uzaqda, Gəncədə silahlı adamların gözaltında saxlanılan, hüquqi mənada tamamilə əsarət altında olan bir prokuror ölkənin prezidentini "həbs etdi". Bu cümləni yazmaq özü absurddur, lakin sənəd belədir, baş verdi, imzalandı. Həmin fərmanın hüquqi qüvvəsi sıfır idi, lakin siyasi mesajı bütün aydınlığı ilə oxunurdu: hakimiyyətin öz daxilindən çıxan bu siqnal Elçibəyin mövqeyini tamamilə boşa çıxarırdı.17-18 iyun gecəsi Prezident Əbülfəz Elçibəy Bakını tərk etdi. Heç kəsə xəbər vermədən, heç bir rəsmi açıqlama olmadan, nazirlərinə, müşavirlərinə, mühafizəçilərinə bildirmədən, sadəcə gecənin içində şəhərdən çıxdı, doğma Kələki kəndinə getdi".

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Yaman kövrəldim...

**İyunun 13-də ümumtəhsil məktəblərində keçirilən "Son zəng" ə baxıb çox kövrəldim... Hətta qəhərdən gözlərim doldu... Bütün məzunları təbrik eləyirəm! Bu il mənim qardaşım nəvəsi Mirvari də məzun oldu! O, buraxılış və qəbul imtanlarını uğurla verib. Allah qoysa, seçdiyi ali məktəblərdən birinə qəbul olar! Qardaşım nəvəsinə də uğurlar diləyirəm...**

**Və bu son zəng məni uzaq bir keşmişə - nağıllar aləminə qaytardı. Bu bizim "Son zəng" idi. 1973-cü ilin "Son zəngi"! Füzuli rayonunun Böyük Bəhmənli kəndi və məktəbimizin həyəti... Biz səsimiz titrəyə-titrəyə danışırıq. Arzularımızdan, gələcəyimizdən danışırıq. Həkim, müəllim, jurnalist, mühəndis, aqronom olacağımızı deyirik... 90 məzunun hamısı böyük ümidlə yaşayır.**

**Amma bizi nələr gözlədiyini Allahdan başqa heç kim bilmir... Və qayğısız, ürəyidolu biz məzunları daha çox müəllimlərimiz başa düşür. Direktorumuz Əvəz müəllim, Cəlal müəllim, Həqiqət müəllimə, Balaca müəllim, Ənvər müəllim, Cəmil müəllim, Qəzənfər müəllim, Cavanşir müəllim, Mətləb müəllim, Əkbər müəllim, Haşim müəllim, Məhəmmədəli müəllim, Məcnun müəllim... diqqətlə bizə baxır... Sinifimizin ən dəcəl uşağı olan Təvəkkülün oğlu Şiraslan da bu gün quzuya dönüb... Və hamımız həddindən artıq kövrəlmişik...**

**Hamı bizi alqışlayır... Hamı bizə sevgiylə, ümidlə baxır... Poçtalyon Bahadur kişinin oğlu Fazil müəllimin rəhbərliyi ilə hazırladığımız səhnəciyi biz oynayandan sonra hamı uğunub gedir. Hətta son dərəcə ciddi olan və bizim hamımızın qorxduğu Əvəz müəllimin də dodaqları qaçır, çöhrəsi gülür... Mən başqalarından fərqli olaraq dördüncü sinfə qədər "A" sinfində, beşincidən onuncu sinfə kimə "B" sinfində oxumuşam.**

**Əslinə qalanda ürəyim "A"-da, özüm "B" sinfində idim... Görün o vaxtdan bəri nə qədər vaxt ötüb... Artıq 70 yaşımız var. Nə qədər kədərli olsa da, sinif yoldaşlarımızın çoxunu itirmişik... Ədaləti, Yusifi, Davudu, Minəni, Zakiri, Şiraslanı, Dilavəri, Veysəli... itirmişik. İndi kim qalıb ey! Nə yaxşı ki, sağ qalan sinif yoldaşlarım var! Zülfüqar var, Təbriz var, Rəfail var, Barat var, Yavər var... Onları görəndə gözlərimə işıq gəlir, yeni nəfəs gəlir...**

**Xüsusilə də Rəfail tam başqa dünyanın adamıdı... Elə bil ki, bu dünya bizim üçün bir nağıldı. Əgər nağıl olmasaydı, dünyasını dəyişmiş sinif yoldaşlarımız nağıla dönməzdi... Elə bizim özümüz də 70-i haqlamışıq... Yəni biz də artıq yavaş-yavaş nağıla dönürük: "Biri vardı, biri yox..." Və buna görə yaman kövrəlirəm!!!**

## Telefonla oynayan sürücülər...



**Heç kimə sirr deyil ki, bəzi sürücülər yol hərəkəti qaydalarını tez-tez ya bilərəkdən, ya da bilməyərəkdən pozular. Bu isə bir çox halda ölümlə və xəsarətalma ilə nəticələnir.**

Bu barədə dəfələrlə yol polisi sürücülərə xəbərdarlıq edib və hətta onları maarifləndirib. Nəqliyyatın İntellektual İdarəedilməsi məkzənin yaydığı görüntülərdə belə hadisələri vaxtaşırı izləyirik.Başqa bir yol hərəkəti qaydalarının pozulması isə nəqliyyat vasitələrini idarə edərkən bəzi sürücülərin mobil telefonla danışması, bir qədər də sərt demiş olsaq, telefonla oynamasıdır. Bu qəbildən olan qayda pozuntuları nəticəsində Bakının küçə və prospektlərində zəncirvari qəzalar baş verir, ölüm və xəsarəalma halları olur, avtomobillərə zərər dəyir.

Həmin görüntülər məlum məkəz tərəfindən qeydiyyata alınır və o görüntülər bir çox hallarda sosial mediada yayımlanır ki, bundan digər sürücülər nəticə çıxarsınlar! Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis mayoru Toğrul Nəsirli deyir ki, bəzi sürücülərin diqqətsizliyi və məsuliyyətsiz üzündən sükan arxasında mobil telefonla danışarkən yol- nəqliyyat hadisəsi qaçılmaz olur. Hansı ki, nəqliyyat vasitəsini idarə edərkən mobil telefonla danışmaq qanun pozuntusudur.Buna görə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə qanunu pozan sürücü 50 manat civarında cərimə olunur! Təbii ki, belə qayda pozuntulara nəqliyyat vasitələrinin yüksək sürətlə hərəkət etdiyi küçə və prospektlərdə zəncirvari qəzalar yaradır.

Biz bu barədə sürücüləri və hərəkət iştirakçılarını mütamadi olaraq maarifləndirik ! Və bir daha sürücülərin diqqətinə çatdırırıq ki, sükan arxasında səhlənkarlıq eləməsinlər , sükan arxasında mobil telefonla danışmasınlar! Bu, baş verə biləcək yol- nəqliyyat hadisələrinin qarşısını ala bilər!!!

**Emil FAİQOĞLU**

## Bağa baxarsan...



**Bakıda bir-birindən gözəl parklar çoxdur. Və o parklara da çoxlu sayda insanlar istirahət edirlər. Bakıda belə parklardan biri də Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsində olan, daha doğrusu " Fatimeyi - Zəhra" məscidinin yanındakı parkdadır. Burda bir- birindən gözəl ağaclar, güllər, çıçəklər var! Adam bu gözəlliklərə baxdıqca bir də baxmaq istəyir...**

Ağacların açdığı güllər, qızılgülün ətri, otların arasından baş qaldıran sarı çiçəklər... adamı məst edir! Nə gözəl!! Və bu gözəllikləri yaradan, onlara xidmət edən , balası kimi onlara sevgi göstərən Fikrət qardaşımız var ! O, hər gülün, hər çiçəyin, hər otun dilini bilir! Və güllər də Fikrətin dilini bilir. Hər gün səhər saat 7- də bu gözəlliklərə qulluq edir, su verir, otların üstünə və parka atılmış tullantıları təmizləyir və orda səliqə-sahman yaradır! Bax , peşəyə olan məhəbbət belə olur...

Fikrət qardaşımız həm də Qarabağ qazisidir!!! Onu səhər saatlarında güllərə , çiçəklərə qulluq edərkən gördük və işbaşında da onun şəklini çəkdik! Dedik ki, qoy insanlar görsün ki, bu Qarabağ veteranı öz peşəsini necə ürəkdən sevir.Ona görə də bu park Cənnətə oxşayır...

Və biz də Məhəmməd qardaşımızla idman edir , dincəlir , bu gözəlliklərdən zöy alırıq. Amma gərək parka gələnlər də oranı çirkləndirməsin və bu gözəllikləri qorusunlar. Təəssüf ki, bəzən insanlar oturacaqda əyləşəndə tumu çırtlayıb otların arasına atır, siqaret kötüyünü və əllərində olan tullantıları yerə atırlar.Ona görə də bu gözəlliyi hamı qorumalıdır!!

## Avtomobil yandı...



**Son vaxtlar ölkəmizdə bir neçə avtomobilin dayandığı və hərəkət etdiyi yerdə yanması faktı qeydə alınıb! Bu isə çox təhlükəlidir.**

Çünki bəzi hallarda avtomobildə baş verən bu yanğın zamanı sürücü və sərnişinlər nəqliyyat vasitəsindən çıxa bilmir və ölümlə nəticələnən hadisə yaranır. Yəni maşındakı insanlar həlak olur.

Bunların qarşısın almaq üçün yol polisi ardıcıl olaraq maarifləndirmə işləri aparır və sürücülərə bildirir ki, hər bir nəqliyyat vasitəsində mütləq yanğınsöndürən avadanlıq olmalıdır.Hətta nəqliyyat vasitələri texniki baxışdan keçirilərkən yol polisi bütün avtomobildə bu avadanlığın olmağını tələb edir və avadanlıq yoxsa , həmin avtomobil texniki müayinəyə qəbul edilmir! Avtomobil üzrə mütəxəssis və usta Nəcəf Əliyev deyir ki, maşınlarda baş verən yanğınlara səbəb nəqliyyat vasitəsində yaranmış qısaqapanmadı.

Onu görə də mütamadi olaraq avtomobillər elektrik ustasının nəzarətində olmalı, mövcud texniki qüsurları vaxtında aradan qaldırılıdı. Bununla yanaşı, hər avtomobildə mütləq yanğınsöndürən avadanlıq olmalıdı.Çünki Allah uzaq eləsin, yanğın baş verəndə yanğın söndərənlər gələnə kimi, maşındakı avadanlıqdan istifadə etmək olar. Və bir də avtomobildə yanğın baş verəndə ətrafdakı insanlar sürücüyə heç bir kömək edə bilmir. Və yeganə çıxış yolu maşındakı yanğınsöndürən olur! Ona görə də hər bir sürücü idarə etdiyi avtomobili saxlamalıdır ki, belə hadisələr baş verməsin!

## İstirahət mərkəzləri niyə gileylənir?



**Yaz və yay aylarında Azərbaycanda istirahət mərkəzlərinin çıçəyi çırtlayır. Yəni el dilində demiş olsaq , onların dövlətinin gəlhagəl dövrüdür. Ona görə də əksər istirahət mərkəzlərinin rəhbərləri bu anı- yaz və yay mövsümünü səbirsizliklə gözləyirlər. Bu il onların bəxtlərindən havalar qeyri-sabit keçir.**

Təbii ki, belə bir şəraitdə istirahat mərkəzlərinə, eləcə də dənizə gedənlərin sayı əsaslı surətdə azalıb. Bunu istirahət mərkəzlərinin əməkdaşları da deyirlər! Bakıdakı Novxanı çimərliklərindəki istirahət mərkəzlərini icarəyə götürən iş adamları deyir ki, may ayından bu yerləri icarəyə götürmüşük. Amma hava şəraiti əlverişsiz keçdiyindən çimərliyə gələn yoxdu! Bu isə bizim vəziyyətimizi çətinləşdirir.

Yəni biz birmənalı olaraq , müştərilərin gəlib- gəlməməyindən ası olmayaraq icarə haqqını ödəməliyik! May ayını cibimizdən vermişik, iyunu da bu gün , sabah ödəyəcəyik! Başqa çıxış yolumuz qalmır! Bütün ümidlərimizi bu ayın axırına və iyul və avqust aylarına bağlamışıq! İnşallah, Tanrı bizə kömək olar! İstirahət mərkəzlərini işlədənlər bir həqiqəti yaddan çıxarırlar; onlar müştəri çox olanda gözlərini yumub, ağızlarına gələn qiyməti " oxuyur" lar! Yəni 50 manatlıq yeməyə 100 manat istəyirlər! Bax , bu da istirahət mərkəzlərinə gedənlərin narazılığına səbəb olur.

Ona görə də bir çox insanlar qiymətindən dəfələrlə artıq pul alındığına görə, yenidən həmin yerə getmirlər. Haqqı yeyənlərdən Allahın da xoşu gəlmir. Və Tanrı da haqqı yeyənləri belə cəzalandırır.Bax ,bu, haqqa girənlərə bir ibrət olmalıdı!

## Bir neçə deyim...



**"İnsanı su təmizləmir. Adamı onun yaxşı əməlləri təmizə çıxarır..." , " ... Hara gedirəm, səni axtarıram... Amma tapa bilmirəm... Səni çiçəklərin, güllərin, otların ləçəklərində , ətrində axtarıram... Yenə tapa bilmirəm... Səni ömrümün sonuna kimi axtaracam... Və Allahın yanında tapacam!.."**

## Avtomobillərin qiyməti ucuzlaşır?



**Son illər xarici dövlətlərdən ölkəmizə on minlərlə avtomobillər gətirilib. Xüsusilə də Çin Xalq Respublikasından gətirilən avtomobillərin sayı daha çoxdur! Gözəlmək olardı ki, ölkə gətirilən avtomobillərin çoxluğundan sonra onların qiyməti ucuzlaşacaq.**

Amma belə olmadı, əksinə onların qiyməti daha da yüksəldi! Bir vaxtlar alıcılar Çin maşınlarına daha üstünlük verirdi. Çünki onlar Avropa, Yaponiya, Koreya avtomobillərə nisbətən ucuz idi.

Ancaq bu il onların gömrük rüsumunun artırılması, eləcə də, leysan yağışlar zamanı sudan keçərkən sıradan çıxması və texniki nasazlığı Çin maşınlarına etibarı azaltdı!

Belə olan təqdirdə insanlar ikinci əl avtomobillərə, o cümlədən Avropa maşınlarına böyük üstünlük verirlər! Ümumiyyətlə, bütün növ avtomobillərin qiyməti 1000- 1500 manat civarında bahalaşıb! Bu isə birmənalı olaraq alıcılıq vəziyyətinə mənfi təsir göstərir.Bir sözlə, maşın bazarlarında avtomobil satışı çox zəifdir. Ona görə də maşın bazarında alıcılıq aşağı enib! Və bundan sonra da vəziyyət necə olunacaq bilinmir!!!

## Mənzil bazarında durğunluq...



**Bu gün dünyanın çox yerində evlər, mənzillər günbəgün bahalaşır. Təbii ki, həmin bahalşma Bakının mənzil bazarlarında daha qabarıq görünür. Hər şeydən öncə hər ay Bakıda mənzillər az da olsa, bahalaşır. Şəhərin mərkəzində və mərkəzə yaxın yerlərdə mənzillərin qiyməti çox bahadır.**

Ona görə də əksər insanlar bu əl yandıran mənzillərə yaxın dura bilmirlər! Nisbətən şəhərdənkənar yerlərdə qiymətlər bir qədər ucuz olsa da , amma o evlərə yaxın durmaq mümkün deyil!

Məsələn, Yeni Günəşlidə, Əhmədlə şəhərin mərkəzinə nisbətən evlər xeyli aşağı qiymətə satılır.

Mərdəkan, Şüvələn, Maştağa, Zabrat, Məhəmmədli, Kürdəxanı, Masazırda evlər elə də ucuz deyil. Mənzil üzrə ekspert İlham Məmmədov deyir ki, son üç-dörd ayda mənzillərin alışında və satışında bir durğunluq yaranıb. Hər ay mənzillərin qiymıti artır. Amma bunu baxmayaraq, mənzil bazarında durğunluqdur.

Əgər əvvəllər bizim vasitəçiliyimizlə ayda 6-7 mənzil satılırdısa, indi çox çətinliklə ən yaxşı halda biri satıla bilir! Çünki imkanlı və varlı? adamların 3- 4 mənzili var, ortababablar isə çətinliklə də olsa , mənzil ala biliblər. Kasıblarınsa, mənzil almağa maddi imkanı çatmır.

Onda mənzil almaq üçün çıxış yolu ipotekaya qalır və onu da hər adama vermirlər.Bax ,beləcə Bakıda mənzil bazarında durğunluq yaranıb, canlanma nə vaxt olacaq? Bax , onu deyə bilmərik!!!

**Emil FAİQOĞLU**





*Akif Teyli,*
*Əməkdar müəllim*

# Şuşa Bəyannaməsi – qardaşlığın yeni tarixi mərhələsi

**Beş il öncə - 2021-ci ilin 15 iyununda iki qardaş ölkənin dövlət rəhbərləri Azərbaycan Respublikasının Prezident İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada müttəfiqlik münasibətləri haqqında Bəyannaməyə imza atdılar. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir.**

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir.

Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir. 15 iyun 2021-ci il tarixindən başlayaraq Bakı və Ankara hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqlikləri rəsmi şəkildə elan etdi. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar.

Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Bundan sonra bütün qonşu dövlətlər və dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşacaqlar.

İki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılığa gəldi. Hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin həyata keçirilməsinə dair razılıq əldə olunması Azərbaycan və Türkiyə arasında münasibətlərin necə sıx və prinsipial olduğunun göstəricisidir.

Müqavilədə digər vacib məqamlardan biri iqtisadi-nəqliyyat məsələləri ilə bağlıdır. Azərbaycan və Türkiyə arasında imzalanan Bəyannamədə xüsusilə tarixi türk torpağı Zəngəzur dəhlizinin adının hallanması tarixi gerçəkliyi və hədəfləri göstərən mühüm amildir. Bəyannamədə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri yer alır. Sənəddə xüsusilə vurğulanır ki, Türkiyə ilə Azərbaycanı və Azərbaycanın qərbdəki bölgələriylə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə əhəmiyyətli dərəcədə kömək edəcək.

Bəyannamənin imzalanması ilə Azərbaycan və Türkiyə, həm də bir-biri ilə ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsinə nail olmuşdur.

Həmçinin, Bəyannamədə Azərbaycan və Türkiyənin xarici siyasət davranışları ilə bağlı müddəa da yer almışdır. Tərəflər öz milli maraq və mənafelərinin təmin edilməsinə yönəlmiş müstəqil xarici siyasət aparırlar. Sənədə əsasən, beynəlxalq münasibətlərin inkişafı, yerli, bölgə və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər göstərirlər.

**Beləliklə, 5 il öncə imzalanmış Şuşa Bəyannaməsi öz əhəmiyyətinə görə region ölkələrinin, o cümlədən Azərbaycan-Türkiyə əməkdaşlığının dərinləşməsinə və işbirliyinin genişlənməsinə xidmət edir. Bu Bəyannamə sözsüz ki, gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu.**

# «Pekin Rusiya-Ukrayna və ABŞ-İran müharibələrində öz maraqlarından çıxış edib»

**”Rusiya siyasi və ekspert dairələrində Çinin siyasəti ilə bağlı fikir ayrılığı əmələ gəlib. Əlbəttə, Kreml əvvəlkitək Pekini strateji tərəfdaş sayır, iki ölkə arasındakı əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirir. Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov son açıqlamasında Prezident Vladimir Putinin may ayında Çinə səfərinin nəticələrini yüksək qiymətləndirərək, bunun beynəxalq aləmdə sabitləşdirici rol oynadığını vurğulayıb”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib kiz buna baxmayaraq, Çin-Rusiya münasibətləri barədə fərqli düşününlər də var və bunlardan biri Rusiya hakim partiyasının üzvü və Dövlət Dumasının deputatı Konstantin Zatulindir: ”Onun fikrincə, Çin Rusiyaya kifayət qədər dəstək vermir. Zatulin Pekinin passivliyinə misal olaraq Avropa İttifaqı - Ukrayna münasibətlərini göstərib:

”Avropa İttifaqı müharibədə Ukraynaya böyük dəstək verir. Rusiyanın strateji tərəfdaşı sayılan Çin isə Moskvaya kifayət qədər dəstək vermir”. Zatulinin fikrincə, Çin ancaq öz maraqlarını güdür və Rusiya ilə tərəfdaşlıqdan qazanc əldə etməyə çalışır. Zatulin buna misal olaraq Çinin fürsətdən istifadə edərək Rusiyadan aldığı neftin və qazın qiymətini endirdiyini bildirib.



Zatulin haqlıdır. Pekin Kremlə onun arzuladığı səviyyədə dəstək vermir. Ancaq Pekinin Moskvanı müharibədə dəstəkləməyə borcu da yoxdur. Rusiya Prezidenti Vladimir Putin Ukraynaya qarşı işğalçı müharibəyə qərar verəndə dostu Çin lideri Si Cinpinlə məsləhətləşməmişdi. Belə olan halda Si Cinpin Vladimir Putinin avantürasına birmənalı dəstəkdən çəkinməliydi. Buna baxmayaraq, Zatulinin də etiraf etdiyi kimi, Çin Rusiyaya hərbi texnikanın istehsalı üçün zəruri avadanlıqlar verib. Zatulin Çinin Rusiyaya hətta müasir dronlar satdığını da vurğulayıb. Ancaq Zatulin Çinin Rusiyanın düşməni Ukraynaya da dron satdığını iddia edib. Halbuki, Çinin Ukraynaya dron satdığına dair fakt yoxdur”.

Politoloqun sözlərinə görə, Pekin Rusiya-Ukrayna və ABŞ-İran müharibələrində öz maraqlarından çıxış edib:

”Pekin eyni zamanda Rusiya və İranın məğlub olmasında maraqlı deyil. Çünki, hər ikisinin məğlubiyyəti Çinin qlobal və regional gücünü zəiflədə bilər. Odur ki, Pekin Moskva və Tehrana onların istədiyi şəkildə dəstəyi verməsə də, Rusiya və İranın ayaqda qalmaları üçün hər şeyi edib”.

**Vasif**

*Tural Cəfərov*



# "Rəmiş" dastanı

**Aqil Abbasın ”Rəmiş” povestini oxudum.**

**Əslində bu povest deyil, bu bir dastandır.**

**Rəmiş dastanı...**

**Çünki Rəmiş ifaçı deyil, Rəmiş ozandır.**

**Ozanlar xalqın ruhunu ifadə edir.**

**Aqil Abbas, dastandakı adı ilə Şair Rəmişin internetdəki musiqilərinin ya toyda ya da televiziyadan olduğunu deyir. Onun peşəkar səsyazması yoxdur.**

**Bu da təbiidir, çünki ozanın sənəti itib-getməlidir.**

**O, ancaq müasirlərini sehrləyə bilər.**

**Dədə Qorqud dastanının əlyazması tapılmasaydı o da itib gedəcəkdi.**

**Çünki Dədə Qorqud dastanı heç kimin yadında qalmamışdı. Bir möcüzə ilə Dits onu tapmasaydı Dədə Qorqudun adını da heç kim bilməyəcəkdi.**

**Eləcə də minlərlə aşıq... Və minlərlə şair... Minlərlə ozan...**

**Birinin şeiri digərinin adına çıxıb, bir imza altında bəzən beş şairin irsi toplanıb, bəzi əlyazmalar, cünklər isə ümumiyyətlə ortalıqdan buxarlanıb.**




**Onların irsi ancaq və ancaq son əsrlərdə yığılıb, o zamana qədər isə yaddaşlarda qalan fraqmentlər istisna olmaqla qalanı itib gedib.**

**Deyirlər ki, müsəlmanın qəbri itməlidir.**

**Eləcə də ozanın irsi itməlidir.**

**Şair dastanın ön sözündə belə yazır: ”Tarixdə Paqanini adlı bir skripka dahisi olub. Təbii ki, təxminən 250 il bundan əvvəl yaşamış Paqaninin necə ifa elədiyinin bir şahidi qalmayıb, ağızdan ağıza keçib. Deyilənə və yazılanlara inanmaq məcburiyyətindəyik. Yazırlar ki, Paqanini skripka çalanda zaldakı adamların ürəyi gedirmiş”.**

**Eynilə də Rəmişin irsi...**

**Kafka Yanoux ilə söhbətlərində ozanı belə təsvir edir. ”Ozan azad adamdır, onun ürəyinin səsi, daxili instinktləri çox güclüdür. O, bir gün burdadır, sabah başqa yerdə. Ancaq mənim ömrüm bir mənzildə keçir, ona görə də ozanın azadlığı qarşısında utanıram. Ozan həyatın ağırlığını, məşəqqətini digər insanlardan daha güclü formada hiss edir. Ozanın türküsü hayqırışdır, fəryaddır. ”**

**Sanki Rəmiş haqdadır...**

**Rəmişin insanlarla ünsiyyəti ancaq musiqi ilədir.**

**O, sanki sözlə ünsiyyət qurmaqda çətinlik çəkir, ancaq elə ki, əlinə gitaranı götürür, sanki insanlarla danışır və hətta onları sehrləyir.**

**”Kamança”da deyildiyi kimi... ”Haramzada elə çalır ki, keçən günləri gətirir qoyur adamın qabağına”.**

**Rəmiş nə məktəb oxuyub, nə də kitab. Bircə Şairin verdiyi ”Netaçka Nezvanovanı oxuyub, onu da dürüst başa düşməyib.**

**O bütün varlığı ilə təbiidir, həyatın özüdür, ruhun yazılı ədəbiyyatdan əvvəlki xalis, saf formasını ifadə edir, o ruhu duyur, ifa edir, insanlara çatdırır, sözün deyə bilmədiyini sazla deyir.**

**Rəmiş öləndə yazmışdım ki, Rəmiş və Rəmiş kimi adamlar vəfat etmirlər, dünyadan köçmürlər, eləcə ölürlər...**

**Çünki onların həyat qədər gerçəkdir, əsl ozan həyatıdır, Dədə Qorqud həyatıdır.**

**Əzəl söz olmayıb, əzəldən səs olub. Rəmiş də o səsin ozanıdır, o səsin vəhyinə, ilhamına vaqifdir.**

**Şairin dastanında sehrli realizmin bütün elementləri var: Rəmiş Paqanini ilə görüşür, Əmir Teymurun hüzuruna çıxır.**

**Mələklər, şeytanlar... Ancaq bu dastandır və dastanlara mifik elementlər xasdır. Və bütün bunlar o qədər təbiidir ki, nəinki inanırsan, hətta heç şübhəyə də düşmürsən...**

**Və əlbəttə ki, heç bir dastan sözü ifadə edə, sözü yaza bilməz.**

**Rəmişin necə ifa etdiyini, onun musiqisini bəlkə də gələcək nəsillər heç zaman bilməyəcək, bəlkə Aqil Abbasın müəllifliyi də unudulacaq, amma ”Rəmiş” dastanı qalacaq.**

**Dastanların taleyi budur...**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Çiynimizdə oturan mələk - ÖLÜM

## Heç kim ondan qaça bilmir

"Qaşla göz arasındadır!" - deyirlər ölüm. Təbii ki, bunu zamanında deyiblər. O zamanda ki, insanlar bir-birinə qarşı bu qədər laqeyd deyildi. Biganəlik, müxtəlif xəstəliklər, viruslar bu qədər artmamışdı. Necə deyərlər, dədə-baba üsulu ilə türkəçarə qaydasında müalicə olunurdu hər kəs. Nə "xərçəng" adı bilən var idi, nə də "tromb". Nəysə. Amma adamlar ünsiyyət qurmağı, bir-birinin halına yanmağı, bir-birinə dəstək olmağı daha gözəl bilirdilər. Necə deyərlər, bir el-oba səmimiyyəti, bir insan təəssübkeşliyi var idi. Yıxılana hamı əl uzadırdı, büdrəyənin hamı qolundan tuturdu. İndi isə...

"Ölüm adiləşib"- deyirlər. Bunun da səbəbini bəzilərimiz müharibə ilə bağlayırıq. İtirdiyimiz övladların acısı ürəyimizi daşlaşdırıb deyirik. Otuz ildə o qədər qan gördük, o qədər hüzrlərdə olduq ki, yas mərasimləri az qala bir yerə yığışmaq üçün görüş yeri kimi dəyərləndirildi. Və adamlar ölkənin müxtəlif yerlərindən həmin yaslara borcxərc özlərini yetirdilər ki, təsəlli versinlər bir-birlərinə. Beləcə ilk "başın sağolsun"dan sonra mövzu dəyişdi. Həyat problemləri, güzəran adamların fikrini yayındırdı. Ona görə də adiləşdi ölüm. Hətta qonşuda, məhəllədə yas düşəndə də, mağar qurulanda da çoxumuzun diqqətini çəkmədi. Televizorlarımızdan yayımlanan musiqilər nə susdurulodu, nə də səsi azaldıldı.

Çünki hər kəs öz ölüsünü düşündü. Bilmədi ki, ÖLÜM qaşla göz arasındadır. Hər an qapını döyə bilər. Və bir də ölüm qapıların fərqində olmur. İstənilən qapını istədiyi vaxtda döyür.

Bax bu düşüncələrin içərisində ağlımdan bu misralar gəlib keçdi. Bilmirəm nə qədər doğrudur, amma həqiqətən məni çox rahatsız edən pıçıltıdır bu:

*Əlvida! -*
*Torpağı daha da sevdirir,*
*Doğmalaşdırır*
*Adama*
*Canımızdan*
*Ayrılan can*
*Yerin altını da yaşıllaşdırır!..*

Mən yerin altının necə yaşıllaşdığını öz həyatımda hər gün hiss edirəm. Özü də təkcə bu gün yox, dünən yox, nənəmi, babamı, əmilərimi, dayılarımı, bibilərimi, tələbə yoldaşlarımı, iş yoldaşlarımı, mənə qayğı göstərənləri, əlimdən tutanları, atamı, anamı, qardaşımı, səngər silahdaşlarımı itirəndə bunu daha çox hiss etdim. Gördüm ki, yerin üstündəki çevrəm getdikcə daralır, seyrəlir. Yerin altındakı doğmalarım sanki orda bir şəhər salırlar. Və mən də o şəhərin sakinlərinin artımını izləyə-izləyə yerlə göy arasındakı məsafənin hardasa qısaldığını, bir-birinə yaxınlaşdığını da hiss edirəm. Çünki yerin altındakıların ruhu göy üzündədir, Tanrı dərgahındadır. O ruhlar yerlə göyü bağlayır bir-birinə. Bəzən elə bilirəm bu bağlantıdır yerlə göyü üz-üzə saxlayan səbəb. Bəlkə də burdakı İlahi güc özü qarşılaşdırıb yerlə göyü. Və bununla da bizə qaçmağın mümkünsüzlüyünü, həmişə üz-üzə olacağımızı demək istəyib həmin o gücün SAHİBİ. Axı adiləşən ölüm özü ilə birlikdə insanı da adiləşdirir. Və deməli, bu adiliyin içərisində baş qaldıran laqeydlik insanlığın yaşam, sevgi, diqqət, qayğı kimi hisslərinin şirəsini sorur, qurudur insanı. Adamda ruhdan çox, hissdən çox cisim qalır, yeriyən cisim. Və hər kəs də bu yeriyən cismin günahlarını da görür, savablarını da. Görə-görə də susur o ana qədər ki, ÖLÜM "mən burdayam" - deyir.

Hər dəfə özümə söz veririəm ki, nostalji, pessimist, ruh düşkünlüyü yaradan, ən vacibi isə sızıntılı duyğulardan uzaq qaçacam, onların dərinliyinə varmayacam, onlardan heç nə yazmayacam. Amma nə qaça bilirəm, nə də qaçmaya. Ona görə ki, o hisslər artıq kölgəmə çevrilib mənimlə yanaşı addımlayır. Hər gün də mən o addım səslərini eşidirəm. Bəzən özümə, doğma bildiklərimə təsəlli olsun deyə yaşımızı xatırladıram, yarım əsri arxada qoyduğumuzu deyirəm. Özü də bunu dediyim məqamda yüzəyüz bilirəm ki, heç kim razılaşmayacaq, heç kim qəbul etməyəcək dediklərimi. Amma bu, gerçəklikdi. Bütün məqamlar üçün, bütün anlar üçün. İcazə gözləməyən, qapı döyməyən gerçəklik!

*De, bəlkə küləksən anidən əsən*
*Ya daşsan sürüşüb qəfil yol kəsən...*
*Olanlara inanmaq olmur bəzən -*
*Ölüm?!.*

*Fərq qoymur kimdi, ya hansı təbəədi,*
*Dəyişmir heç vaxt ünvanı, məbədi!*
*Varsan bütün zamanlarda əbədi -*
*Ölüm!*

*Bütün göz yaşların, səsləri udur*
*Səbrini həmişə gizlində tutur!..*
*Hər kəsə deyir ki, sakitcə otur! -*
*Ölüm...*

*Varlığı bəllidi, yerini bilən*
*Yoxdur ki, hay salsın "Ölüm"- dü gələn...*
*Hamıya, mənə də sonuncu gülən -*
*Ölüm!*

Düşünürəm ki, bu şeir elə-belə yazılmadı. Və əminliklə də vurğulayıram ki, mən heç bu şeiri yazmaq barəsində də düşünməmişdim. Lakin sonuncu ağır itki özü-özlüyündə bu şeirin içimdə cücərməsinə səbəb oldu.

Bir də gördüm ki sıxıntım, hamıdan gizlətmək istədiyim göz yaşım bu şeirə çevrilib. Özü də hay-küysüz. Bu yerdə təkrar əmin oldum ki, heç birimizin qaça bilməyəcəyimiz çiynimizdə oturmuş mələkdi. Görür və gözləyir. Gördüyü bizik, gözlədiyi isə zaman. Sadəcə o zaman bizə aid deyil. Onun özünün ixtiyarında olan zamandı. Barəmizdə qərar verəcəyi zaman...

Hər bir yaşam insan həyatında nəyəsə birmənalı olaraq təsir edir. Gah ruhlandırır, həvəsləndirir, gah da aşıq şair demişkən sındırıb qol qanadını yanına salır. Fərqli cəhətlər olsa da ünvan birdir, yəni insandır. Ona görə də yaşamı problem etməkdən daha çox onu sadələşdirməyə, özünə və çevrənə uyğunlaşdırmağa çalışmaq lazımdır. Düşünmək, həm də cəhd etmək lazımdır ki, yaşamın içindən dərdlə yox, biraz qollu-qanadlı çıxa biləsən. Özünü kiminsə, nəyinsə qarşısında sınmış, diz çökmüş görməyəsən. Lap son gücünlə toparlanıb qamətini düz tutasan. Nəfsini də idarə edəsən. Bilirsiniz bunlar mənim düşüncəmə görə niyə bu qədər maraqlı və vacibdir? Bəlkə də bilirsiniz və ya sizin öz arqumentləriniz var. Şəxsən mənə görə burda daha çox həyat təcrübəmin diqtəsinə söykənib qərar qəbul etmişəm ki, çiynimdə oturanın mənə acımasını istəmirəm. Onsuz da o, fikrini dəyişən deyil. Nə qədər sızıldasam da, sızıldamasam da onun sözü sözdür, qərarı qərardır. Və...

Həyatın bir göz qırpımı olduğunu da deyiblər. Bəlkə də bu, elə hardasa ölüm qaşla göz arasındadır deyiminin paraleli və ya qarşılığıdır. Bu fikrim mübahisəli də ola bilər, baxmayaraq ki, mən onların hər birinə ayrı-ayrılıqda diqqət yetirib fərqlərini tapmağa çalışmışam. Sonda görmüşəm ki, qaşla göz arasında olan həyatı da bir göz qırpımı ilə bilir, daha doğrusu, buna qadirdir. Deməli...

*Hər gün artır düyünləri, zədəsi,*
*Basqıları, göz dağları, hədəsi...*
*Yaxınlaşır qırılmağın vədəsi -*
*Bu ömür ağacının...*

*Gah yağışlar, gah da onu sel əyir,*
*Gah küləklər, gah da onu yel əyir...*
*Gah baltalar, gah da onu əl əyir-*
*Bu ömür ağacını...*

*Çiçəkləmək istəyiylə kükrəyir,*
*Tumurcuqda nəzər dəyir, büdrəyir...*
*Bəzən aşkar, bəzən içdə titrəyir -*
*Bu ömür ağacı...*

*Zaman özü suyun, odun azaldır,*
*Həm havasın, həm də yodun azaldır...*
*Qarışdırır... yaşam " xodun" azaldır -*
*Bu ömür ağacının!*

***P.S.*** *Xalamoğlunu gözləyirdi. İki gün idi ki, gəlmirdi. Nigaran qalmışdı. Ağlına hər şey gəlirdi. Ölümdən başqa...*

***P.P.S.*** *Xalam qardaşından nigaran idi. Zəng vurmurdu. Ağlına hər şey gəlirdi. Təkcə ölümdən başqa...*

*Xalam bilmirdi ki, oğlu iki gündür çıxıb gedib atasının, qardaşının yanına. Onların dünyasındadır. Xalam bilmirdi ki, qardaşı gedib oğlunun yanına. Xəzərdə xidməti vəzifəsini yerinə yetirəndə həlak olan oğlunun yanına. Xalam bunları heç vaxt bilməyəcək.*

## Milli İncəsənət Muzeyində görüş

**Azərbaycan Milli İncəsənət Muzeyində Beynəlxalq Sivilizasiyalararası Dialoq Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Mədəniyyət Komitəsinin sədr müavini Günay Əfəndiyeva və Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Meyin iştirakı ilə dəyirmi masa təşkil olunub.**

Dəyirmi masada Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimləri, jurnalistləri, beyin mərkəzləri, mədəni irs, ənənəvi sənətkarlıq və yaradıcılıq sənayeləri istiqamə-



tində fəaliyyət göstərən qurumların təmsilçiləri, Çin üzrə ixtisaslaşmış mütəxəssislər iştirak ediblər.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin iki ölkənin strateji tərəfdaşlığının genişləndirilməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr Azərbaycan ilə Çin arasında qədim İpək Yolunun formalaşdırdığı tarixi-mədəni bağların yeni məzmunla zənginləşməsinə xidmət edir.

Tədbirdə Azərbaycan-Çin əlaqələrinin inkişafının perspektivləri, xalqlar arasında dialoqun gücləndirilməsində incəsənətin rolu və birgə əməkdaşlıq ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin, tədbir çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində nümayiş etdirilən ekspozisiyalara - Çin incəsənəti nümunələrinə baxış keçirilib.

Qonaqlara muzeyin kolleksiyasında qorunan Şərq incəsənətinə aid nadir eksponatlar, onların tarixi və bədii xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

## Qadınların yuxusu daha keyfiyyətli olur

**Tədqiqatçılar tərəfindən aparılan və nəticələri "Sleep Advances" jurnalında dərc olunan yeni araşdırma maraqlı bir ziddiyyəti üzə çıxarıb: qadınlar kişilərlə müqayisədə daha çox pis yatdıqlarını düşünsələr də, obyektiv göstəricilər bunun əksini göstərir.**

Adalet.az xəbər verir ki, araşdırmada yaşı 29-85 arasında dəyişən 476 İsveç sakini iştirak edib. İştirakçıların sayı qadın və kişilər arasında bərabər bölünüb. Onların yuxusu bir gecə ərzində polisomnoqrafiya üsulu ilə izlənilib. Bu metod yuxu zamanı beyin fəaliyyətini, tənəffüsü və hərəkətləri qeydə alır.

Səhər isə iştirakçılar yuxularının keyfiyyətini özləri qiymətləndiriblər.

Nəticələr gözlənilməz olub. Qadınlar daha çox yuxudan şikayət etsələr də, cihazların qeydlərinə görə onlar demək olar ki, bütün əsas göstəricilər üzrə kişilərdən daha yaxşı yatıblar.

Məlum olub ki, qadınlarda gecə oyanmaları daha az olub, onlar daha uzun müddət yatıblar, dərin yuxuda daha çox vaxt keçiriblər və yataqda keçirdikləri vaxtdan daha səmərəli istifadə ediblər. Başqa sözlə, fizioloji baxımdan onların yuxusu daha keyfiyyətli olub.

Alimlər bu paradoksun mümkün izahını da tapıblar.

Araşdırma göstərib ki, qadınlar gecə baş verən oyanmaları daha dəqiq xatırlayırlar. Kişilər isə qısa müddətli oyanmaları çox vaxt ya hiss etmir, ya da sonradan xatırlamırlar.

Məsələn, kişi bir neçə saniyə və ya dəqiqəlik oyandıqda, adətən yenə də bütün gecəni yaxşı yatdığını düşünür. Qadınlar isə ən qısa oyanmaları belə nəzərə alaraq yuxularını qiymətləndirirlər.

Tədqiqatçılar qısa və demək olar ki, hiss olunmayan oyanmaları yaşayan kişiləri analizdən çıxardıqda, qadın və kişilərin yuxu ilə bağlı subyektiv qiymətləndirmələri arasındakı fərq demək olar ki, aradan qalxıb.

Araşdırmanın rəhbəri Torbyörn Okerstedt bildirib ki, kişilərin yuxularını daha müsbət qiymətləndirmələrinin səbəbi məhz bu qısa gecə oyanmalarını zəif xatırlamaları ola bilər. Bu fərqin niyə yarandığı isə hələlik məlum deyil.

Araşdırma həmçinin göstərib ki, yaş artdıqca fərqlər daha da nəzərə çarpır. Yaşlı kişilərdə dərin yuxunun keyfiyyəti azalır və gecə oyanmalarının sayı artır. Qadınlarda da yaşla bağlı dəyişikliklər baş verir, lakin onlar daha zəif ifadə olunur.

Buna baxmayaraq, yaşlı qadınlar da yuxularını kişilərə nisbətən daha çox qeyri-qənaətbəxş hesab etməyə davam edirlər.



# Nə yaxşı, Aqil Abbas "Dolu"nu yazdı

*Allahverdi Eminov*

**Oxucu onun qaldırdığı məsələləri başa düşməli, mənəviyyatın inkişafı, psixoloji komplekslərdən yaxa qurtarmağa yönəldilən obrazları hətta elmi aspektdə yozmağı anlatmalıdır. Çün oxucu ədəbiyyatı mənimsəməkdə daha asan yolu seçim edir. Ədəbiyyat bu mənada özünün müvafiq janrına üz tutmalıdır, nəinki "bu gün filan janr daha çox oxunur" ənənəsinə sığınmalıdır. Yəni zövqsüz oxucusunu yamsılamamalıdır. Əlbəttə, oxucunun da "günahı"yox deyil: hissləri, zövqləri, imkanları utilitar istiqamətə, dar çərçivəyə yönəlir. Belə tip oxucular ən çox şəxsi - daxili ehtiyacı, intellekti, ləzzətalma və sair xırdalığa üstünlük verir. Halbuki, insan (oxucu) təbii ehtiyacları anadangəlmə qazanmışdır, dolayısı ilə əldə etməlidir: həyati idrak qabiliyyəti, realist fərqləndirmə instikti ziddiyyətləri görmək cəsarəti.**

Ədəbiyyat o halda itirir müəllifi siyasi-sosial sistemin qlobal enişini gör-mək (bəlkə də görür) sanki duymur və məişətin adi məsələlərindən yanaşır. Gündəlik məişətə daha çox əsərlərində yer ayırır, əxlaqın bəşəri dəyərini yaddan çıxarır (bəlkə də çıxarmır), hadisələrə dərindən nüfuz etməkdən çəkinir, əsər isə səthiliyində qalır. Obrazlar çox yaşamaq iqtidarını itirirlər. O qisim yazıçılar görməyə məcbur olmalıdır ki: mövcud cəmiyyətin tətbiq etdiyi idarəetmə metodologiyası daha yaramır, adi sosial proseslərə üstünlük və xalq kütlə çərçivəsinə salınır, insanlara susmağı aşılanır, şəxsi mənafeyi üçün əqidəsini dəyişir, dünənin ........, kənara atılanda ağılı gəlir başına, bu isə artıq peşimançılıqdır! Bu iradəsizliyilə insan əxlaqını itirmiş olur, zərbələr vurulur.

Artıq korrupsiya "yuxarı" dairələrə çıxır, dövlət nə qədər mübarizə aparsa da! Dəniz boyu fantastik manatlarla, yaxud dollarla başa gələn kaşanələr dənizlə nəfəs alır, bu hava ilə balıqların ömrünə şərik çıxırlar. Dənizlə imkansız insanlar arasında daş-divarlar hörülübdür, təbiətin pulsuz bəxş etdiyi sularda çimmək pula satılır... Bunlar məişət mövzuları da ola bilir - jurnalistlər üçün, bəşəri mövzulara da çevrilə bilər - yazıçılar üçün. Məgər ədəbiyyata mövzuları İlahi qüvvə göndərir.

İlahinin ünsiyyət bağladığı yalnız şairlərdir, ədiblər bunu bilməmiş deyillər. Bəs hanı təcrübəli maddi-məişət qayğılarından tam azad olan iri kalibirli yazıçılar? Onlar qəribədir ki, ya ədəbiyyat məsələlərilə, ya publisistika ilə, ya iclaslarda şanlı nitq deməklə, ya da cavan qələmdaşların gücü çatan bədii əsərlərlə kifayətlənirlər...

Cəmiyyət yazıçılardan çəkinməlidir, - desəm yanılmaram. Sistem qərarını irəli sürmür qətiyyətlə verir və başlayır "xəbərsiz" sərəncamını, göstərişini təbliğ və təşviq etməyə. Ədəbiyyatın humanist: xeyirxah, estetik, qayğıkeş bir peşə olduğuna şübhə ilə yanaşmamalıdır, "zəmanəsinin qəhrəmanı"nı cəsarətli timsalında görməyi bacarmalıdır. Hansı ki, XIX əsrdə rus tənqidçisi V.Q.Belinski lazımi qiymətini vermişdir. Bizim qəhrəmanlarımız nə yaxşı Qarabağ savaşında yarandı, örnək oldular. Və istedadlı yazıçımız Aqil Abbas ədəbiyyata tam "Dolu" romanını gətirdi. Müasir məhsuldar yazıçılarımız öz sələflərini yamanca tez unutdular. Əbül Həsən, Ənvər Məmmədxanlı, Hüseyn Abbaszadə, Həmid Axundlu, İsmayıl Şıxlı romanlar və povestlər qələmə aldılar. "Müharibə" ("Dostluq qalası"), "General" (romanlar) və heç də az dəyər daşımayan "Buz heykəl" (Ənvər M.) hekayəsini mə-gər oxumamışlar? Hanı "Qarabağ müharibəsi" obrazı? Hanı bu davanın fərdi obrazları haqqında roman, povest? Nə yaxşı, Aqil Abbas "Dolu"nu həm də ekrana çıxartdı...




Ədəbiyyata gələnlər və yeni-yeni addım atanların ürəyinə tarixi romanlar və dedektiv povestlər yazmaq yatmışdır, buna etiraz etmək qəbahətdir, amma irad tutmaq olar. Tarixi romanın ən bariz nümunəsi M.S.Ordubadinin "Qılınc və qələm"idir ki hələ o səviyyədə bir əsər belə ortaya çıxmamışdır. Romanın ən müsbət məziyyətləri az deyil: Müəllifin Nizami dövrünün yaratdığı mühitin problemlərini hakimiyyətin idarə olunması fonunda epoxal səviyyəyə yüksəldilməsidir, böyük tarixin həm siyasi-sosial, həm də əxlaqi-mənəvi dəyərlər fonunda epik təsviridir.

Oxucu özünü Nizaminin həməsri, onun yerişini-duruşunu, şeir söyləməsini, ailə başçısı olmasını və sairin şahidi qismində təsəvvür edir. Ədəbi şəxsiyyətin dövlətin idarə olunmasında bilavasitə nüfuz təsiri qiymətləndirilir. Bu şəxs dövlətin başçısıdır! Bu xətt M.S.Ordubadinin gələcək yazıçılara bir messajıdır! Romanın dili təhkiyədi. Romanda bədiilik çatışmırsa, məişət çalarları yoxsa... Bu, müəllifin bədii müşahidə və bədii təxəyyülünün kasıbçılığına dəlalət edir. Tarixi roman yazmaq asan işə oxşamır, tarixi mənbələrin dərininə varmaqdır... Xatırlamağa dəyər ki, görkəmli ədib İsa Muğannanın Nəsimi haqqında romanına bir tənqidçi irad tutmuşdu. İsa Hüseynov (Muğanna) "Azərbaycan" jurnalında çıxış etdi və həmin tarixçinin xəbəri olmayan unikal mənbələri sadaladı ki, romanı yazanda bu sənəd-lərə də əsaslanmışam.

Son illərdə bu mövzuda mən mübaliğəsiz istedadlı şairə və yazıçı Sona Və-liyevanın Həsənbəy Zərdabinin ibrətli ömür yolundan bəhs edən "İşığa gedən yol" (2001) romanını qeyd edərdim. Mən əsəri xəstəhal çağımda iki-üç günə oxudum və "Azərbaycan" jurnalında obyektiv fikrimi deyəsi oldum... Bu yazıçının tarixi dövr və tarixi şəxsiyyətlər qarşısında məsuliyyət hissidir. Bədii ədəbiyyat insanın səadətdən, həzzdən, fərəhdən məhrumluğu zamanında onun xilas yoludur - mənim fikrimcə, ona görədir - mənəvi dəyərlərin əxlaqi fəzilətlərini personajlarda təcəssüm etdirir, yeri gələndə qadın obrazlarının mübhəm hisslərini, gözəllik mənbəyi olduğunu büruzə verir. "Qılınc və qələm"də Fəxrəddin - Qətibə xətti, "İşığa doğru"da Həsənbəylə rektorun qızı arasında lirik sevgi ilğımı. Nə qəbahət var bunda? Nədənsə son romanlarda yazıçılar elə bil oxucu tənəsindən qaçmaq istəyirlər, buna nə ehtiyac? Lev Tolstoy "Hərb və sülh" romanında məhəbbət xəttinə dərin ehtiyac duymamışmı? Nataşa surəti təsadüfən yaradılmamışdır, romana bir təravət, gözəllik gətirir.

Görkəmli yazıçı Anar "Beşmərtəbəli binanın altıncı mərtəbəsi" romanı ilə bu sükutu pozmağı bacardı. Belə bəşəri hiss V.Hüqoda, O.Balzakda, L.Tolstoyda, İ.Turgenevdə, Mopassanda, Floberdə, M.Səiddə məgər yoxmudur?

Ədəbiyyat oxucusunda səadət arzusundan yaxasını dartıb, yalnız siyasi-sosial-ictimai problemlərlə məşğuldursa, o uzağa addım ata bilməz. Əgər əsərin qəhrəmanı səadətin, xoşbəxtliyin simvolu deyilsə, oxucunun qazandığı nə olar ki?! Yazıçı həyatı mənası məsələsinə daha çox diqqət kəsilməlidir, nə üçün gizlin qalmalıdır ki. İnsan yaşadığı həyatdan zövq almalıdır, xoşbəxt olmağı bacarmalıdır. Vaxtilə stoiklər və epikürçülər səadət məsələsinə öz münasibətlərini bildirməkdə yanılmamışlar və iddia etmişlər ki, yaşadığı dünyadan kam almalı, yetərli xoşbəxtliyə qovuşmalıdır. İnsan təbii tələbatlarını, ehtiraslarını nə üçün boğmalıdır? Axı, ən qiymətli şey elə həyatın özü deyilmi? Eləcə də həzz almaq! Şərq mütəfəkkiri Əl Fərabi yazırdı ki, ən yüksək nemət olan xoşbəxtliyə cəhd insanın ən mükəmməl məqsədidir. Lakin səadət, xoşbəxtlik iztirabdan keçib gəlir, əlbəttə, bu o demək deyil onun yoluna çıxıb qarşılayasan, yox! İnsan necə və nədən həzz duymağı və ondan qaçmağı bacarmalıdır, təlatümsüz həyat sürməlidir. Bu həyatın maddi-fiziki tərəfidir, qaldı bədii ruhi çağırışına - yazıçı, eləcə də şairə - daxili ovqatını köklə-məklə əzab çəkməzsə dəyərli əsərlər qələmindən çıxmaz. Bir qədər kənara çıxmaqda məqsədim odur ki, insanın daxili aləmini, sevgi iztirablarını, bu yolda itirdiklərini, ünsiyyət kodunu axtarıb tapmasını özündə əks etdirən bir romana belə rast gəlməmişik.

**Səbəb? Bəlkə bir qrup zövqsüz insanların müdaxiləsidir? Bəlkə mövzu axtaran tənqidçilərin qələminə düşməməkdir? Bəlkə daha çox "bəlkələr" ortaya çıxar, lakin ədəbiyyat bəşəri və əbədi mövzularla tarixdə yaşayır. Müasir ədəbiyyat əyləncə də deyil xırda, döyənək mövzulara üstünlük qazandırasan. Müasir ədəbiyyat insanı mənəvi əsarətdən qurtarmaq, hisslərin coşğunluğunu ram etməkdir, sətirlərarası fikirlərə pənah gətirmək deyil. Oxucu düşündüyü, yaşadığı, lakin yaza bilmədikləri mübhəm hisslərin bədii təsvirini duyub zövq almaq istəyir. Qarşılaşdıqları prototipləri romanlarda, povestlərdə görmək arzusunda olur və onların taleyini izləmək imkanı qazanmaq istəyir.**

*Kamran Güllər*

# Allah şüursuz kütləyə ağıl versin...



**Türk milləti kimi müxtəlif adlar altında parçalanan, bir-birinə düşmən edilən millətlərdən biri də Slavyanlardır. Slavyan deyirik, əslində Rus və Ukrainlərin içində asimlə edilib itib batmış çoxlu sayda müxtəlif adlar altında parçalanmış Türk milləti var, Çuvaşlar, Kazaklar, Tatarlar kimi..**

**Rusiya imperiyası yaradıldığı gündən bu yana demək olar ki, idarəçilik daim qeyri Ruslarda olub. İlk öncə çarlıq dövründə Fransızların, Almanların, İngilislərin, Sovetlər dövründə Yəhudilərin idarəçiliyi altında olan Rus milləti qeyri Rus rəhbərliklərin oyunlarına alət olub və kütləvi qırğınlara məruz qalıb( 1-ci və 2-ci dünya müharibələri)**

**Hazırda da eyni vəziyyət müşahidə edilir. Qeyri Rus Putinlə qeyri Ukrain Zelenskinin "Donetsk və Luqansk" oyununa düşürülən Slavyanlar 5-ci ildir ki, bir-birini tüketməklə məşğuldur. 5 ildir sürdürülən müharibədə nə bu tırəfdən, nə o biri tərəfdən bir qarış belə olsun irəliləmə müşahidə edilmir. 2-3 qəsəbəni gah bu alır, gah o biri.. Yəni görünən bildiyimiz səhnəcik. 5 ildir sürdürülən bu qanlı səhnəcikdə Slavyan xalqı nə itirib və nə qazanıb?**

**Hər iki tərəfdən milyondan artıq canlı qüvvə itkisi, on milyondan artıq yaralı və əlil, dağıdılmış yaşayış məntəqələri, viran edilmiş infrastruktur, itirilmiş milyardlarla vəsait..**

**Bəs Slavyan xalqı üçün bu qədər faciələr yaradan bu lənətlik müharibədə qazananlar kimlərdir?**

**Hə, güman edirəm bu sualın cavabını Slavyanlar tapanda müharibə də dayanar..**

**Allah şüursuz kütləyə ağıl versin.**

## *"Mədəniyyət sahəsində müsabiqə anlayışını uzun müddətliyinə ləğv etmək lazımdır"*



**"Kitabxana mövzusu gündəmdəykən bir neçə fikrimi bölüşmək istədim.Kitabxana elə bir intellektual məkandır ki, yenilik onun çölündə, formasında deyil, içində, məzmununda baş verməlidir. Bizim dövlət kitabxanalarının oxucuları, təəssüf ki, 40-50 il bundan əvvəl dünyaların dəyişiblər. Yəni kitabxanaların ümumi səviyyəsi 40-50 il əvvəlin oxucularının oxuyacağı kitablardan ibarətdir. Uzun rəflərdə müasir oxucuları maraqlandıran mövzulardan bəhs edən iki-üç kitab olar, ya olmaz. Bunun da səbəbi kitabların müsabiqə yoluyla seçilməsidir".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib. O, bildirib ki, biz hələ istənilən müsabiqə yolu ilə yaxşıların içindən ən yaxşını deyil, pisin içindən nisbətən yaxşısını seçirik: "Və bu seçimdə şəxsi münasibətlər müsabiqənin şərtlərini bir telefon zəngi ilə sıfırlaya bilir."Ankor yağına" poema yazan keçmiş məmur yazar kim, "Qız qalası"nı Nizami Gəncəvinin öz cibinin puluyla tikdirdiyini elmi-kütləvi əsər kimi təqdim edən kim, nə bilim, öz uydurmalarını qədim Azərbaycan tarixi kimi çoxcildlik araşdırma əsərləri olaraq göndərən kim, "Kommunist" qəzetində vaxtilə dərc etdiyi məqalələri tələm-tələsik kitab halına salıb milli-məməli irs adıyla nəşr olunmasına israr edən kim və s. yüzlərlə bu cür müəllif kitabları çox asanlıqla kitabxanalarımıza yol tapa bilir". Onun sözlərinə görə, Azərbaycan oxucusunun bu gün kitabxanalardan üz döndərməsi təşvişə yox, alqışa layiqdir: "Çünki kitabxanalarımızın ümumi səviyyəsi cəmiyyətimizin ümumi səviyyəsindən çox geridədir. Ümumiyyətlə, mədəniyyət sahəsində bu müsabiqə anlayışını uzun müddətliyinə ləvğ etmək lazımdır. Təcrübə göstərir ki, mədəniyyətimizdəki durğunluğun səbəbi məhz müsabiqə yoluyla aparılan seçimlərdir. Mədəniyyət sahəsində hər bir yaradıcılıq növü üzrə çağın tələblərinə uyğun proqramlar hazırlanmalı və bu proqramların icrası işi bilən ekspertlərə, yaradıcı qruplara həvalə olunmalıdır. Digər sahələrdə olduğu kimi mədəniyyət sahəsində də demokratikləşmə prosesinə hələ hazır deyilik.Müsabiqə qalibi olmuş elə şəxslər olub ki, şəxsən mənə zəng edib Abdulla Şaiqin son zamanlar niyə yazmadığını soruşublar. Sən demə, məktəbli uşaqlarla müasir yazarların görüşlərini təşkil edəcəkmişlər".

**Vasif ƏLİHÜSEYN**

# AZƏRBAYCANIN MİLLİ QURTULUŞUNDAN MİLLİ İNKİŞAF PARADİQMASINA KEÇİDİNİN FƏLSƏFƏSİ

**Tarixin yaratdığı şəxsiyyət, yoxsa şəxsiyyətin yaratdığı tarix haqqında düşünərkən görmək olar ki, bəzi tarixi şəxsiyyətlər mövcud hadisələrin iştirakçısı olur, bəzi şəxsiyyətlər isə hadisələrin istiqamətini dəyişərək yeni tarixi mərhələ yaradırlar. Azərbaycan xalqının XX əsrin sonlarında qarşılaşdığı mürəkkəb geosiyasi və sosial-siyasi çağırışlar fonunda Ümummilli Lider Heydər Əliyevin kompleks xarakterli fəaliyyəti məhz ikinci kateqoriyaya aid olan nadir dövlətçilik fenomeni kimi qiymətləndirilməlidir.**

15 İyun 1993-cü il Azərbaycan tarixində yalnız hakimiyyət dəyişikliyi və ya siyasi proses kimi deyil, milli dövlətçilik sisteminin yenidən təşkil olunmasının, strateji inkişaf fəlsəfəsinin formalaşmasının və müasir Azərbaycan modelinin əsasının qoyulmasının başlanğıc nöqtəsi kimi dəyərləndirilməlidir.

Məhz həmin gündən etibarən Azərbaycan böhran vəziyyətində olan postsovet ölkəsindən tədricən regional güc mərkəzinə çevrilmək yoluna qədəm qoydu. Bu mənada Milli Qurtuluş hadisəsinin mahiyyətini yalnız siyasi sabitliyin bərpası ilə məhdudlaşdırmaq düzgün olmazdı.

Əslində həmin tarixdə dövlətçilik təfəkkürü yenidən formalaşdırıldı, milli inkişaf prioritetləri müəyyənləşdirildi və Azərbaycanın uzunmüddətli strateji gələcəyinin konseptual əsasları yaradıldı. Ona görə də, 15 İyun hadisəsi Milli siyasi qurtuluş olmaqla yanaşı, həm də iqtisadi qurtuluşun, intellektual qurtuluşun, texnoloji qurtuluşun və milli özünütəsdiqin başlanğıcı kimi qiymətləndirilməlidir.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin ən mühüm cəhəti onun yalnız mövcud problemlərin həllinə deyil, gələcək onilliklərin çağırışlarına hesablanması idi. Bu xüsusiyyət onu postsovet məkanında fəaliyyət göstərmiş bir çox liderlərdən fərqləndirirdi. O, dövlət idarəçiliyini cari problemlərin idarə olunması deyil, gələcəyin layihələndirilməsi kimi qəbul edirdi. Məhz buna görə də Heydər Əliyevin yaratdığı inkişaf modeli təkcə neft strategiyası və ya bazar iqtisadiyyatına keçid proqramı deyil, siyasi sabitlik, milli təhlükəsizlik, insan kapitalı, elm, təhsil, innovasiya, texnologiya və rəqəmsal transformasiyanın qarşılıqlı əlaqəsinə əsaslanan kompleks inkişaf sistemidir. Bu modelin nəzəri mahiyyəti dövlətin iqtisadiyyat üzərində inzibati nəzarətinin deyil, strateji istiqamətləndirici rolunun təmin edilməsinə əsaslanırdı. Burada dövlət bazar münasibətlərini əvəz etmir, onların milli maraqlara uyğun fəaliyyət göstərməsi üçün institusional mühit yaradırdı.

Heydər Əliyev inkişaf modelinin digər mühüm xüsusiyyəti onun statik deyil, dinamik xarakter daşımasıdır. Bu model zaman keçdikcə dəyişən texnoloji, iqtisadi və geosiyasi reallıqlara uyğunlaşmaq qabiliyyətinə malik olmuşdur. Məhz buna görə də həmin inkişaf modeli neft iqtisadiyyatından innovasiya iqtisadiyyatına, sənaye iqtisadiyyatından rəqəmsal iqtisadiyyata, informasiya cəmiyyətindən süni intellekt əsaslı biliklər iqtisadiyyatına keçidi təmin edən strateji platformaya çevrilmişdir. Əgər XX əsrin sonlarında Azərbaycanın əsas vəzifəsi dövlətçiliyi qorumaq idisə, XXI əsrin üçüncü onilliyində əsas məqsəd rəqabətqabiliyyətli intellektual iqtisadiyyat qurmaqdır. Bu keçid təsadüfi deyildir. Onun ideoloji və strateji kökləri məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf fəlsəfəsindən qaynaqlanır.

Bu gün Azərbaycanın rəqəmsal transformasiya, süni intellekt, Big Data, kosmik sənaye, yaşıl enerji, ağıllı şəhər və Sənaye 4.0 istiqamətlərində həyata keçirdiyi layihələrə diqqətlə baxdıqda aydın görünür ki, onların hamısının təməlində vaxtilə formalaşdırılmış vahid inkişaf konsepsiyası dayanır. Milli Qurtuluş Günü məhz buna görə yalnız keçmişə aid tarixi hadisə deyil.

O, bu günün və gələcəyin inkişaf strategiyasının başlanğıc nöqtəsidir. Bu tarix Azərbaycan dövlətinin özünü qorumaq iradəsinin, xalqın milli həmrəyliyinin və uzaqgörən liderliyin tarixi qələbəsi kimi yaşayır və yaşayacaqdır.

### *Dövlətçilik tariximizin dönüş nöqtəsi*

1993-cü ilin iyununda Azərbaycan sadəcə siyasi böhran yaşamırdı. Dövlət idarəetməsi iflic vəziyyətinə düşmüş, ölkə vətəndaş müharibəsinin astanasına gəlmiş, iqtisadiyyat çökmüş, Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlar işğal altında qalmış, dövlət müstəqilliyinin itirilməsi təhlükəsi yaranmışdı.

Belə bir tarixi məqamda xalq öz xilaskarını çağırdı. Naxçıvandan Bakıya qayıdan, böyük dövlətçilik təcrübəsinə malik olan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsindən xilas etdi. 15 iyun 1993-cü ildə onun Azərbaycan Ali Sovetinin Sədri seçilməsi faktiki olaraq dövlətçiliyin xilası, milli qurtuluşun başlanğıcı və yeni inkişaf erasının təməli oldu.

### *Heydər Əliyev fenomeni: şəxsiyyətdən dövlətçilik məktəbinə*

Tarixdə böyük şəxsiyyətlər çox olsa da, öz xalqının taleyini xoşbəxtliyə çevirən liderlər nadir hallarda meydana çıxır. Heydər Əliyev yalnız dövlət rəhbəri deyildi, O, müasir Azərbaycan dövlətçiliyinin memarı, milli inkişaf konsepsiyasının müəllifi, iqtisadi modernləşmənin strateqi, milli təhlükəsizlik sisteminin yaradıcısı, Azərbaycanın beynəlxalq nüfuzunun formalaşdırıcısı, elmə, təhsilə və texnologiyaya əsaslanan cəmiyyətin və iqtisadiyyatın inkişaf modelinin ilk banisi idi. Onun siyasi irsi təkcə müstəqilliyin qorunması ilə məhdudlaşmır. Onun ən böyük xidməti Azərbaycanın gələcəyini təmin edən inkişaf modelini yaratmasıdır.



### *Heydər Əliyevin iqtisadi inkişaf modeli*

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, iqtisadi yüksəliş təsadüfi deyil. Onun arxasında ciddi elmi əsaslara söykənən strateji model dayanır. Müasir iqtisadi ədəbiyyatda "Heydər Əliyev inkişaf modeli" xüsusi tədqiqat istiqaməti kimi öyrənilməyə başlanmışdır. Bu model əsas fundamental prinsiplər üzərində qurulmuşdur:

**1.** Güclü dövlət - güclü iqtisadiyyat. Heydər Əliyevin baxışlarına görə, "İqtisadiyyatı güclü olmayan dövlət hər hansı siyasi müstəqilliyini uzun müddət qoruya bilməz." Bu səbəbdən dövlət quruculuğu ilə iqtisadi inkişaf paralel həyata keçirildi.

**2.** Siyasi sabitlik - inkişafın əsas şərti. 1993-cü ildən sonra ilk növbədə ictimai-siyasi sabitlik təmin edildi, separatizm meylləri aradan qaldırıldı, hüquqi dövlət quruculuğuna başlanıldı, idarəetmə sistemi yenidən formalaşdırıldı. Sabitlik sonrakı iqtisadi yüksəlişin təməl daşı oldu.

**3.** Milli maraqlara əsaslanan xarici siyasət. Heydər Əliyevin diplomatik strategiyası Azərbaycanın beynəlxalq nüfuzunu artırdı, regional liderliyinin əsasını qoydu, qlobal enerji xəritəsində yerini müəyyənləşdirdi.

**4.** İnsan kapitalının inkişafı. İnkişaf modelinin mərkəzində insan dayanırdı. Elm, təhsil, mədəniyyət və innovasiya dövlət siyasətinin mühüm istiqamətinə çevrildi.

Heydər Əliyevin inkişaf modelinin elmi-praktik xüsusiyyətləri ondadır ki, bu model yalnız iqtisadi deyil, həm də elmi və texnoloji mahiyyət daşıyır. Modelin əsas xüsusiyyətləri sırasında bəzilərini qeyd etmək olar.

Resursların səmərəli idarə olunması. Azərbaycanın enerjivə təbii ehtiyatları milli maraqlara uyğun istifadə edildi.

**İqtisadi diversifikasiya.** Neft gəlirlərindən asılılığın azaldılması məqsədilə kənd təsərrüfatı, turizm, sənaye, logistika, yüksək texnologiyalar sektoru inkişaf etdirildi.

**İnfrastruktur modernləşməsi.** Yeni yollar, limanlar, enerji və kommunikasiya sistemləri quruldu.

**Sosial yönümlülük.** İnkişaf yalnız iqtisadi göstəricilərlə deyil, insanların rifahı ilə ölçüldü. Yoxsulluğun azaldılması, məşğulluğun artırılması və insan inkişafı göstəricilərinin yüksəldilməsi əsas prioritetlərdən biri oldu.

**Şəffaf idarəetmə.** Müasir dövlət idarəçiliyinin formalaşdırılması üçün yeni mexanizmlər yaradıldı.

**İntellektual inkişaf.** Elm və təhsilə xüsusi diqqət ayrıldı.

Bu istiqamətlər sonradan innovasiya iqtisadiyyatının formalaşmasına gətirib çıxardı.

"Əsrin müqaviləsi" - iqtisadi müstəqilliyin manifesti.

1994-cü ildə imzalanmış Əsrin müqaviləsi Azərbaycan tarixində iqtisadi qurtuluşun başlanğıcı oldu. Bu müqavilə milyardlarla dollar investisiyanın cəlb edilməsini təmin etdi, enerji diplomatiyasının əsasını qoydu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırdı, sonrakı inkişaf proqramlarının maliyyə bazasını formalaşdırdı. Əgər 15 İyun dövlətçiliyin siyasi xilası idisə, "Əsrin müqaviləsi" də iqtisadi müstəqilliyin təminatı idi.

### *Heydər Əliyev modelində rəqəmsal transformasiya*

Heydər Əliyevin inkişaf modelinin ən mühüm tərəflərindən biri də onun elmi-texnoloji xarakteridir. modelin ənənəvi iqtisadiyyatdan innovativ rəqəmsal iqtisadiyyata keçidin milli platformasını yaratmışdır. Bu model çərçivəsində iqtisadi kibernetika, iqtisadi informatika, informasiya texnologiyaları, elektron idarəetmə, rəqəmsal transformasiya, informasiya iqtisadiyyatı, rəqəmsal qtisadiyyat və s. vahid inkişaf xətti kimi nəzərdən keçirilmişdir. Hələ 2003-cü ilin fevralında Heydər Əliyev "İKT üzrə Milli Strategiya"nı qəbul etməklə gələcəkdəki müasir dövrümüzün - İlham Əliyev erasının İnformasiya Cəmiyyətinin, Rəqəmsal İqtisadiyyat Konsepsiyasının, Süni İntellekt Strategiyasının, ümumən Rəqəmsal Azərbaycanın konseptual əsasını yaratdı. Heydər Əliyev modelində inkişafın texnoloji trayektoriyası aşağıdakı mərhələləri əhatə edirdi: 1) Kibernetik idarəetmə yanaşması; 2)Hesablama texnikasının tətbiqi; 3)İnformasiyalaşma prosesi; 4)Rəqəmsal texnologiyaların iqtisadiyyata inteqrasiyası; 5)Rəqəmsal iqtisadiyyatın formalaşması; 6)Texnoloji konvergensiya; 7)Big Data analitikası; 8)Süni intellekt və Sənaye 4.0 əsaslı yeni iqtisadi paradiqma. Bu yanaşma əslində Azərbaycanın XXI əsrdə inkişaf istiqamətinin elmi yol xəritəsidir.

### *Heydər Əliyevin inkişaf modelinin tarixi təşəkkül mərhələləri*

Ümummilli liderin kompleks fəaliyyətini şərti olaraq bir neçə davamlı mərhələyə bölmək olar.

Birinci mərhələ (1969-1982). Azərbaycanın sənaye və elmi potensialının formalaşdırılması.

İkinci mərhələ (1993-2003). Milli dövlətçiliyin xilası və iqtisadi dirçəliş.

Üçüncü mərhələ (2003-2020). Neft kapitalının insan kapitalına çevrilməsi, iqtisadi diversifikasiya və rəqəmsal inkişaf.

Dördüncü mərhələ (2020-2030). Qələbə və dirçəliş dövrü, Sənaye 4.0, innovativ texnologiyalar və rəqəmsal transformasiya.

Beşinci mərhələ (2030-dan sonra). İnkişaf dövrü, İntellektual texnologiyalar və rəqəmsal transformasiyalar, süni intellekt və Sənaye 5.0.

Qarabağdan Zəngəzura, rəqəmsal gələcəyə

Bu gün Ölkə prezidenti, cənab İlham Əliyevin daimi qayöısı və dəmir iradəsi ilə Qarabağda, Şərqi Zəngəzurda həyata keçirilən "ağıllı şəhər", "ağıllı kənd", yaşıl enerji və rəqəmsal idarəetmə layihələri əslində Heydər Əliyevin müəyyən etdiyi strateji kursun yeni mərhələdə təzahürüdür. Müasir Azərbaycan: kosmik sənayeyə malikdir; peyk texnologiyalarından istifadə edir; elektron hökumət qurur; süni intellekt və Big Data istiqamətində irəliləyir; rəqəmsal iqtisadiyyat modelini formalaşdırır. Bu inkişafın ideoloji və strateji kökləri isə məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf fəlsəfəsinə söykənir.

### *Milli Qurtuluşdan Milli İntibaha*

15 İyun sadəcə tarixi hadisə deyil. Bu tarix Azərbaycanın dövlət kimi yenidən doğulduğu gündür. Əgər 1918-ci il Azərbaycan dövlətçiliyinin yaranması günüdürsə, 15 İyun 1993-cü il onun xilası günüdür. Əgər Milli Qurtuluş Günü dövlətçiliyin qorunmasını ifadə edirsə, Heydər Əliyevin inkişaf modeli həmin dövlətçiliyin gələcəyə aparan strateji yol xəritəsidir. Bu modelin mərkəzində isə üç böyük dəyər dayanır: Güclü dövlət. Güclü iqtisadiyyat. Güclü insan kapitalı. Güclü şəxsiyyət. Bu gün Azərbaycanın əldə etdiyi siyasi sabitlik, iqtisadi qüdrət, beynəlxalq nüfuz, texnoloji modernləşmə, rəqəmsal transformasiya və Qarabağda aparılan genişmiqyaslı quruculuq işləri göstərir ki, 15 İyunla başlayan tarixi yol yalnız qurtuluş yolu deyil, həm də Cənab İlham Əliyevin rəhbərliyilə davamlı milli yüksəliş, milli intibah və gələcəyə inam yoludur. Heydər Əliyevin adı Azərbaycan dövlətçiliyinin xilaskarı, müasir inkişaf modelinin memarı və milli tərəqqi fəlsəfəsinin banisi kimi xalqımızın tarixində və yaddaşında əbədi yaşayacaqdır.

**Əlövsət Qaraca ƏLİYEV,**
**İnformasiya və Cəmiyyət İctimai Birliyinin rəhbəri, professor**

## *Bakcell-in dəstəyi ilə 5-ci "YAŞAT" düşərgəsi başlayıb*



**Bakcell-in dəstəyi ilə şəhid övladları üçün təşkil olunmuş 5-ci "YAŞAT" düşərgəsinə start verilib.**

**Adalet.az xəbər verir ki, Bakcell və NEQSOL Holding-in dəstəyi ilə həyata keçirilən layihə "YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə davam edir. Lənkəran şəhərində təşkil olunan layihə çərçivəsində ümumilikdə 400-ə yaxın şəhid övladının iştirakı nəzərdə tutulur. Yeddi həftə davam edəcək düşərgə proqramı uşaqların asudə vaxtının səmərəli təşkili, şəxsi inkişafı və sosial bacarıqlarının gücləndirilməsi məqsədilə hazırlanıb.**

**İştirakçılar üçün müxtəlif əyləncə proqramları, maarifləndirici təlimlər, teatr tamaşaları, ekskursiyalar, peşəkar mütəxəssislərlə görüşlər və konsert proqramları təşkil olunur.**

**Bakcell-in dəstəyi ilə düşərgənin ikinci günü iştirakçılar üçün süni intellekt və innovasiya mövzularına həsr olunmuş təlim keçirilib. Təlim çərçivəsində uşaqlar müasir texnologiyaların gündəlik həyata təsiri, süni intellektin tətbiq sahələri və gələcəyin peşələri barədə məlumat əldə ediblər.**

**İnteraktiv formatda keçirilən sessiya iştirakçıların rəqəmsal biliklərinin və innovativ düşüncə bacarıqlarının inkişafına töhfə verib.**

**Bakcell sosial məsuliyyət fəaliyyətləri çərçivəsində gənc nəslin inkişafına və cəmiyyətə dəyər yaradan təşəbbüslərə dəstəyini davam etdirir.**

**Bakcell haqqında**

**Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir.**

**Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.**

**Bakcell müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan Azerconnect Group-a daxildir.**



***Burhan AĞAYEV,***
***Metodist və Ali kateqoriyalı müəllim***

# DUYĞULARIN, HƏSRƏTİN VƏ QADIN QƏLBİNİN ŞAİRİ

**Ədəbiyyat insan ruhunun aynasıdır. Elə şairlər vardır ki, onların qələmindən süzülən hər misra oxucunun yaddaşında iz qoyur, duyğularına toxunur və onu öz daxili aləmi ilə üz-üzə qoyur. Belə sənətkarlar sözün sadəcə yazarı deyil, həm də insan qəlbinin tərcümanı olurlar. Müasir Azərbaycan poeziyasında öz səmimiyyəti, duyğu zənginliyi və qadın ruhunun incə çalarlarını böyük ustalıqla ifadə etməsi ilə seçilən Aləmzər Sadıqqızı da məhz belə şairələrdəndir. Onun yaradıcılığı sevginin, həsrətin, ümidin, insan taleyinin və mənəvi dəyərlərin poetik salnaməsi kimi oxunur. Aləmzər Sadıqqızının poeziyasına nəzər saldıqca aydın olur ki, bu şeirlər yalnız oxunmaq üçün deyil, hiss edilmək, yaşanmaq və qəlbdən keçirilmək üçün yazılmışdır. Aşağıdakı yazıda şairənin yaradıcılıq dünyasına qısa bir nəzər salmaq, onun poeziyasının əsas xüsusiyyətlərini və ədəbi dəyərini dəyərləndirmək məqsədi daşıyır.**

Müasir Azərbaycan poeziyasında özünəməxsus yeri olan şairələrdən biri də Aləmzər Sadıqqızıdır. Onun yaradıcılığı ilk növbədə səmimiyyəti, təbiiliyi və insan qəlbininin ən incə tellərinə toxuna bilməsi ilə seçilir. Aləmzər Sadıqqızının şeirlərini oxuyarkən hiss olunur ki, bu misralar sadəcə sözlərin birləşməsindən yaranmayıb, onlar yaşanmış ömrün, çəkilmiş ağrıların, qazanılmış həyat təcrübəsinin və qəlbin dərinliklərindən süzülüb gələn duyğuların poetik ifadəsidir. Bu mənalı və duyğulu şeirdə müəllif Yaradanın sevgisini, şükür hissini, sədaqəti və mənəvi bağlılığı poetik dillə ifadə edir. "Səni ürəyimdə baş saxlayıram" şeiri insanın qəlbində yaşatdığı müqəddəs sevgini, həyatın çətinlikləri qarşısında inamını və mənəvi zənginliyini oxucuya çatdırır. Şeirin hər misrasında səmimiyyət, təvəkkül və könül rahatlığı hiss olunur.

***Bu ömrü pay verən , alan da sənsən,***
***Hər iki dünyama qalan da sənsən,***
***İllərdir könlümə dolan da sənsən,***
***Səninçün qəlbimi boş saxlayıram.***

Bu bənddə müəllif bütün varlığını və taleyini Yaradanın iradəsinə bağladığını ifadə edir. "Bu ömrü pay verən, alan da sənsən" misrası həyatın başlanğıc və sonunun ilahi qüdrətin əlində olduğunu göstərir. "Hər iki dünyama qalan da sənsən" ifadəsi dünya və axirət anlayışlarını əhatə edərək mənəvi bağlılığın dərinliyini vurğulayır. "İllərdir könlümə dolan da sənsən" misrasında uzun illərdən bəri qəlbdə yaşayan sevgi və inam təsvir edilir. Son misrada isə müəllif qəlbini yalnız həmin müqəddəs sevgiyə həsr etdiyini bildirir. Bənd ümumilikdə sədaqət, inam və mənəvi bağlılıq duyğularını təsirli şəkildə əks etdirir. Azərbaycan ədəbiyyatı tarixində qadın şairələrin özünəməxsus yeri olmuşdur. Xurşidbanu Natəvandan başlayaraq Mirvarid Dilbaziyə, Məhsəti Gəncəvidən müasir dövrün tanınmış qələm sahiblərinə qədər uzanan bu zəngin xəttin davamçılarından biri kimi Aləmzər Sadıqqızı da öz yaradıcılığı ilə diqqəti cəlb edir. O, qadın ruhunun ağrılarını, sevgisini, sədaqətini, dözümünü və mənəvi gücünü poetik dillə ifadə etməyi bacaran sənətkarlardandır. Aləmzər Sadıqqızının poeziyasında ən çox rast gəlinən mövzulardan biri sevgidir. Lakin onun sevgi şeirləri adi məhəbbət etirafları deyil. Bu şeirlərdə sevginin müxtəlif çalarları, həsrət, ayrılıq, sədaqət, gözlənti, qürur və nisgil öz əksini tapır. Şairə sevgini insan ruhunun saflaşdırıcı qüvvəsi kimi təqdim edir. Onun misralarında sevgi bəzən sevinc, bəzən ağrı, bəzən də ömür boyu daşınan bir xatirə kimi görünür. Bu duyğulu və təsirli şeirdə müəllif həyatın ağır sınaqları qarşısında insanın mənəvi dözümünü, ümidini və Yaradana olan səmimi bağlılığını poetik dillə ifadə edir. "Açıl ey sabahım" şeiri qaranlıq gecələrdən işıqlı sabahlara çıxmaq istəyən bir qəlbin harayıdır. Şairə ağrıların, yorğunluğun və həyat yükünün altında belə ümid işığını itirmir, sabahın doğacağına inanır. Şeirin misralarında həm insan zəifliyi, həm də ilahi mərhəmətə sonsuz inam hiss olunur. Bu baxımdan şeir mənəvi gücün, səbrin və təvəkkülün poetik təcəssümü kimi oxucuya dərin təsir bağışlayır.

***Gözümdən sürüşən yuxularımı,***
***Kirpiyim yorulub saxlaya bilmir.***
***Ürəyim heyrətdən ağrımır daha,***
***Nə də ki, gözlərim ağlaya bilmir...***

Bu bənddə şairənin yaşadığı mənəvi yorğunluq və daxili sarsıntı incə poetik çalarlarla ifadə olunur. Gözlərdən sürüşən yuxular rahatlığın və dincliyin itirildiyini göstərir. Kirpiklərin belə yorulması ağrının və yükün nə



qədər ağır olduğunu hiss etdirir. Son iki misrada isə insanın elə bir həddə çatdığı təsvir olunur ki, artıq nə heyrət onu ağrıdır, nə də göz yaşları dərdin yükünü azalda bilir. Bənd ümumilikdə dərin ruh yorğunluğunu, tənhalığı və həyatın ağır sınaqları qarşısında insanın hiss etdiyi mənəvi boşluğu təsirli şəkildə əks etdirir. Aləmzər Sadıqqızının yaradıcılığında diqqəti çəkən digər mühüm cəhət həsrət motividir. Bu həsrət yalnız sevgiliyə deyil, keçmişə, uşaqlıq illərinə, valideynlərə, doğma yurda və itirilmiş günlərə duyulan həsrətdir. Aləmzər Sadıqqızının şeirlərində zamanın insan həyatına vurduğu izlər aydın hiss olunur. O, keçmişi xatırlayarkən sentimental duyğulara qapılmır, əksinə, həyatın fəlsəfi mahiyyətini açmağa çalışır. Sevgi insanı var edən, dünyaya bağlayan ən ülvi duyğudur. Lakin elə bir an gəlir ki, sevginin yoxluğu sadəcə bir insanı deyil, bütöv bir kainatı mənasızlaşdırır. Aləmzər Sadıqqızının "Unutdum sevməyi də..." şeiri məhz belə bir mütləq itkinin, daxili qürbətin carçısıdır. Müəllif burada sıradan bir ayrılığı deyil, ruhun bütövlükdə dünyadan əl-ətək çəkməsini təsvir edir. Şeirin elə ilk sətirlərindən görünür ki, lirik qəhrəman üçün "sən" anlayışı bütöv bir dünya ilə bərabər tutulub.

O getdikdə, arxasında qalan boşluq elə böyük olub ki, bura nə baharın ətri, nə günəşin istisi, nə də adamların varlığı sığışa bilib. Bu şeir, sevgisiz qalan insanın özünü bütövlükdə unutdurmaq, hisslərini dondurmaq cəhdidir. "Sən qarışıq" hər şeyi unutmaq istəyi, əslində xatirələrin çəkisindən xilas olmaq fəryadıdır.

***Gözlər sevgidən gülər...***
***Ürək sevgidən dinər...***
***həyat nəğmələrini sevgi dilində söylər...***
***Arılar çiçəklərə , çiçəklər böcəklərə...***
***Küləklər ağaclara, ağaclar yarpaqlara..***
***Qaranquşlar bahara, həyat yaşayanlara...***
***Məhəbbətdən, sevgidən minbir nağıl danışar...***
***Sən olmayan dünyanı sevməyi bacarmadım...***
***Unutdum sevməyi də...unutdum sən qarışıq...***

Şeirin beşinci bəndi həm ideya, həm də emosional kulminasiya nöqtəsidir.

Müəllif burada makro və mikro aləmin, təbiətin, canlıların bütöv bir harmoniyasını yaradır. Arıların çiçəklərlə, küləyin ağaclarla, qaranquşun baharla münasibəti əslində kainatın özünün "sevgi dili" ilə danışdığının sübutudur. Şairə incə bir rəngarəngliklə göstərir ki, həyat hər hüceyrəsi ilə sevgidən ibarətdir. Lakin bu canlı, dinamik və sevgi dolu tablonun qarşısında lirik qəhrəmanın dramı daha da qabarıq nəzərə çarpır. Kainat minbir dildə məhəbbət nağılı danışsa da, qəhrəmanın dünyası sükuta qərq olub. Çünki bu böyük harmoniyanın içində onun yeganə dayığı, "O" yoxdur. Son iki sətirdəki "Sən olmayan dünyanı sevməyi bacarmadım... Unutdum sevməyi də... unutdum sən qarışıq..." etirafı, insanın daxili aləminin xarici aləmdən daha böyük və həlledici olduğunu göstərir. Əgər daxildəki günəş sönübsə, xaricdəki bahar sadəcə bir illüziyadır. Şeir, sevgini unuda bilmək üçün bütöv bir kainatı yaddaşdan silməyə hazır olan aşiqin poetik monumentidir. Aləmzər Sadıqqızının yaradıcılığında ana mövzusu da xüsusi yer tutur. Azərbaycan qadınının mənəvi dünyasını dərindən duyan şairə ana obrazını müqəddəslik zirvəsində təqdim edir.

Onun ana haqqında yazdığı şeirlərdə böyük ehtiram, sevgi və mənəvi bağlılıq hiss olunur. Bu şeirlər oxucuya yalnız bir insanın anasına olan sevgisini deyil, ümumilikdə ana məfhumunun ucalığını çatdırır.Şairənin "BİR QADIN AĞLAYIR ÜZÜ PAYIZA" şeirində payızın hüznlü çalarları ilə insan qəlbindəki ağrıların qovuşduğu bu təsirli şeir oxucunu dərin duyğular aləminə aparır. Şeirdə ata və ana həsrəti, tənhalıq, nisgil və ömür yükü bir qadının taleyi üzərindən poetik şəkildə ifadə olunur. Müəllif kədərin ən incə çalarlarını səmimi və təsirli obrazlarla təqdim edir.

***Dəfn edib analı sevinclərini,***
***Əlləri qoynunda boynu bükülür.***
***Bir ata məzarı qalıb uzaqda,***
***Bir dəli həsrətin qoynu sökülür.***
***Bir qadın ağlayır üzü payıza....***

Bu bənddə şairə qadının yaşadığı dərin mənəvi sarsıntıları təsvir edir. "Dəfn edib analı sevinclərini" misrası ananın yoxluğunun yaratdığı böyük boşluğu və itirilmiş xoşbəxt günləri ifadə edir.

"Əlləri qoynunda boynu bükülür" obrazı ümidsizliyin, qəm-qüssənin və çarəsizliyin canlı təsviridir. "Bir ata məzarı qalıb uzaqda" misrası isə valideyn həsrətinin ikiqat ağrısını göstərir. "Bir dəli həsrətin qoynu sökülür" ifadəsində həsrət insanın daxilini parçalayan, sakitləşməyən bir duyğu kimi təqdim olunur.

Bəndin sonunda təkrarlanan "Bir qadın ağlayır üzü payıza" misrası qadının kədərini payız fəslinin hüznü ilə birləşdirərək şeirin əsas emosional yükünü daha da gücləndirir. Bu bənd bütövlükdə valideyn itkisi, tənhalıq və həsrətin insan ruhunda yaratdığı ağrıları təsirli şəkildə əks etdirir. Aləmzər Sadıqqızının poeziyası həm də qadın taleyinin poetik salnaməsi kimi diqqəti cəlb edir. O, qadının sevincini də, kədərini də, mübarizəsini də, tənhalığını da böyük həssaslıqla qələmə alır. Şairənin qadın mövzusunda yazdığı misralarda süni pafos yoxdur. Hər misrada yaşanmış həyatın izi, duyulmuş hisslərin nəfəsi duyulur. Buna görə də onun şeirləri xüsusilə qadın oxucular tərəfindən rəğbətlə qarşılanır. Poeziya insan ruhunun ən gizli, ən ağrılı künclərinə işıq tutan bir aynadır. Bəzi şeirlər var ki, ilk misrasından etibarən oxucunu daxili bir sükuta, dərin bir kədərə qərq edir. 2019-cu ildə qələmə alınmış "Min ildə bir qarış yol gedən qadın..." şeiri də məhz belə şeirlərdəndir. Bu şeir sadəcə bir qadının taleyindən bəhs etmir, o, cəmiyyətin, tənhalığın və daxili fırtınaların fonunda əriyən, hər gün yenidən doğulub hər gecə öz daxilində ölən fədakar və məğrur bir ruhun simfoniyasıdır. Müəllif burada zamanın bətnində sıxılıb qalan, ümidlə ümidsizlik arasında vurnuxan qadın obrazının bədii portretini ustadlıqla yaradıb.

***Nə nağıl tükənər, nə ömür bitər,***
***Bir tikə ümidə şükr edən qadın...***
***Min ildir yolları tənha yüyürən,***
***Min ildə bir qarış yol gedən qadın.***

**"Min ildə bir qarış yol gedən qadın..." şeiri dərin psixoloji qatları və metaforik zənginliyi ilə diqqəti cəlb edir. Şeirin strukturunda ziddiyyətlərin və daxili çəkişmələrin harmoniyası bədii təsir gücünü artırır. Şeirdəki zaman anlayışı real zamandan tamamilə qopmuşdur. Qadın "min ildir" tənha yüyürür, lakin getdiyi məsafə "bir qarış"dır. Bu paradoks, qadının çəkdiyi əzabların, daxili monotonluğun və çıxılmazlığın göstəricisidir.**

**(ardı var)**

**Ümumiyyətlə, zəhmətlə əldə olunun hər bir uğur insanın zəhmətkeşliyinin ilkin göstəricisidir. Təbii ki, zəhmətkeşlik də hər kəsin bacardığı iş deyil. Azərbaycanın əmək tarixində silinməz iz qoyan simalardan biri də Sevil Qazıyevadır. Zaqatalada dünyaya göz açan gənc qız qısa müddətdə təkcə Azərbaycanın deyil, bütün SSRİ-nin tanıdığı əmək qəhrəmanına çevrilsə də, onun həyatı gözlənilməz facie ilə yarımçıq qalır...**

O, 1940-cı ildə Zaqatala rayonunda anadan olub. Kiçik yaşlarından həkim olmağı arzulayırdı. Lakin fələyin çarxı bir başqa istiqamətdə dövr edir. Belə ki, ali məktəbə qəbul ola bilmədikdən sonra həyatını tamamilə fərqli sahəyə həsr etdi. Bakıda təhsil aldığı illərdə mexanizator peşəsinə maraq göstərən Sevil sonradan kənd təsərrüfatında çalışan ilk qadınlardan biri kimi adını tarixə yazdırdı.

Gənc və zərif qızın seçdiyi peşə heç də asan iş deyildi. Digər peşələrdən daha çox məsuliyyət tələb edirdi. 1950-ci illərin sonu, 1960-cı illərin əvvəllərində kənd təsərrüfatı texnikasının idarə olunması əsasən kişilərin işi hesab olunur-

# Taleyi saçlarına dolaşan qadın



du. Lakin Zaqataladan çıxan gənc qız bu stereotipi dağıtmağa qərar verdi. O, digər rəfiqələri ilə birlikdə pambıqyığan maşınların idarə olunmasını öyrəndi. Gənc Sevilin bu addımı bir çox gənc qızların bu sahəyə yönəlməsinə səbəb oldu. Sonradan yüzlərlə qızın qoşulduğu "Qızlar, sükan arxasına!" təşəbbüsünün simalarından birinə çevrildi. Zaqatala kimi bir Şimal bölgəsinin təbiətində böyüyən bir qızın yolunu tale başqa iqlimli məkandan salır. Belə ki, o, təyinatla Mil düzünə göndərilir. Orada qısa müddətdə rekord göstəriciləri ilə diqqət çəkməyə başlayır. Onun əldə etdiyi nəticələr SSRİ rəhbərliyinin də diqqətini çəkir. Gənc mexanizator müxtəlif ittifaq tədbirlərinə dəvət olunur, çıxışlar edir və əmək uğurları ilə qəzetlərin manşetlərinə çıxırır. Artıq hər kəs Sevil Qazıyeva adlı bir zəhmətkeşin varlığından xəbərdar idi

Bir neçə il ərzində sadə kənd qızından ölkə miqyasında tanınan şəxsə çevrilən Sevil Qazıyeva Azərbaycan Ali Sovetinə deputat seçilir. O dövrdə bu, xüsusilə kənd təsərrüfatı sahəsində çalışan gənc qadın üçün böyük uğur hesab olunurdu.

Lakin hər şey heç də uğurlu sonluqla nəticələnmir. Şöhrətin zirvəsində olan Sevilin taleyi faciəvi şəkildə dəyişir

Hardan bilə bilərdi ki, sevə- sevə can atdığı peşəsi onun həyatının sonu olacaq. Bütün uğurlarını qazandığı peşəsinə, təəssüf ki, bu dəfə həyatını qurban verdi.

1963-cü ildə pambıq yığımında istifadə olunan texnikada işləyərkən onun uzun hörükləri maşının hərəkətli hissələrinə dolaşır. Həmin an ağır xəsarətlər alan gənc qadını xilas etmək mümkün olmur. Çox gənc çağında- 23 yaşında həyatını itirən Sevil Qazıyevanın ölümü bütün respublikanı dərin kədərə qərq edir...

**Ölümündən sonra ona Sosialist Əməyi Qəhrəmanı adı verilir. Yaşadığı ev muzeyə çevrilir. Doğulduğu Zaqatal rayonunda adı əbədiləşdirilir. Adı məktəblərə, küçələrə və müxtəlif müəssisələrə verilir.**

**Əntiqə Kərimzadə**

## *Ebola virusu Konqoda sürətlə yayılır*



**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Konqo Demokratik Respublikasının şimal-şərqində Ebola virusunun yayılmasının davam etməsi ilə bağlı ciddi narahatlığını bildirib. Son məlumatlara görə, təsdiqlənmiş yoluxma hallarının sayı 710-a, ölənlərin sayı isə ən azı 149-a çatıb. Adalet.az İsveçin "Expressen" nəşrinə istinadla xəbər verir ki, son 24 saat ərzində daha 21 yeni yoluxma halı aşkarlanıb.**

Xəstəxanalarda və təcridxanalarda yüzlərlə xəstə var, mütəxəssislər hesab edirlər ki, yoluxma və ölüm hallarının faktiki sayı rəsmi rəqəmlərdən xeyli çox ola bilər. Yoluxma hallarının artması ilə mübarizə aparmaq üçün ÜST və ölkə hakimiyyəti təxminən 550 milyon dollara başa gələn genişmiqyaslı proqrama başlayıb. Əsas məqsəd infeksiyanın yayılmasının qarşısını almaq, yeni yoluxma hallarını müəyyən etmək və əhalini qorumaqdır.

Yoluxma hallarının 93 faizi İturi əyalətində qeydə alınıb, lakin virus Şimali və Cənubi Kivu da daxil olmaqla digər bölgələrə yayılmağa davam edir. Qonşu Uqandada da yoluxma halları qeydə alınıb, burada 19 yoluxma və iki ölüm hadisəsi təsdiqlənib.

# SÖZÜN İŞIĞINDA

**Kiçik yaşlarında atasını itirdi. Anası və əmisinin himayəsində böyüdü. O çətin və ağır günlərində Tapdıqın ana nənəsi Xurma ana ona çox dayaq oldu. Bir də o vaxtlardan misra-misra dilə gətirdiyi söz əlindən yapışdı və həmişə ona sirdaş oldu. Bir kimsənin qəlbinə sözü dəyəndə ruhunda alışdı, söz piçıltıları eşidildi.**

Tapdıq həm də mənim uşaqlıq dostumdur. Biz eyni məktəblərdə təhsil almışıq. O, məndən bir sinif yuxarıda oxuyurdu. İstər Bürzünbül kənd səkkizillik, istərsə də Hamarkənd kənd orta məktəbində oxuduğumuz illərdə Tapdıq həmişə başqalarından seçilirdi və çoxları ona həsəd aparırdı. O uzaq illərdə Tapdıqın müntəzəm olaraq məktəbin divar qəzetlərində, rayon qəzetində məqalələri və şeirləri çap olunurdu. Məktəb tədbirlərində həmişə fəal iştirak edirdi.

Məktəb divar qəzetindən başlayan yaradıcılığı Tapdıqı bir şair kimi yetişdirməyə başladı. Bürzümbül kənd 8 illik məktəbindən başlayıb, Hamarkənd orta məktəbində başa çatan təhsil illəri üzü sonradan Bakıya üz tutdu.



***İçimdə büdrəyəndə,***
***Əlimdən yapışdı söz.***
***Qəlbimə söz dəyəndə***
***Ruhumda alışdı söz.***

Söz dünyasından süzülüb gələn bu misraları deməmək mümkün deyil. Əslində uşaqlıq dostum Tapdıq oxuduğumuz məktəb illərində poeziyanın söz qapısını açdı, tanınmağa başladı. Sakit təbiətli, dərslərində çalışqan və özünə məxsus istedadı ilə seçilən Tapdıq orta məktəbi də seçimlə qurtardı.

Ruhuna hopan, qələmindən damcılanan poetik misralar, ədəbi yaradıcılıq dünyası onu keçmiş ittifaq dönəmində çox tanınan ali məktəblərdən biri olan Lenin adına Pedaqoji İnstitutunun (hazırda Tusi adına Pedaqoji Universitet) filologiya fakültəsinə gətirdi, əla təhsil aldı.

Ali məktəb illərindən sonra Tapdıqın ədəbi mühitdə birbirindən uğurlu yaradıcılıq dünyası başladı. Onun, şeirləri duaya çevirməsi yaradıcılığından qırmızı bir xətt kimi keçir. Biz yalnız qiymətli nemət olan çörəyi öpüb gözümüzün üstünə qoyuruq, müqəddəsləşdiririk. Qələm dostum isə sözləri öpüb gözlərinin üstünə qoyur. Əslində söz müqəddəs kəlamdır.

Allah əvvəlcə qələmi yaratdı, sonra ona əmr etdi, yaz insan. Tapdıq bu seçimində sözün Tanrı nişanəsi olmasını vurğulayır. Onun şeir dünyasının söz çələngi əlvan və rəngarəngdir. Hansı şeirinə üz tutsan düzünü söyləyir, düzündə qalır.

Tapdıqın heç bir yüksək titulu, fəxri adları yoxdur. Onun fəxri adları bütöv Azərbaycan dünyasının qəlb çırpıntıları, onların narahatlığıdır.

Özünün dediyi kimi:

***Şairlər dünyanın söz divanəsi,***
***”Divanı” üstündə qurulur divan.***
***Dərisi soyulub, ancaq haqq səsi***
***Susmayıb, ucalıb susmaz heç zaman.***

Tapdıqın yaradıcılıq dünyasının hansı üzünə üz tutsan, misralar səni düşündürür, qəlbinə, beyninə rahatlıq verir. Bütövlükdə onun ədəbi dünyasında bir çox dəyərli fikirləri tapıb kəşf etdik. Özünün ismində olduğu kimi Tapdıqı nə yaxşı ki, poeziya aləmində tapdıq.

Bu gün Azərbaycan ədəbiyyatında bir şair və publisist kimi Tapdıqın özünəməxsus yeri vardır. Ötən illər ərzində onun çoxsaylı kitabları çap olunub. Tapdıq həm də uzun illərdir ki, uğurla qəzetçilik fəaliyyəti ilə məşğul olmuşdur.

Yaxınlarda Tapdıq Əlibəylinin 65 yaşı tamam olacaq. Bu münasibətlə köhnə qələm dostumu bağrıma basır və onu səmimi qəlbdən təbrik edirəm. Ona yeni-yeni yaradıcılıq uğurları diləyirəm.

**... Ötən əsrin 70-ci illərinin sonunda o uzaq Yardımlının ucqar bir dağ kəndindən böyük və sonsuz arzularla yollara çıxan Tapdıq nə yaxşı ki, çox qısa bir zamanda öz xöşbəxt ünvanını tapdı. Həmişə ünvanlı və xoşbəxt olasan, qardaşım.**

**Böyük hörmətlə:**
**köhnə dostun**
**Sabir Abdin**



# Şeirləri oxucunun könül dünyasının səyyarəsidi

**Hüseyn Arifin ”Şeir deyilmi?” şeirini mən də sevgilərlə oxumuşam, bu sevgilərlə də yadda-şımda qalıb. Görünənlər hamı üçün eyni olsa da hamı onu eyni cür görmür. Şeir bu müxtəlifikdən yaranır. Onda şeirə həm də duyumun poetikası deyə bilərik. Şairlər görünənləri şeirləşdirir, hamı üçün eyniləşdirir. Şeir hamının ruhunun həmsöhbəti olur.**

Oqtay Zəngilanlının yaradıcılığı çoxşaxəlidir. Jurnalistika, tarixi-etnoqrafik araşdırmalar, poeziya. Hər birində yaradıcılıq uğurları qazanmış Oqtay Zəngilanlı üçün söz müqəddəsliyi var. Sözü səmimiyyətlə mətləbləşdirən, mətləbini müxtəlif ədəbi müstəvilərdə təqdim etməyi bacaran Oqtay Zəngilanlının səmimi yaradıcılığı böyük sədaqətə və vətənpərvərliyə söykənir.

Səmimi sevgi böyük vətənpərvərliyin işığıdı. ”Dağlar üz döndərib məndən, ”Bir tənhalıq axtarıram”, ”Çəkir öz dərdini özündə dünya”, ”İç dünyama səyahət” kitabları kimi ”Zəngilan: tarixi, coğrafiyası, iqtisadiyyatı”, ”Mincivan: sirlisoraqlı dünyamız” kitabları da poetik duyumla yazılıb, belə də oxunur. ”Dünyanın ən böyük çinar meşəsi” əsəri tarixi xatırlatmadı, bu xatırlatma böyük vətənpərvərliyin sözlə ifadəsidi; dəyərin əsəri həmişə dəyərli olub. Elmi əsəri üçün mövzu olan çinar meşəsi Oqtay Zəngilanlının poeziyasında da eyni sevgilərlə (və Zəngilana sədaqətlə!) öz layiqli ifadəsini tapır:

***Yaşıl yarpaqları varaqlayaraq,***
***Yayır hər tərəfə incə bir səsi.***
***Xəfifcə meh ilə sığallanacaq,***
***Bir nəğmə bəxş edir çinar meşəsi.***

Şeir gözəlliyin vəsfi deyil, gözəlliyin sözlə rəsmidir. Oqtay Zəngilanlının bədii təfəkkürü ilə bu təqdim tarixə sözlə (şeirlə) şair salamıdır...

”Haqsızlığın qara rəngi hopur tarix yaddaşına”, ona görə də ”ən böyük vətəndaşlıq yurd (Vətən -B.M.) sevgisi ilə yaşamaqdı”, ”ən böyük hünər xalqın oğlu olmaqdı”.

Oqtay Zəngilanlı bu gözəl fikirləri gözəl poetik dərklə təqdim edib və bunlar onun vətənpərlərlik şeirlərinin epiqrafı kimi qəbul edilə bilər.

Oqtay Zəngilanlı Zəngilana xitabən (bəlkə də bütün zəngilanlıların adından) deyir ki,

***Əl uzatdım dönə-dönə***
***Əlim sənə çata bilmir.***

”Arazı oğluna-qızına hicran çayı bilən” Oqtay Zəngilanlının şeirlərinin əksəriyyətində Vətən kəlməsi işğal olunmuş Zəngilanı ifadə edirdi - bu işğal vətəndaş Oqtay Zəngilanlının heysiyyətini titrətdiyinə görə şair Oqtay Zəngilanlının sözünü (poeziyasını) mübarizləşdirirdi.

Torpağın işğaldan qurtuluşu niyyətinə sarılan həmin şeirlər, obrazlı şəkildə desək, zamanında əsgərləşmişdi. ”Baba ocağında köz itirən” Oqtay Zəngilanlının dərdi fərdi dərd olmayıb, bəşəri dərd olub, bu dərd Zəngilansızlıq dərdi idi.

”Yurd-yuvama qayıdacam”, ”Zəngilanda gəz məni”, ”Vaxtıdır”, ”Qılıncım yuyacaq günahlarımı”, ... kimi şeirlərin zəmanəti ilə deyə bilərəm ki, Oqtay Zəngilanlı bu dərdin şairidi. Bu dərd ağlar, nalan dərd deyil, mübariz dərd olub. Bu dərdin kölgəsində qalmağı özünə də, Zəngilanı sevən Zəngilanlılara da haram bilib.

***Yüz sarayda dərrakəmlə dürr seçəm,***
***Qəribliyin karvanında bir köçəm,***
***Ümid umur sabahımdan hər gecəm,***
***Alamırıam torpağımın qoxusun.***

**(”Alammıram torpağımın qoxusun”)**

Oqtay Zəngilanlının Vətənə sevgisi də, Vətən həsrəti də özünəməxsusdu. ”Verməmişəm Vətənimə borcumu” deyən şair üçün bir yaşam düsturu var: Vətən, Vətəndə yaşamaq səadəti. Bu düstur vətənpərvərlik fəlsəfəsidi.

Zaman-zaman bu fəlsəfə öz ifadəsini klassik Azərbaycan poezi-yasında da tapıb.

Oqtay Zəngilanlı yazır ki,

***Haray çəkən Zəngilanam, Ocaq Çinar ağacıyam,***
***Füzuliyəm, Cəbrayılam, Diri dağın ağ saçıyam,***
***Özgə dərdim yoxdu mənim, Qarabağın möhtacıyam,***
***Unutsam da hər bir dərdi, unudulmur Vətən dərdi.***

**(”Unudulmur Vətən dərdi”)**



Əksər istedadlı şairlərimizin yaradıcılığında poeziyamızın dünənlərinə sevgi də var, rəğbət də, sədaqət də. İstər mövzu yaxınlığı, istər bu mövzulara şair (vətəndaş) münasibətinin tarazlığı, istərsə də mövzuların poetikası arasında sələf-xələf doğmalığı XX əsrin sonlarında ədəbi prosesi şərtləndirən amillərdən olub.

Bu amil Oqtay Zəngilanlının yaradıcılığında da hiss olunur. Bəxtiyar Vahabzadə yazmışdı:

***Füzuli qürbətdən Vətənə baxırdı,***
***Mən isə Vətəndən Vətənə baxıram.***

Bu ağrılı məqamı Oqtay Zəngilanlı başqa bir çalarla təqdim edib. Oxucu bu təqdimin müha-ribə ovqatını yaşayır, tarixi Zəfərdən sonra işğalın təəssüfü kimi yaşadıqlarını Azərbaycan Ordu-suna qürur kimi yaşayır:

***Həsrətlə Vətəndən Vətənə baxan***
***Didərgin ömürlü bir şair gördüm...***

Didərgin ifadəsi qaçqın anlamındadır və misranın mahiyyəti qaçqın ömürlərə şair heysiyyə-tidir. Onun ”O tay Vətən, bu tay Vətən deyilmi?” şeiri də bu ağrıların (həm də poetik ağrıların) ifadəsidi...

***Artır Vətənimin şöhrəti-şanı,***
***Vətənə bağlıdır xalqımın canı,***
***Tanıyır dünyamız Azərbaycanı... -***

**(”Qələbə sevinci ver bizə, Allah”)**

deyən Oqtay Zəngilanlının poeziyası inamın poeziyasıdı, bu inam dövlətçiliyə sədaqətdən yaranan inamdı, Ordunun qüdrətinə inamın poeziyasıdı. ”Hər zülmət gecənin olur gündüzü” (”Qələbə sevinci ver bizə, Allah”), və yaxud ”Hər zülmət gecədən bir gündüz doğar” (”Göz yaşlarım var”), ”Həsrətli Cıdır düzü, Deyir ”Cəngi çal bu gün” (”Deyir ”Cəngi çal bu gün”) kimi misralar işğal dövründə işğaldan qurtuluş uvertürasının zərrələrindən olub...

Oqtay Zəngilanlının qəzəllərinin mövzusu mövzu baxımından da xarakterikdir, əruzun tə-ləbləri bxımından da, poetik yükü ilə də. Vətəndən yazılan qəzəllər də düşündürücüdü, səmimidi, sevgidən yazılan qəzəllər də, Azərbaycan poeziyasının qədimlərinə, keçmişinə sevgi də.

”Fizuli nişanəsi var”, ”Könlümü qan eyləmisən”, ”Sızlayır səsim gecələr”, ”Segah”, ...bu qəbildəndir.

***Oqtay, söz mülkünə gir, ara söz sultanlarını,***
***Söz mülkünün sultanı, Füzuli şahanəsi var.***

Qürur sevgidi, sevgi sədaqətdi, sədaqət tarix. Qəzəl bu baxımdan tarixə, tarixi şəxsiyyətə, bəşəri poeziyanın Füzulisinə böyük ehtiramdı.

Oqtay Zəngilanlı da şeirlərini min illik Azərbaycan poeziyasının işığında yazır, həm sözə, həm dünyəvi söz sərraflarına, həm də bəşəri poeziyanın yaradıcılarına sonsuz sədaqətə görə. Böyük Nizami necə deyirdi? -

***Eşqdir mehrabı uca göylərin,***
***Eşqsiz, ey dünya, nədir dəyərin?***

Eşq, sevgi, məhəbbət, istək həmişə dünyəvi şeirin mövzusu olub. Tarixi sevgilərə də əsərlər həsr olunub, təxəyyülün yaratdığı sevgilərə də. Hamısında sevgi də olub, həsrət də. Hərdən sevgi də tərənnüm edilib, həsrət də. Oqtay Zəngilanlının yaradıcılığında da belə şeirlər var.

Bu şeirlər də duyğuların poetikası kimi təqdim edilib, belə oxunur:

***Eşqin edib məni kölə,***
***Yandır, yanım dönüm külə,***
***Al camımı gülə-gülə,***
***Qəmli baxma gözlərimə.***

**”Qəmli baxma gözlərimə”)**

Şeir sanki ruhun təvəqəsidi, ricasıdı. Ona görə də bədii ”mən” deyir ki, ”Şirin xatirə, acı göz yaşı” olduğu üçün ”Sənsizli günlərim özümün deyil”. ”Gözlərimin qarasında” şeirində bədii təşbeh bədii ”mən”in ritorikadan uzaq (və gerçəkliyi ifadə edən!) müraciətinin poetikasıdır:

***Sənsizliyi səsləmişəm***
***Tənhalığın səhrasında.***

Bu, sevginin qüdrətidir ki, səssizlik də harayları eşidə bilir, həm də kimsənin olmadığı yer-də, tənhalıq səhrasında! Bu, şair Oqtay Zəngilanlının poetik uğurlarındandır...

Oqtay Zəngilanlının ”Zəfər marşı” Vətənə sevginin söz abidəsidir...

Böyük Nizaminin 880 illiyinə həsr etdiyi əsərini Oqtay Zəngilanlının yaradıcılığının ağ işığı adlandırmaq olar. Oqtay Zəngilanlı bu əsərində dövrün poetik formasını saxlamaqla sözlə Nizaminin şeiriyyət dünyasının xəritəsini çəkib.

Oqtay Zəngilanlı Vətəni də, vətəndaşlığı da, vətəndaşların duyğularını da şeirləşdirməyi bacaran şairlərimizdəndir. Onun şeirlərini oxucusu könül dünyasının səyyarəsi bilir; Oqtay Zəngilanlı oxucularının könlünü şeir-şeir fəth edib...

**Bayram MƏMMƏDOV,**
**Əməkdar müəllim**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# ÇİNAR ÖMRÜ

**"Qədim Gəncədə - bu dahilər və çinarlar şəhərində bir yazıçı yaşayır. O torpaqda boz toxumun, çəlimsiz çiliyin, cansız tingin əlindən torpağa düşən kimi yaşıl fəvvarəyə çevrildiyi kimə məlum deyil? O yazıçı bu il iyunun 21 də ömrünün 90-cı zirvəsinə yüksələcəydi. Cəmi bir neçə ay qalmışdı... Amma ömür vəfa etmədi.**

Və əgər torpağın, ağacın, axar suyun insana bənzədiyini qəbul eləsək, Gəncənin göylərə baş alan hansısa bir çinarının Qərib Mehdiyə oxşarlığını görərik. Ömrü boyu öz əlinin-qələminin zəhməti ilə yaşamış, Gəncədən çox-çox uzaqlarda tanınmış Qərib Mehdi yaradıcılığı ilə o çinarlar arasında bir qəribə oxşarlığı hələ neçə il əvvəl sezə bilmişəm.

Qərib Mehdi 75 ildir bu ədəbiyyatın cəfakeşi olub. Yazdıqları göz qabağındadır: lirik və satirik hekayələr, mənsur şeirlər, povestlər, publisistik məqalələr... Bəlkə yaza bilmədikləri yazdıqlarından artıqdı. Qəribin bu dünyada heç bir vəzifəsi olmayıb.

Təhsili belədir ki, 19 yaşında Gəncədə fəhlə-gənclər axşam məktəbini, 35 yaşında Gəncə Dövlət Pedoqoci institutunun ibtidai təhsil pedoqogikası və metodikası fakültəsini bitirib. Əmək fəaliyyətinə poçtalyonluqla başlayıb, sonralar teatrda aktyor, dəmir-beton məmulatı zavodunda bənna, suvaqçı, betonçu, armaturçu, qaynaqçı işləyib. İnstitutu bitirəndən sonra Qərib 5-6 il orta məktəbdə müəllim də işləyib.

Və nəhayət, 1971-ci ildə Gəncə Pedoqoji institutunda çoxtirajlı "Yüksəliş" qəzetinin redaktoru olub, bir xeyli müddət də Gəncə Alimlər evi nəzdində "İlham" ədəbi birliyinə rəhbərlik edib. Bu ədəbi birlikdə sonralar Azərbaycan ədəbiyyatında öz dəst-xətti olan Aydın Murovdağlı, Qəşəm Nəcəfzadə, Elçin İsgəndərzadə, Sərvaz Əsgərli, Sahib İnrahimli, İradə Aytel kimi yazarlar yetişib. Bir sözlə, Qərib Mehdiyə bir neçə mənada "zəhmətkeş yazıçı" titulunu bəxş eləmək olar. (hər halda bu ifadəni xoşlamasam da).

Qərib müəllim böyük bir ailə sahibidi, oğul-uşaq sarıdan özünə əziyyət verməyib (hamısını da yerləşdirib, ata kimi hamı ona həsəd çəkə bilər) və Qərib müəllim o boyda ailəni maaşı və qonorarı ilə dolandırıb. Qırx dörd il əvvəl Qərib müəllimin Gəncədəki o kasıb evində qonaq olanda Çexovun bu sözlərini xatırlayırdım: "Ədəbiyyatçı olmaq- rahatlıq bilməmək, dadlı yeməklərdən məhrum olmaq, həmişə qonorar gözləmək və heç bir zaman cibdə bir quruş belə pul görməmək deməkdir. Həqiqətən də çətin, əzablı, tikanlı bir yoldur". Qərib müəllim bu əzablı, tikanlı yolu keçib və əsil ata, ailə başçısı vəzifəsini şərəflə yerinə yetirib. 1967-ci ildə, "İşıq" adlı ilk kitabından üzü bu illərə qədər otuzdan artıq kitabı çıxıb.

O kitabın çap olunmasında böyük ədib Mir Cəlal müəllimin xidməti olub. Mir Cəlal müəllim "Gənclik" nəşriyyatın direktoru Əzizə Əhmədovadan xahiş edib ki, mənim sizin nəşriyyatda çap olunacaq kitabımdan iki çap vərəqi Qərib Mehdinin kitabına ayırın.

Həmişə onu düşünəndə vaxtilə anasına həsr etdiyi "Qərib hey" hekayəsindəki o harayı xatırlayıram. "Bəzən bir könül sındırmaq istəyirəm, bəzən birisinə yuxarıdan baxmaq istəyirəm; bəzən birisinin vəzifəsində gözüm olur, ona quyu qazmaq istəyirəm, anamın səsi gəlir; "Qərib hey!. Bəzən paxıllıq hissi qəlbimi didir, dostlarımın, yoldaşlarımın, yüksəlişinə, şöhrətinə darılıram, bəzən haqqı nahaqqın pəncəsinə vermək istəyirəm, anamın səsi gəlir: "Qərib hey!" Bu ana nəsihəti Qəribin bütün həyat yoluna işıq saçdı və Qərib o mənəvi təmizliyi əsərlərində də obrazlarının həyat tərzinə "köçürə" bildi. Burada bir haşiyə çıxmaq istəyirəm. Mir Cəlal Paşayev Qərib Mehdiyevin "Qərib hey!.." hekayəsini oxumuş və o əsəri "kövrək hisslərin poetikası" adlandırmışdı.

Qərib Mehdi bütün ömrü boyu həqiqəti, həyatda gördüklərini qələmə alıb, yalan danışmayıb. Bu həqiqət hissi onun bədii təxəyyülünə də təsirsiz qalmayıb. Onlarla obrazları həyatdan, gerçəklikdən yaranan obrazlardır. Amma Qərib bu obrazları elə ümumiləşdirib ki, burada ancaq yazıçı məharətinin şahidi olursan.

Qərib Mehdinin 70-ci illərdə yazdığı "Rast" povesti onu bir yazıçı kimi ədəbi ictimaiyyətə, oxuculara tanıtdı və "Rast"ın ayağı sayalı imiş. O povest Qəribin bütün sonrakı ədəbi uğurları üçün bir başlanğıca çevrildi.

Qərib "Rast" yolunu tutub lirik nəsrin maraqlı nümunələrini yaratdı. Rast-doğru, düz deməkdir, həm də ən qədim, əsrlər keçdikcə təhrifə uğramayan muğamımızın adıdır. Qəribin bu povestdə təsvir etdiyi hadisələr də uydurulmamışdı, həyatın özündən gəlirdi. Əsərdə iki insanın - cəmiyyətdəki hər dəyişikliyə uyğun sifətini, xarakterini dəyişən Ağabəyli ilə istedadlı bir musiqiçinin - Cəmilin mübarizəsini əks etdirir. Cəmilin əzablı həyat yolu bütün dramatik məqamları ilə gözlərimiz qarşısında canlanır."Rast" zirvəsinə ucalana qədər Cəmil daxilən saflaşır, kamilləşir, Ağabəyli isə kiçilir, cılızlaşır.



Qərib Mehdinin istər lirik, istərsə də satirik-yumorostik planda yazdığı əsərlərində əsas mövzu mənəviyyat məsələləridir. O, təsvir etdiyi hadisələrə, insan obrazlarına da bu açpektdən yanaşır, təmiz, mənən saf insanların düşdüyü sarsıntıları qələmə alır, onları çətinliklərdən keçirir, həyatda uğur qazanmağın yollarını göstərir. "Skripka üçün mi simi" povesti zənnimcə, Qərib Mehdinin "Rast" yoluna - mənəvi saflıq platformasına sadiq qaldığını sübut edir. Bu əsəri oxuyub qurtarandan sonra bir daha "Rast" povestini xatırlamalı oldum. Bu əsərlərin biri sovet dönəmində, biri isə müstəqillik illərində yazılıb.

Amma ictimai quruluşlar, sistemlər dəyişilsə də, insanların xasiyyəti və xarakterində, əməl və hərəkətlərində oxşarlıqlar itməyib. İnsan öz keçmişindən necə ayrıla bilər, xasiyyət də, xarakter də bəzən əsrlər boyu dəyişmir. Əgər cəmiyyətdə, yaşadığımız mühitdə mənəvi iqlim korlanırsa, ilk növbədə, yazıçılar bu mühiti dəyişmək barədə fikirləşirlər. Təbii ki, onlar inqilabçı deyillər, amma bədii sözün qüdrəti hər şeyə qadirdir.

"Rast" povestində Cəmil və Sərdar Ağabəyli konflikti ilə şərtlənən həyat materialı təkcə o uzaq illəri bizə xatırlatmır. O tipli konfliktlər indi də davam edir. Nə olsun, quruluş dəyişib, insanların içindəndən ki, o pislik, yamanlıq, Şərin kökləri qeybə çəkilməyib.

"Skripka üçün mi simi"ndə də Sərdar Ağabəyli tipini əvəz edən qüvvətli bir obraz nəzərə çarpmasa da, sanki onun "törəmələri" saflığın qarşısında bir sədd kimi ucalırlar.

Doğrudur, dövran dəyişib, artıq müstəqillik illərində yaşayırıq. Qarabağ müharibəsinin şıdırğı vaxtlarıdır, amma millətin bu kor bağırsaqları hələ də irin verməkdə davam edirlər. İndi pullu Faiqlər meydan sulayır. Vaxtilə sevdiyi qadına indi o, evinin bəzəkli bir əşyası kimi baxır. Namuslu insanlar - Əhliman kişilər isə əzab çəkirlər. 400 dolları çatmır ki, musiqi istedadı olan sevimli nəvəsi üçün skripka alsın. Axır ki, dövrəsində olan adamların köməyi ilə skripka alınır. Amma uşağın ad günündə skripkanın mi simini qırır. "Skripka üçün mi simi" povestində Qərib Mehdi yeni dövrün həqiqətlərini əks edirir. Zaman dəyişib və bu dəyişilən Zaman insanların psixologiyasında, həyata münasibətində də təbəddülatlar yaradıb. Müəllif dörd obrazı diqqət mərkəzinə çəkir. Əhliman kişi öz təmizliyi və mənəvi bakirəliyilə bizə keçmiş illərin nəsr əsərlərindəki kommunist obrazlarını xatırladır.

Amma fərqi budur ki, onun mübarizə üsulu dağıdıçı xarakter daşımır, o, inqilabçı deyil. Dərdlər və xəstəliklər içində çabalayır. Amma sonadək kişi qürurunu hifz edir, bir kimsənin qarşısında əyilmir. Gəlini Humay xanım itkin düşən ərini gözləməyib ərə gedir, amma biz onu da qınamırıq. Bu tipli gözəl qadınların "fəlsəfəsi" bizə yaxşı tanışdır. Hansı şorgöz müdirinsə məşuqəsi olmaqdansa, ərə getmək daha yaxşıdır. Nəvə - Nicat isə gözlərimiz qarşısında böyüyür, yaşa dolur, anasının yanında yaşasa da, babasının tərbiyəsilə kamilləşir. Faiqə gəlinjə, dövran onların olsa da, cılız mənəviyyatları belələrini mənəvi uçuruma sürükləyir. Təbii ki, povestdə Qəribə məxsus şirin təhkiyə tərzi, hər bir hadisənin mahiyyətinə varmaq cəhdi və ən əsası lirik-psixoloci incələmələr, ana dilimizin şəhdi-şəkəri povestin məziyyətləri sayılmalıdır. Özü də maraqlıdır ki, müqayisə etdiyim bu iki povestdə Qərib Mehdinin qəhrəmanları musiqi ilə nəfəs alan insanlardır. Ancaq deyim ki, birinci povestdə-sonda RASTın qalibiyyətli sədalarını eşidiriksə, ikinci povest sanki BAYATI ŞİRAZ üstə köklənib, qəmli, amma sonu nikbinlik doğurur.

Qərib Mehdinin son illərdəki yaradıcılığını əks etdirən "İç-içə üç povest" və "Evin küçəyə baxan üzü" kitablarındakı povestləri ilə də tanış oldum. Qəribin yumora, ondan daha kəskin satiraya meyl etməsini heç də qarşılamıram. Doğrudan da, bu gün satira elə bil dinjliyə qovuşub. Mirzə Cəlil, Sabir, Haqverdiyev, Sabit Rəhman, Mir Cəlal qələminə məxsus tənqid pafosunu davam etdirənlərin sayı çox azdır. Qərib Mehdinin "Xəstə", "Prezentasiya", "Qarğa", "Eşato", "Seçim" povestləri Azərbaycan gülüşünün yeni nümunələrini bizə təqdim edir. Bu povestlər həm gülüş mədəniyyətinin indiki səviyyəsi, həm də Qərib Mehdinin satirik-yumoristik istedadı haqda müəyyən təsəvvür yaradır.

Qərib Mehdi həyatın neqativ cəhətlərini, cəmiyyətdə, yaşadığı mühitdə baş verən mənfi halları ümumiləşdirməyi qarşısına məqsəd qoyub. Onun təsvir etdiyi neqativ aləmə daxil olarkən sanki Haqverdiyevin vaxtilə ifşa hədəfinə çevirdiyi "marallar"ın yeni, müasir tipləri ilə qarşılaşırsan. Təbii ki, zaman dəyişib, indi mollaları, baqqalları, tajirləri, qoçuları deyil, alim olmaq xəyalına düşən bisavadları, istedadsız curnalistləri, bacarıqsız müğənniləri, harın biznesmenləri, bir sözlə, mənəviyyatsız adamları tənqid hədəfinə tuş etmək, onların böyük iddiaları ilə cılız varlıqları arasındakı təzadları janlandırmaq vacibdir.

Qərib Mehdinin mühahidə "teleskopu" əsasən daha çox bələd olduğu jurnalistika və elm aləminin, evlər idarəsinin, redaksiyaların üzərinə tuşlanır və yazıçı öz "marallar"nın qolundan tutub birgə-bircə onları bizə tanıdır. Kimdir bunlar? İstedadsız bir insan - Çıraq müəllim. Özünü hamıdan yuxarıda görmək arzusu ilə yaşayan bu adam "Mıx-mismar müəssisəsinin tarixi" haqqında "əsər" yazır. Göründüyündən ifrat dərəcədə artıq görünmək arzuları puça çıxır, çünki içində onu böyüdəcək mənəvi bir təpər yoxdur. O, hətta yaxşı baxmadığı anasının vəfatından da öz cılız məqsədi üçün yararlanmağa çalışır. Burda da uğursuzluğa düçar olur. Fikrimizcə, Qərib müəllim bu obraza həddindən artıq karikatura cizgiləri bəxş edib. Onsuz da bu tipli mənfilər ruhən də, daxilən də, hərəkət və əməl baxımından da eybəcərdirlər, onları daha da eybəcərləşdirmək, ifşanı ifrat qrotesk səviyyəsinə çatdırmaq o qədər də effektli görünmür. Amma bu da Qərib Mehdinin priyomudur. Qərib Mehdi dəyişilən dövranın havasını, mənəvi iqliminibəsirət gözü ilə yaxşı müşahidə edir.

"Humanist" povestində belə bir cümlə ilə rastlaşırıq: "Bir həyətdə dörd ailə yaşayırdı. Dolanışıqlarının maddi çəkisinə, nüfuzlarının əhatə dairəsinə görə bir-birindən fərqlənirdilər. Yəni, qapıları bir həyətə açılan bu dörd ailə dördmərtəbəli evə bənzəyirdi". Qərib Mehdi dövrün bu təzadlarını ustalıqla təsvir etməyə çalışır və əksərən buna nail olur. Lirik ruhlu Qərib Mehdini satiraya sövq edən də elə bu fərqli "mərtəbələrdir".

Qərib Mehdini mən Gəncədə göylərə ucalan çinara bənzətdim. Təkcə Gəncədə deyil, bütün Azərbaycanda tanınan bir yazıçı kimi şöhrətlənən Qərib Mehdi ədəbiyyat tariximizdə həmişə yaşayacaq. Əsrlərlə yaşayan çinar kimi oxucuların yaddaşında əbədi qalacaq.

## *Oynaq ağrılarının əsas səbəbi nədir?*

**"Ən çox dəyişdirilən oynaqlar diz və bud-çanaq oynaqlarıdır. Bunun əsas səbəbi sözügedən oynaqların gün ərzində bədənimizin bütün yükünü daşıması və ən çox hərəkətdə iştirak etməsidir".**

**Adalet.az xəbər verir ki. bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" efirində travmatoloq-ortoped Valid Novruzov deyib.**

**Onun sözlərinə görə, insan yeriyəndə, pilləkən qalxanda, oturub-duranda və hətta sadəcə ayaq üstə dayananda belə, ən böyük yük məhz diz və bud-çanaq oynaqlarının üzərinə düşür:**

**"İllər keçdikcə qığırdaq toxuması aşınmağa başlayır, oynaq səthləri hamar quruluşunu itirir və nəticədə ağrı yaranır. Xəstələr əvvəlcə uzun müddət piyada hərəkət edərkən narahatlıq hiss etdiklərini deyirlər, lakin zaman keçdikcə bu ağrılar gündəlik həyatın bir hissəsinə çevrilir.**

**Diz oynağında ağrı ilə yanaşı, şişkinlik, sərtlik və ayağın tam açılıb-bükülməməsi, yəni hərəkət məhdudiyyəti ilə də müşahidə oluna bilər. Bud-çanaq oynağında isə ağrı daha çox qasıq nahiyəsində hiss olunur və bəzən bud və diz nahiyəsinə yayılır".**

**Travmatoloq-ortoped bildirib ki, müasir tibbdə oynaq endoprotezləşdirilməsi insanların həyat keyfiyyətini ciddi şəkildə yaxşılaşdıran əməliyyatlardan biridir:**

**"Məqsəd yalnız ağrını aradan qaldırmaq deyil, insanın yenidən sərbəst hərəkət edə bilməsini təmin etməkdir.**

**Cərrahi müdaxilədən sonra bir çox xəstə illərlə edə bilmədiyi gündəlik fəaliyyətlərinə qayıda bilir.**

**Son illərdə texnologiyanın inkişafı ilə protezlərin keyfiyyəti və davamlılığı da xeyli artıb.**

**Bunun sayəsində əməliyyatların nəticələri daha uğurlu olur və xəstələr daha aktiv həyat yaşayırlar.**

**Diz və bud-çanaq nahiyələrindən başqa bəzi hallarda çiyin, dirsək və ayaq biləyi oynaqları da dəyişdirilə bilir.**

**Xüsusilə ağır travmalar, revmatik xəstəliklər və ya oynaqda ciddi deformasiya olduqda bu əməliyyatlara ehtiyac yaranır.**

**Ən vacib məqamlardan biri isə, xəstənin vaxtında əməliyyat üçün müraciət etməsidir. Çünki oynaq tam sıradan çıxmadan aparılan müalicə və düzgün planlaşdırılmış əməliyyat nəticələri daha uğurlu edir".**



# BAYAT



№ 87 (947)


# Bir ürək sözüm var



Qasım Qasımzadə

## Bu gün səni gördüm

Bu gün səni gördüm... kaş görməyəydim,
Duydum ki, nə böyük günahım olmuş.
Nahaqdan incidib qəlbinə dəydim,
O qəlb ki, bir zaman pənahım olmuş.

Bu gün səni gördüm... yenə təzə-tər,
Elə bil zərrəcə dəyişməmisən.
Baxış o baxışdır, gözlər o gözlər,
Duydum o əllərin istisini mən.

Bu gün səni gördüm... durduq yanaşı,
Sevindim - tapmışam mən öz sonamı.
Yox, o başqa gölə verir yaraşıq,
Uçuq yuvasına bir də qonarmı?!

Bu gün səni gördüm... gözüm önündə
Gəlib ötən günlər bir-bir dayandı.
Mən yada salıram, xatırla sən də,
Dəniz kənarında içilən andı!

Bu gün səni gördüm... o gülüşlərin,
Küsüb barışmağın düşdü yadıma.
Yenə də gülürsən sən şirin-şirin,
Mənsə kədərliyəm, çat imdadıma.

Yox, çata bilməzsən, əlin çatarmı -
Kəsmiş aralığı dağlar, dərələr.
Daha indən belə mə'nası varmı -
Gecikmiş sevdaya baxanlar gülər.

Bu gün səni gördüm... dərdlim yüz oldu,
Od qoydu sinəmə əzəl sözlərin.
İlk eşqin qönçəsi gör necə soldu...
Riqqətdən yaşarmış gülən gözlərin.

Bilirəm, bilirəm çox gileyin var,
Yaxşı duymamışam o zaman səni.
Qəlbən sevinərdi dostlar, tanışlar
Səninlə mehriban görəndə məni.

O vaxt aramıza girənlər oldu,
Ayıra bilmədim düzü əyridən.
Heyif, ayrılığa qədəm qoyuldu,
Bütün günahlara bais mənəm, mən.

Gətirib qaytardın məktublarımı,
Gülümsər şəklini verdim özünə.
Apardı xəzrimi, de, gilavarmı? -
Neysan yağışları düşdü izinə.

Ayrılıdıq... qəzəbdə coşan dalğalar
Çağırıb bir daha sınadı bizi.
Əhdə şahid olan o təzə çinar
Yelləyib başını qınadı bizi.

Hərəmiz bir səmtə üz tutub getdik,
Arzular necə də tez oldu hədər.
Fəqət qəlbimizdə biz söhbət etdik,
Gecəni yatmadıq səhərə qədər.

Sənin bizdə qalan mürəkkəbqabın
Dəydi qələmimə qələm ağladı.
Əmanət verdiyin dəftər-kitabın
Elə bil mənimlə küsü saxladı.

Çəkindim hər şeydən... əllərin dəyən
Bir şeyə əlimi vura bilmədim.
Gəl ötən günləri xatırla deyən
Çinarın yanında dura bilmədim

Bu gün səni gördüm... o vüqarınla,
O saf ürəyində əlimi sıxdın.
Zaman imtahandır - düz ilqarınla
Hər sorğu-sualdan sən haqlı çıxdın.

Bu gün səni gördüm... kaş görməyəydim.
Dedim tanımaram qarşıma çıxsan.
Durmusan önümdə.
Kim inanar, kim
Ah, necə yaxınsan... necə uzaqsan...

## İnsan-alov

Səni gördüm...
görməmişdim binadan
şaqraq-şaqraq söz danışan alovu.

Səni gördüm...
görməmişdim, bircə an
sükut içrə qəfil coşan alovu.

Görməmişdim arzuları gül edən,
görməmişdim murazları kül edən
gah ağıllı, gah da çaşan alovu.

Səni gördüm...
Heyrət etdim bəşərə -
necə olub od salmayıb şəhərə
baxışından çaytək daşan alovu.

Heyrət etdim - nə əcəb sən keçdikcə
çatır-çatır alışmayıb bağ, küçə?!
Səni gördüm...
Gördüm aman, gördüm mən
ətrafına qor çiləyib su səpən
möcüzəni -
insanlaşan alovu.

## Gəlmişəm

Səndən ayrılanda, dağlar, cavandım,
İndi görüşünə qoca gəlmişəm.
Qayğılar üstümə düşdü - talandım,
Üzümə üz tutub borca gəlmişəm.

Diləyim çoxsa da, gəl əsirgəmə,
Nə arzu eləsəm, yoxumdur demə.
Qaytar sən bu dəmdən məni o dəmə,
Düşmüşəm yamanca suça, gəlmişəm.

Mehribandır obaların, ellərin,
Şəfalıdır çiçəklərin, güllərin,
Məlhəm olsun deyə sərin yellərin
Sinəmi mən aça-aça gəlmişəm.

Xatirəmin güllərini üzməyə,
Cığır örtən otlarını əzməyə,
Haraylayıb gəncliyimi gəzməyə,
Yollarını quca-quca gəlmişəm.

Zəri alçı duran bəxtə-naxışa,
Möhkəmcə yaddaşa, möhkəmcə huşa,
Cağbacağ dişlərə - üyüdən daşa,
Yapdığım küt gedir, saca gəlmişəm.

Baxışda tüğyana gələn dənizə,
Qırışsız alına, gözlüksüz gözə,
Çəliksiz əllərə, əsməyən dizə,
Bükülməyən qola-qıça gəlmişəm.

Yanaqda közərən laləyə, gülə,
İlanı yuvadan çıxaran dilə,
Dayı dedirtməyən qapqara telə,
Hələ dən düşməyən saça gəlmişəm.

Damaqdan getməyən dada-ləzzətə,
Qızlar bəyəndiyi boya-qamətə,
İti, şux yerişə, taba-taqətə
Möhtac qalıb, uça-uça gəlmişəm.

Tövşümək bilməyən odlu nəfəsə...
Durnanı havada saxlayan səsə,
Tükənməz nəş'əyə, bitməz həvəsə,
Hünərə, qüdrətə, taca gəlmişəm.

Ömrün zinətini illər alıbdır,
Mahir oğru kimi bir-bir çalıbdır.
Bircə sən verdiyin vüqar qalıbdır,
Hüzuruna başı uca gəlmişəm!

## Baxıram dünyaya sənin gözünlə...

Baxıram dünyaya sənin gözünlə,
harda işıq varsa iz səninkidir.
Baxışlarım dan yerinə od saçır -
zülmətə köz salan göz səninkidir.

Oldum sərnişini nur gəmisinin,
bu da meracıdır eşq dəlisinin,
Rəbbimin ən gözəl təcəllisini
görürəm qarşımda üz səninkidir.

Ruhun ucalarda şad olsun deyə
oxu, nələr vermiş Tanrı bəndəyə,
mən yerdən göylərə yüksələn ayə -
üstündən qalxdığım miz səninkidir.

Dar eylərəm qaranlığın yerini,
zülmət dələn taleyim bir mərmimi,
sən özün cəm eylə qəlpələrimi,
göyə ulduz-ulduz düz, səninkidir.

Mən hicran qənimi, vüsal dəmiyəm,
içirəm ruhundan, dəmlər dəmiyəm,
tənimlə badəyəm, ruhumla meyəm,
içəlim bu meyi, süz, səninkidir.

Yerişim, duruşum, qaçışım səndə,
həvəsim, ilhamım, uçuşum səndə,
göylərin, yerlərin Rəbbi önündə
səcdəyə gedirəm, diz səninkidir.

Canın canımdadır, qanın qanımda,
ayrılmaz ruhlarıq Tanrı yanında,
qiyamət günündə, məhşər anında
sənsən şəfaətçi, söz səninkidir.

## Pənah gətirmişəm

Xırda bir uşaqdın mən görən zaman,
Eşqdən, sevdadan yoxdu xəbərin.
Baxırdı hər şeyə vurğuntək heyran
Məsum quzu kimi xumar gözlərin.

Bəzən rastlaşanda nəzərlərimiz
Utanıb qaçırdın, yadında varmı?
Uşaqdıq, yox idi dərdi-sərimiz,
O günlər geriyə heç qayıdarmı?

O şirin çağlardan neçə il keçir,
Ömür öz atını çapır dördnala.
Söylə, o günləri yad eləyib bir
Barı getmisənmi sən də xəyala?

Qaynar gözlərini gördüm yenidən,
İndi başqa məna duyuram onda...
O odlu baxışlar özüm bilmədən
Qalamış könlümü görünməz oda.

Açmasam sinəmi yandırar bu ah,
Bir ürək sözüm var - çırpma daşlara,
Sizə bu qış çağı gətirdim pənah,
Çatdır öz əlinlə məni bahara!

## Anamgildədir

Şirinli-acılı ömür keçmişəm,
Yaxşını-yamanı görüb seçmişəm.
Evli-eşikliyəm, var işim-peşəm...
Uşaqlıq həsrəti anamgildədir.

Ürək ağrısına hey dözə-dözə,
Duranda nadanla bəzən üz-üzə
Bir səs eşidirəm: "Oğul gəl bizə..."
Dizimin taqəti anamgildədir.

Neçə anaya da, anam anadır,
"Aləm bir yanadır, o bir yanadır".
O açan süfrədə şor da bal dadır,
Ağzımın ləzzəti anamgildədir.

Gəlinin, yeznənin bilir yerini,
Çəkir qardaş-bacı dərdi-sərini.
Ərköyün böyüdür nəvələrini,
Hər kəsin qisməti, anamgildədir.

Qızına bilmirik oduna qazın:
Havası isinmir otağımızın.
İndi duyuram ki, ocağımızın
Közü-hərarəti anamgildədir.

Ömrün qar fəslidir, ağarıb saçım,
Məni ata bilir, qardaşım, bacım,
Çətində mən kimin yanına qaçım?
Ata şan-şövkəti anamgildədir.

## Təbiətin qız vaxtıdır

Günəş baxır təbəssümlə -
Duman dönür qızıl tülə,
Buzlu şırran gəlir dilə:
Novruz çatıb yaz vaxtıdır.

Yolda dardan dara düşüb,
Çox tufana, qara düşüb
Bədxahları tora düşüb,
Kef-damağın saz vaxtıdır.

Şimşək çaxır, biz də çaxaq,
Yığıb dərdi qalaq-qalaq
Komasına qoy od vuraq,
Ocaq vaxtı, köz vaxtıdır.

Ara, axtar hər guşəni,
Gəz çəməni, gəz meşəni,
Öpüb ayılt bənövşəni,
Təbiətin qız vaxtıdır.

Başqalaşıb üzü dönsə,
Çiçək üstdə qar görünsə,
Hərarəti artsa, sönsə,
İncimə ki, naz vaxtıdır.

Küsmüsənsə barış bu gün,
El-obaya qarış bu gün.
Gözəltinla danış bu gün,
Əhdin-eşqin düz vaxtıdır.

Çərşənbənin son axşamı,
Qoşa yanır tale şamı.
İstəyinə çatsın hamı,
Hər qismətin öz vaxtıdır.

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 22 (2494) 19 iyun 2026-cı il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



# HACIQABUL YÜKSƏK İNKİŞAF YOLLARINDA

**Bu gün çox sevindirici haldır ki, ölkəmizdə hansı rayona, hansı qəsəbəyə və hansı kəndə yolun düşsə orda birmənalı olaraq böyük quruculuq, abadlıq, tikinti işlərinin şahidi olarsan. Təbii ki, bu məsələləri də həyata keçirmək heç də elə-belə baş vermir. Ən azından ona görə ki, dövlətin, hökumətin və konkret olaraq, ölkə prezidenti cənab İlham Əliyevin qayğısı və köməkliyi olmasa məmləkətimizdə bu qədər möhtəşəm işləri gerçəkləşdirmək mümkün olmaz. Amma Azərbaycan prezidenti cənab İlham Əliyev ölkəmizin bütün regionlarına həmişə doğma münasibət bəsləyib və həmin yerlərdə tikinti-quruculuq, abadlıq işlərinin görülməsi üçün maddi və mənəvi dəstək verib.**



Belə rayonlardan biri də Hacıqabuldur. Hacıqabul digər rayonlarla müqayisədə kiçik olmasına baxmayaraq, onun da öz ərazisi, iqtisadiyyatı və inkişaf yolları mövcud olub. Sovet dönəmində belə bu rayonda kənd təsərrüfatının, xüsusilə taxılçılığın və heyvandarlığın inkişafı ön plana çəkilib. Ulu Öndər Heydər Əliyev ikinci dəfə xalqın tələbi ilə hakimiyyətə gələndən sonra bir çox rayonlar kimi Hacıqabula da böyük diqqət yetirirdi. Çünki bir müddət gözdən uzaq, könüldən iraq olan bu rayonun iqtisadiyyatı, kənd təsərrüfatı və hətta infrastrukturu çox bərbad gündəydi. Təbii ki, Ulu Öndər çox çətin bir vəziyyətdə Azərbaycanın ağır bir günündə hakimiyyətə gəlmişdi. Bir yandan torpaqlarımızın, ərazilərimizin 20 faizinin işğal olunması, digər tərəfdən də iqtisadiyyatımızın çökməsi Ulu Öndərin əsas diqqət mərkəzindəydi. Və onun uzaqgörən siyasəti nəticəsində qısa zaman kəsiyində iqtisadiyyatımız inkişaf etdi, dirçəldi və yeni mərhələyə qədəm qoydu. Bax, bu zaman ərəfəsində Hacıqabula da xüsusi diqqət yetirildi. Dağılmış, sıradan çıxmış və bərbad günə düşmüş yollar yenidən inşa edildi, işıq, qaz, su xətləri əksər yaşayış məntəqələrində yeniləri ilə əvəzləndi. Başqa sözlə demiş olsaq, rayonun infrastrukturu və eləcə də iqtisadiyyatı yenidən qurulmağa başladı.

Təbii ki, bunların həyata keçirilməsi üçün külli miqdarda vəsait tələb olunurdu və bu vəsait də həmin rayona dövlət tərəfindən ayrılırdı. Əlbəttə, sosial-iqtisadi inkişafı təmin etmək, abadlıq və quruculuq işlərini həyata keçirmək elə də asan məsələ deyildi. Bunun üçün rayonda bütün qüvvələr səfərbər edildi. Müstəqillik dövründən bir müddət keçəndən sonra rayon iqtisadiyyatı zaman-zaman dirçəlməyə başladı. Heyvandarlıq, o cümlədən quşçuluq sənayesi yenidən quruldu, taxılçılığın inkişafına xüsusi önəm verildi. Bununla yanaşı, balıqçılıq və digər məhsulların istehsalı da birmənalı olaraq unudulmadı.

Əgər bu gün kiminsə yolu Hacıqabula düşsə, orda gedən abadlıq və quruculuq işlərinin şahidi ola bilər. Şahidi ola bilər ki, son illər ərzində rayonda neçə-neçə yeni məktəb, uşaq başçası, xəstəxana və eləcə də digər sosial obyektlər, ictimai iaşı müəssisələri, restoranlar, şadlıq sarayları tikilərək əhalinin istifadəsinə verilib. Heydər Əliyev Parkı, Dədə Qorqud və digər parklar və xiyabanlar dediklərimizə əyani nümunədir. Həmin yerlərdə bir-birindən gözəl yaşıllıqlar zolağı yaradılmış, ağaclar, güllər-çiçəklər əkilmişdir. Təbii ki, bu gözəllikləri yaratmaq, bu mənzərəni qurmaq elə də asan məsələ deyildir. Yəni bunun üçün dövlət və hökumət tərəfindən çox böyük vəsaitlər ayrılıb və həmin vəsaitlər də quruculuq və abadlıq işlərinə sərf edilib.

Onu da qeyd etmək lazımdır ki, bu gün rayonda bir neçə müəssisə və istehsalat sahəsi də fəaliyyət göstərir. Və həmin yerlərdə yüzlərlə insan işlə təmin edilib, rayonun iqtisadi inkişafı üçün böyük addımlar atılır. Bununla yanaşı, rayonda orta və kiçik sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb. Rayonun icra başçısı Sevindik Hətəmov mütəmadi olaraq rayonun qəsəbə, kənd və yaşayış yerlərində insanlarla səyyar görüşlər keçirir və orda sakinlərin istək və arzuları səsləndirilir, problemlər nəzərə çatdırılır və bundan da sonra mövcud məsələlərin həllinə önəm verilir.

Aydındır ki, icra başçıları insanlarla sıx təmasda olanda və onlarla səmimi münasibət yaradanda həmin rayonda daha sağlam, daha gözəl bir mühit yaranır. Bu mühitdə hər bir kadr, hər bir vəzifəli şəxs özünü daha rahat hiss edir. Bax, bu gün deyə bilərik ki, Hacıqabulda da belə bir sağlam atmosfer yaradılıb. Vətənpərvər, istedadlı və savadlı gənclər vəzifəyə təyin olunur və onlara böyük etimad göstərilir. Heç şübhəsiz, həmin şəxslər də bu göstərilən etimadı doğrultmağa çalışırlar.

Bu gün deyə bilərik ki, rayonda Dövlət Proqramına uyğun olaraq kənd təsərrüfatının inkişafı önə çəkilib. Xüsusən də balıqçılığın inkişafına daha böyük diqqət yetirilir. Ölkəmizdə 2026-2030-cu illər ərəfsində kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı Dövlət Proqramına Hacıqabulda da böyük önəm verilir. Çünki artıq insanların rayona, kəndə qayıtması haqqında dövlətimiz çox böyük bir proqram işləyib hazırlayıb. Həmin proqrama əsasən bütün rayonlarda kənd təsərrüfatı sürətlə inkişaf etdiriləcək, yeni iş yerləri açılacaq və rayonların sosial-iqtisadi inkişafı daha da sürətləndiriləcəkdir.

Hacıqabulun böyük ziyalılarından biri olan və uzun müddət müxtəlif məsul vəzifələrdə çalışmış Lətif Novruzov deyir ki, bizim rayonun insanları çox zəhmətkeş və halal adamlardılar. Onlar səhranın ortasında həyat qurmağı, gözəlliklər yaratmağı bacaran insanlardırlar. Mən tez-tez doğma yurduma - Hacıqabula və anadan olduğum Rəncbər kəndinə gedirəm. Demək olar ki, ordakı möhtəşəm abadlıq və quruculuq işlərini görəndə sevincimin həddi-hüdudu olmur. Özü də eşitmişəm ki, yeni icra başçısı Sevindik Hətəmov dövlətə, prezidentə və xalqa sadiq vətənpərvər bir ziyalıdır. Çünki Sevindik müəllim Hacıqabul camaatına, onun ziyalılarına və istedadlı adamlarına çox böyük hörmətlə yanaşır və biz də onun ətrafında birləşərək rayonumuzun günbəgün daha da inkişaf etməsi, gözəlləşməsi üçün əlimizdən gələn köməkliyi əsirgəmirik.

**Əlbəttə, əgər dövlət, cənab prezident İlham Əliyev regionlarımıza bu qədər diqqət və qayğı göstərirsə, ordakı insanlar da buna yüksək dəyər verir və bu diqqəti heç vaxt unutmurlar. Hacıqabul camaatı deyir ki, bu gün bizim rayonumuzda vəziyyət çox yaxşıdır, bir-birindən gözəl sosial obyektlər istifadəyə verilir və yeni iş yerləri açılır. Bu isə bizi doğma yurdumuza - Hacıqabulumuza daha ürəkdən bağlayır!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyənin ən gözəl turizm kəndlərinin adı açıqlandı

**2026-cı ildə "slow travel" (sakit səyahət) anlayışı artıq sadəcə yeni bir turizm tendensiyası deyil, müasir səyahət mədəniyyətinin əsas istiqamətlərindən birinə çevrilib. Sürətli şəhər həyatı, gərgin iş qrafiki və daha mənalı təcrübələrə artan maraq turistləri təkcə daha çox yer görməyə deyil, səfərlərini daha şüurlu və məqsədyönlü şəkildə planlaşdırmağa sövq edir.**

Avropa Səyahət Komissiyasının (ETC) 2026-cı il üzrə proqnoz hesabatına əsasən, sakit səyahətə maraq artmaqda davam edir. Belə ki, 2025-ci ildə bu səyahət fəlsəfəsinə üstünlük verənlərin payı 22 faiz təşkil etdiyi halda, 2026-cı ildə bu göstərici 26 faizə yüksəlib.

Məhz bu tendensiya fonunda Türkiyənin kəndləri sakit və autentik təcrübə axtaran səyahətçilər üçün ən cəlbedici istiqamətlərdən biri kimi ön plana çıxır. Anadolunun dağlıq və sahilyanı bölgələrində yerləşən bu yaşayış məntəqələri zəngin təbiəti, köklü ənənələri və yerli həyat tərzi ilə seçilir.

Əsrlər boyu formalaşmış mədəni irs, təbii və yerli məhsullara əsaslanan mətbəx ənənələri, sənətkarlıq nümunələri və özünəməxsus memarlıq bu kəndləri fərqləndirən əsas xüsusiyyətlərdəndir. Buraya gələn qonaqlar gündəlik həyatın sürətindən uzaqlaşaraq, daha sakit və mənalı bir səyahət təcrübəsi yaşamaq imkanı əldə edirlər.

Türkiyənin bəzi kəndləri BMT Turizminin "Ən Yaxşı Turizm Kəndləri" proqramı çərçivəsində beynəlxalq səviyyədə tanınıb. Bu status həmin yaşayış məntəqələrinin davamlı turizm prinsiplərinə sadiqliyini və yerli icmaların inkişafına verdiyi töhfəni təsdiqləyir.

BMT Turizmi tərəfindən 2025-ci ilin "Ən Yaxşı Turizm Kəndləri" siyahısına daxil edilən Barbaros kəndi İzmirin Urla rayonunda yerləşən, təxminən 700 illik tarixi ilə seçilən sakit yaşayış məntəqələrindən biridir. Ənənəvi Egey həyat tərzini qoruyub saxlayan kənd qonaqlara təbiət və yerli mədəniyyətlə iç-içə istirahət imkanı təqdim edir.

Barbarosa gələn turistlər bərpa olunaraq qorunan daş evlərdə qala, daş döşənmiş küçələrdə gəzə, həmçinin əl işləri mağazaları və emalatxanaları vasitəsilə yerli qadın sənətkarların fəaliyyətinə dəstək verə bilirlər.

Kəndin ən diqqətçəkən ənənələrindən biri "Çat Kapı" adlanan qonaqpərvərlik mədəniyyətidir. Evlərin qapılarında yerləşdirilən xüsusi işarə qonaqları ev şəraitində hazırlanmış Egey mətbəxi nümunələrini dadmağa dəvət edir. Yaxın ərazilərdə əldə olunan zeytun yağından, həyətyanı sahələrdə yetişdirilən tərəvəzlərdən və təzə ədviyyatlardan istifadə olunaraq hazırlanan yeməklər kəndin kulinariya mədəniyyətinin ayrılmaz hissəsidir. Ən məşhur təamlardan biri əl istehsalı kəsmik, cəfəri və soğanla hazırlanan isti və duzlu "katmer"dir.

Yaz aylarında kənd sakinləri "karabaşotu" kimi tanınan lavanda növünü yığaraq Barbarosun təbii gözəlliyinə və özünəməxsus atmosferinə əlavə rəng qatırlar.

Kənd həyatını yaxından tanımaq istəyənlər üçün sentyabr ayında keçirilən Oyuk Festivalı (ənənəvi qorxuluq fiqurları festivalı) xüsusi əhəmiyyət daşıyır. Əl işi ilə hazırlanan qorxuluqlar festival günlərində küçələrdə nümayiş etdirilir və daha sonra ilboyu sərgilənərək Barbarosu açıq səma altında fəaliyyət göstərən sənət qalereyasına çevirir. Kənddən cəmi üç kilometr məsafədə yerləşən Urla Üzüm Bağları Marşrutu isə Türkiyədə MICHELIN Bələdçisinə daxil edilmiş restoranların ən sıx toplandığı bölgələrdən biri hesab olunur. Bu xüsusiyyət Barbarosu həm sakit kənd həyatı, həm də zəngin qastronomiya təcrübəsi axtaranlar üçün ideal istiqamətə çevirir. Gün ərzində kulinariya kəşfləri, axşam saatlarında isə kəndin sakit atmosferi qonaqlara unudulmaz təcrübə vəd edir. Türkiyə Rivyerasının ürəyi hesab olunan Antalya BMT Turizmi tərəfindən "Ən Yaxşı Turizm Kəndləri" siyahısına daxil edilmiş iki fərqli yaşayış məntəqəsinə ev sahibliyi edir. Kaleüçağız və Ormana kəndləri sakit səyahət anlayışını müxtəlif aspektlərdən təqdim edərək ziyarətçilərə fərqli təcrübələr vəd edir.



"Qala kəndi" kimi də tanınan Kaleüçağız öz sakit atmosferi, zəngin tarixi və macəra imkanları ilə diqqət çəkir. Daş evlərlə əhatələnmiş dar küçələr qonaqları ailəvi restoranlara, sənət emalatxanalarına və kəndə adını verən orta əsrlərə aid qalaya aparır.

Firuzəyi rəngli dəniz suları qayıq turları, dəniz kayakları və dalğıc həvəskarları üçün əlverişli şərait yaradır. Kənd eyni zamanda dünyanın ən məşhur uzun məsafəli yürüş marşrutlarından biri hesab edilən Likya Yoluna çıxış nöqtələrindən biri kimi tanınır.

Kaleüçağıza yaxın ərazilərdə yerləşən qədim Mira şəhəri və Demredəki Müqəddəs Nikolay kilsəsi də bölgənin mədəni və mənəvi irsini zənginləşdirir. Dünyada Santa Klaus kimi tanınan Müqəddəs Nikolaya həsr olunan bu məkanlar turistlərin xüsusi maraq göstərdiyi ünvanlar sırasındadır.

Toros dağlarının İbradı rayonunda yerləşən Ormana kəndi isə Türkiyənin ən fərqli və gizli cənnətlərindən biri hesab olunur. Kənd xüsusilə nəsildən-nəslə ötürülən tikinti üsulları ilə, heç bir mıxdan istifadə edilmədən yerli daş və sidr ağacından inşa edilən unikal düyməli evləri ilə məşhurdur. Bu tarixi tikililərin bir qismi bu gün butik otel kimi fəaliyyət göstərir və qonaqlara canlı mədəni irsin bir hissəsi olmaq imkanı yaradır. Ormana həm də zəngin qastronomiyası ilə seçilir. Özgil göbələyi, yerli otlar, üzüm və bəkməz, sərbəst otlayan heyvanlardan əldə olunan keçi pendiri ilə birlikdə bölgənin "fermadan süfrəyə" konsepsiyasını əks etdirən unudulmaz dadlar təqdim edir. Kəndə məxsus ənənəvi Gılamık ipək toxuculuğu isə turistlər üçün xüsusi hədiyyə seçimlərindən sayılır. Kəndin yaxınlığında yerləşən Altınbeşik mağarası Türkiyənin ən böyük yeraltı gölünə ev sahibliyi edir. Eynif düzənliyi vəhşi atları ilə məşhur olduğu halda, Tol Han karvansarayının qalıqları vaxtilə bu ərazilərdən keçən qədim İpək Yolunun izlərini yaşadır.

Ormana kəndi ənənəvi memarlıq nümunələrinin qorunması və davamlı kənd turizminin inkişafı sahəsindəki uğurlarına görə GoTürkiye platformasının ən yaxşı davamlı səyahət marşrutları siyahısında da xüsusi yer tutur. Kənd bu gün Türkiyədə ekoloji və məsuliyyətli turizmin ən uğurlu nümunələrindən biri kimi qiymətləndirilir.

Keçmişdə süryani dilində "Hah" adı ilə tanınan Anıtlı kəndi Türkiyənin ən fərqli sakit səyahət istiqamətlərindən biri hesab olunur.

Mardinin Midyat rayonunda, zəngin tarixi və mədəni irsi ilə seçilən Tur Abdin bölgəsində yerləşən kənd əsrlər boyu yanaşı yaşayan süryani xristian və müsəlman icmalarının formalaşdırdığı özünəməxsus atmosferi ilə diqqət çəkir. Bal rəngli daş tikililər və qədim monastırlar Anıtlıya orta əsrlərin xatırladan xüsusi bir aura bəxş edir.

Anıtlı kəndi UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilmiş "Midyat və ətrafındakı gec antik dövr və orta əsr kilsələri və monastırları (Tur Abdin)" kompleksinin bir hissəsidir. Bölgənin ən mühüm tarixi məkanlarından biri isə eramızın 397-ci ilində inşa edilmiş və bu günədək fəaliyyətini davam etdirən dünyanın ən qədim Süryani Pravoslav monastırı sayılan Mor Gabriel monastırıdır.

Kəndin özündə yerləşən Müqəddəs Məryəm kilsəsi isə qonaqlara fərqli və autentik yaşayış təcrübəsi təqdim edir. Burada hər 15 gündən bir keçirilən dini ayinlər və səhər ibadətləri ziyarətçilərə bölgənin əsrlərdən gələn ənənələrini yaxından müşahidə etmək imkanı yaradır. Tur Abdin bölgəsi zəngin qastronomiyası ilə də seçilir.

Ənənəvi üsullarla hazırlanan ev şərabı, əsrlərdir dəyişməyən reseptlə bişirilən noxudlu çörək, süryani böreyi, müxtəlif turşular və badamdan hazırlanan şirniyyatlar bölgənin ən məşhur təamları sırasındadır. Yerli ədviyyatlardan geniş istifadə, meyvə və ətin ahəngdar vəhdəti, həmçinin sənətkarlıq ənənələrinə əsaslanan mətbəx mədəniyyəti Mardinin qastronomiyasına olan marağı ildən-ilə artırır.

Bölgəyə gələnlər kənd həyatını yaxından hiss etmək imkanı da əldə edirlər.

Qoyun sağımında iştirak etmək və ya məhsul yığımına qoşulmaq turistlərə yerli həyat tərzini daha yaxından tanımağa şərait yaradır.

Tur Abdin ilboyu müxtəlif mədəni tədbirlərə də ev sahibliyi edir. SineMardin Beynəlxalq Film Festivalı, Midyat Beynəlxalq Mədəniyyət və İncəsənət Festivalı, Harire Üzüm Festivalı və Mardin Biennalesi bölgənin zəngin və çoxqatlı mədəni mənzərəsini əks etdirən mühüm tədbirlər sırasındadır.

**Anıtlı kəndinə gələn turistlərin əksəriyyəti kənddən təxminən 20 kilometr məsafədə yerləşən Midyatdakı tarixi daş evlərdə qalmağa üstünlük verir. Bir çox məşhur türk seriallarının çəkildiyi bu evlər bölgənin simvollarından hesab olunur. Bununla belə, ən fərqli və yaddaqalan təcrübə məhz kənddəki kilsə kompleksində gecələməklə yaşanır və qonaqlara orta əsrlərin ab-havasını daha yaxından hiss etmək imkanı verir.**

## Əməkdar artist: "Ağır stress keçirdim"

**Əməkdar artist Mətanət İsgəndərli yaşadığı olayla bağlı danışıb.**



Adalet.az bildirir ki, o, bahalı zinət əşyasını itirdiyinə görə sarsıldığını söyləyib:

"İlk konsertimdən sonra stressdən şişmişdim. Pis hallar keçirdim. Ondan sonra özümə söz verdim ki, konsert etməyəcəm. Çünki həm konsert zəhmətdir, həm də orda travma yaşadım. Bir qohumum var idi, qızıl dükanı işlədirdi. Gətirib mənə çox bahalı bir qolbaq verdi ki, bunu konsertdə istifadə et, reklam olunsun. Mən də razılaşdım. Mənim üçün 1996-cı ildə 100.000 ABŞ dolları böyük məbləğ idi. Konsert başlamağa az qalıb, gördüm ki, qolbaq qolumda yoxdur. Böyük stress yaşadım. Səhnəyə çıxmaq istəmədim. Düşündüm ki, onun pulunu necə qaytaracam. Mən axı niyə bu qolbağı götürdüm? Bu kimi suallarla özümü danladım. Uzun zaman o stressi yaşadım".

## Ayan: "Övladıma deyə bilmərəm ki..."

**Müğənni Ayan Babakişiyeva bəzi valideynləri tənqid edib.**

Adalet.az bildirir ki, o, valideynin övlad üzərində mənəvi borcundan danışıb:

"Bütün valideynlər dünyaya övlad gətirirsə, onu böyütməyə borcludur. Mən övladıma deyə bilmərəm ki, mən səni böyütmüşəmsə, sən də mənə baxmalısan. Axı belə bir qanun yoxdur. Biz övladı elə yetişdirməliyik ki, mərhəmətli olsun. Ancaq ondan heç nə tələb edə bilmərik. Onsuzda mərhəməti olan övlad valideyni sevəcək. Sevgi varsa, deməl hər şey var".

## Xanəndə: "Elə həmkarlarım var ki..."

**Gənc xanəndə Gülnar Zeynalova duet ortağı Cahangir Əliyevla onların münasibətinə sərinlik gətirən şəxslərdən danışıb.**

Adalet.az bildirir ki, o, həmkarları arasında belə insanların var olduğunu etiraf edib:

" Cahangir çox gözəl dostdur. Onunla duet mənə uğur gətirdi. Onun mənə dəstəyini necə gizlədə bilərəm? Adam zəhmət itirməz. Mənim uğurlarıma sevinənlərə yanaşı, bunu qəbul etməyənlər də var. Elə həmkarlarım var ki, Cahangirdən mənə danışırlar. Onlara cavabım bu olur ki, hər kəs öz işi ilə məşğul olsun. Cahangir mənim haqqımda nəsə deyibsə, o bilər, mən bilərəm. Onları sözlərinə uyub, qərar vermirəm".

**Əntiqə**

---

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi **Əbülfət Mədətoğluna** dayısı

**Arif kişinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi **Əbülfət Mədətoğluna** xalası oğlu

**Germanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şamxal Şabiyev **Əbülfət Mədətoğluna** dayısı

**Arif kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şamxal Şabiyev **Əbülfət Mədətoğluna** xalası oğlu

**Germanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xosrov, Hüsniyyə, Hacı Rasim, Tahir Zülfüqarovlar, Asiya Nəsrullayeva Xuraman, Nəzakət, Pərvanə, Kəmalə, İlhamə Məmmədovalara, Rəşad Uğur oğluna əzizləri

**Məmmədov Uğur Seyfulla oğlunun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun yaxınları və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

---

Hüsniyyə Əlizadə, Aysu Əsgərqızı, Cəmilə xanım Kamal, Hafiz, Fəzilə, Məlahət Kamil qızına, Orxan bəyə Gövhər və Damla xanıma əzizləri

**Yəhyayeva Sevil Kamil qızının**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun yaxınlarına və doğmalarına dərin hüzünlə başsağlığı verirlər.

---


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 282
Çapa imzalanmışdır: 18.06.2026